RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 173 (10193) 23 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Biz bu proqramı istənilən halda icra edəcəyik"

### Prezident İlham Əliyevin sədrliyi ilə dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirə keçirilib

**Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.**

2-3



## Zəfərdən sonra başlayan yeni mərhələnin yol xəritəsi

### Bunu dövlətimizin başçısı 2024-cü il sentyabrın 23-də Milli Məclisin ilk iclasında çıxışında təqdim etdi




Dövlət başçısının nitqində xüsusi yer tutan məsələlərdən biri isə gənc nəslin yetişdirilməsidir. Prezidentin "Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir" fikri, əslində, çox geniş ictimai məsuliyyət məsələsini gündəmə gətirir. Zəfər qazanan dövlətin gələcəyini yalnız bugünkü nəsil deyil, sabahın gəncləri də müəyyən edəcək. Ona görə bilikli, savadlı, milli dəyərlərə bağlı, eyni zamanda müasir dünyanı dərk edən gəncliyin yetişdirilməsi uzunmüddətli dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi görünür.

Prezidentin çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ən geniş yer ayırdığı mövzulardandır. Burada rəqəmlər, sadəcə, statistik göstəricilər deyil, müharibədən sonra qarşıya qoyulmuş nəhəng quruculuq vəzifəsinin miqyasını göstərən faktlardır.

6

## Unikal dialoq məkanı

### Bakı platforması beynəlxalq təhlükəsizlik arxitekturasına mühüm töhfə verəcək

Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı ilə keçirilən "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusundakı IV Bakı Təhlükəsizlik Forumu öz miqyası və əhatə dairəsi ilə qlobal əhəmiyyətli hadisə kimi diqqəti cəlb edir.

Baku Security FORUM

Bakıda keçirilən bu beynəlxalq forum dünya ölkələrinin xüsusi xidmət və təhlükəsizlik orqanları üçün strateji əhəmiyyətli dialoq platformasıdır. Tədbirdə beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələrinin iştirakı Azərbaycanın qlobal təhlükəsizlik sistemində oynadığı birləşdirici rolun bariz göstəricisidir.

Tədbirə 600-ə yaxın yüksəksəviyyəli nümayəndənin qatılması 2023-cü ildən başlanan davamlı dialoqun coğrafi miqyasının sürətlə genişləndiyini, Bakı platformasına olan beynəlxalq etimadın yüksək səviyyədə olduğunu təsdiqləyir.

Əslində, Azərbaycanın bu cür möhtəşəm tədbirlərə evsahibliyi etməsi təsadüfi xarakter daşımır. Ölkəmiz uzun illərdir ki, qlobal diplomatik, siyasi və humanitar dialoqun əsas mərkəzlərindən biri kimi tanınır.

5

## Yeni dünya nizamında Bakının güclənən mövqeyi

### Ölkəmizin etibarlı tərəfdaş imici möhkəmlənir, dialoq məkanı və qlobal təşəbbüslərin müəllifi kimi nüfuzu daha da artır



Suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən ölkəmiz Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar sayəsində beynəlxalq münasibətlər sistemində strateji çəkisini əhəmiyyətli dərəcədə artırıb, özünü regional çərçivədən kənarda təsir imkanlarına malik "orta güc" kimi təsdiqləyib. Son dövrlərdə qazanılan tarixi nailiyyətlərin, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artmasının, dəyişən dünya nizamında mövqeyinin güclənməsində Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara əsaslanan müdrik siyasəti dayanır.

Dövlətimizin başçısının qlobal geosiyasi proseslərin inkişaf meyillərini vaxtında və düzgün qiymətləndirmək bacarığı və qətiyyətli mövqeyi Azərbaycanı mümkün təhdidlərdən qoruyaraq tarixi inkişaf mərhələsinə çıxarıb. Məhz Prezident İlham Əliyevin liderliyi sayəsində ölkəmiz regional lider statusunu aşaraq qlobal miqyasda söz sahibi olan, geosiyasi təşəbbüsləri dəstəklənən və rəyi nəzərə alınan müstəqil güc mərkəzinə çevrilib. Bu uzaqgörən xətt Azərbaycanın həm hərbi-siyasi müstəvidə, həm də diplomatik və iqtisadi sferada davamlı uğurlar qazanmasını təmin edən əsas hərəkətverici qüvvədir.

6



## Erməni saxtakarlığı dünyada ifşa olunur

### Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr Azərbaycanın tarixi-mədəni sərvətidir

Azərbaycan dövləti hər zaman Qafqaz Alban irsinin qorunmasına xüsusi diqqət yetirib. 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib və Alban Udi dini icmasının istifadəsinə verilib. Nicdə yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsinin bərpa işləri isə 2020-ci ildə pandemiyaya, 44 günlük müharibənin başlamasına baxmayaraq, davam etdirilib, açılışı da elə həmin il noyabrın 7-də olub.

8

## Dəyişən dünyanın ritmində Dördüncü Sənaye İnqilabı



Həyata keçirilən mühüm addımlardan biri 2021-ci il yanvarın 6-da Prezident İlham Əliyevin imzaladığı fərmanla Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) yaradılmasıdır. 4SİM-in fəaliyyətinin əsasını yeni texnologiyaların izlənilməsi, onların yaratdığı imkanların müəyyənləşdirilməsi və ondan səmərəli istifadə təşkil edir. Mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və əlaqələndirməni həyata keçirir, rəqəmsal iqtisadiyyatın qarşısında dayanan problemləri, yeni təşəbbüsləri, strategiyaları və layihələri təhlil edir. Bununla da 4SİM ölkəmizin qlobal texnoloji transformasiya proseslərində daha fəal iştirakına, qabaqcıl təcrübələrin öyrənilməsinə və yeni imkanların ölkə daxilində tətbiqinə zəmin yaradır.

Əslində, bu hekayənin başlanğıcı 2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumuna (DİF) gedib çıxır. Həmin gün Prezident İlham Əliyev və DİF prezidenti Borge Brende arasında forumun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalandı. Bu sənəd Azərbaycanın qlobal texnoloji gündəlikdə daha fəal yer tutması istiqamətində atılan vacib addımlardan biri oldu.

7

# "Biz bu proqramı istənilən halda icra edəcəyik"

## Prezident İlham Əliyevin sədrliyi ilə dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirə keçirilib



### Prezident İlham Əliyevin çıxışı

- Ölkə iqtisadiyyatı üçün çox perspektivli sahə olan dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı bu gün bizə təqdim ediləcək. Proqramın hazırlanması üçün mən bir müddət bundan əvvəl - aprelin əvvəlində müvafiq sərəncam imzalamışam. Bu aylar ərzində proqram üzərində hazırlıq işləri gedirdi. Bu proqram bu gün bizə və Azərbaycan ictimaiyyətinə təqdim olunacaqdır.

Bu sahə ölkə iqtisadiyyatı üçün, xüsusilə ölkəmizin qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıyır, çox perspektivli sahədir. Düzdür, maliyyətutumlu sahədir, amma eyni zamanda ölkəmizdə yeni, müasir sənaye istiqaməti yaradılacaqdır. Beş mindən çox daimi iş yerlərinin açılması nəzərdə tutulur. Bütövlükdə bizim təbii resurslarımızın işlənməsi və onlardan səmərəli şəkildə istifadə olunması, eyni zamanda istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını gücləndirəcək.

Deyə bilərəm ki, son vaxtlar bir neçə dövlət proqramı qəbul olunmuşdur. Qəbul edilmiş bütün proqramlar çox konkretdir, qısamüddətlidir və son məqsədə çatmaq üçün həm dövlət büdcəsində növbəti illər üçün maliyyə təminatı, həm də investisiya proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Eyni zamanda bu proqramların icra və nəzarət mexanizmləri də tam hazırdır.

Qəbul edilmiş proqramlar arasında, əlbəttə ki, ilk növbədə üç əsas istiqaməti qeyd edərdim, halbuki daha çox proqram qəbul edilib. Amma kənd təsərrüfatına, nəqliyyata, su təsərrüfatına - həm meliorasiya, həm Bakı və Abşeron yarımadasının su təminatına dair dövlət proqramları, əlbəttə ki, çox böyük vəsait tələb edir. Amma bu proqramlar həm ölkə iqtisadiyyatını gücləndirəcək, eyni zamanda vətəndaşların sosial vəziyyətini və müasir infrastrukturla təmin olunmasını təmin edəcəkdir.

Qeyd etdiyim kimi, qəbul edilmiş proqramlar qısamüddətlidir, 2030-cu ilin sonuna qədər icra edilməlidir. Düzdür, su proqramı daha böyük vaxt tələb edir. Amma dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair proqram da cəmi 4 il ərzində icra edilməlidir. 2027-2030-cu illərdə proqram tam icra edilməlidir. Qəbul ediləcək bu yeni proqram eyni zamanda bizim regionların sosial-iqtisadi inkişafına dair gündəliyimizi əks etdirir.

Bildiyiniz kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair bir neçə dövlət proqramı qəbul edilmişdir. Birinci Proqram 2004-cü ilin əvvəlində qəbul edilmişdir. Əslində, bu, 2003-cü ildə keçirilmiş prezident seçkilərindən sonra qəbul edilmiş ən önəmli proqramdır. Ondan sonra bir neçə beşillik proqram qəbul edilib və faktiki olaraq regionlarda əsas infrastruktur layihələri icra edilib. Düzdür, bu layihələrin icrası bu gün də davam edir. Çünki əhali artır, məşğulluq artır, iqtisadiyyat artır. Ona görə bu proqramlar statik vəziyyətdə deyil, daim o proqramlara əlavələr edilməlidir və bu gün dövlət investisiya proqramlarında, hər il qəbul etdiyimiz proqramlarda bölgələrin inkişafı xüsusi yer tutur.

Bir daha demək istəyirəm, bu 20 il ərzində görülmüş işlər imkan verdi ki, biz əsas infrastruktur layihələrimizi icra etdik. O vaxt xaricdən həm təbii qaz, həm də elektrik enerjisi alırdıq. Bizim öz imkanlarımız çox məhdud idi. Bu gün isə ölkəmizdə qazlaşmanın səviyyəsi 96 faizdir və biz 25 milyard kubmetrdən çox qaz ixrac edirik. Daxili tələbat bundan qat-qat aşağıdır. Biz elektrik enerjisi ilə bağlı bütün məsələləri həll etdik və çox güclü potensial yaratdıq. Bu gün bizdə ehtiyat generasiya gücləri kifayət qədər böyükdür. Müəyyən həcmdə ixrac da edilir, amma növbəti illərdə bu ixrac genişmiqyaslı olacaq, xüsusilə nəzərə alsaq ki, dünya bazarlarında enerji resursları ilə bağlı - elektrik enerjisi, yanacaq, təbii qaz, bütün bu əsas enerji təhlükəsizliyini təmin edən bu məhsullarla bağlı böyük narahatlıq var, qıtlıq var. Yəni dünya mənzərəsi göz önündədir. Ona görə bütün bu işlərin vaxtında görülməsi ilə bağlı atdığımız addımlar bizi böyük problemlərdən sığortaladı. Təsəvvür edin ki, əgər bunları etməsəydik, bu gün biz çox çətin vəziyyətə düşə bilərdik və bəzi ölkələr kimi qapı-qapı gəzib xahiş-minnət edərək öz enerji təhlükəsizliyimizi təmin etmək üçün gərək kiməsə ağız açaydıq.

Bu gün isə mənzərə tam fərqlidir. Bizə çoxlu müraciətlər daxil olur və biz təbii ki, imkan daxilində kömək göstəririk, göstərəcəyik. Təbii ki, bizim həm rolumuz artır, həm nüfuzumuz artır və eyni zamanda bütün tərəfdaşlar görürlər ki, Azərbaycan son illər ərzində nə qədər irəliyə gedib, nə qədər güclənib ki, bu gün nəinki öz tələbatını tam təmin edir, eyni zamanda bir çox ölkələr üçün enerji sahəsində əvəzolunmaz tərəfdaşa çevrilib.

Təbii ki, digər infrastruktur layihələri də uğurla icra edilib və edilir, o cümlədən sosial infrastrukturla bağlı layihələr - xəstəxana tikintisi, məktəb tikintisi, avtomobil yolları, dəmir yolları, hava limanları. Ona görə qeyri-neft sektorunun inkişafını, o cümlədən bu infrastruktur layihələri şərtləndirir. Təbii ki, maliyyə sistemimizdə aparılan islahatlar, o cümlədən vergi və gömrük sistemində aparılan islahatlar, inzibatçılıqla bağlı bürokratik əngəllərin azaldılması və ləğv edilməsi ilə bağlı atılan addımlar, əlbəttə, belə bir müsbət mənzərə yaratmışdır.

Əgər ölkə iqtisadiyyatının ümumi inkişafına baxsaq görərik ki, artım templəri çox da böyük deyil. Bunun təbii səbəbləri var, ilk növbədə təbii neft hasilatının aşağı düşməsi. Bizim əsas neft yatağımız "Azəri-Çıraq-Günəşli" artıq 30 ilə yaxındır istismardadır və təbii ki, obyektiv səbəblərə görə hasilatın düşmə templəri də var. Çalışırıq ki, bu templəri sabitləşdirək. Eyni zamanda əminəm ki, yeni layihələr bundan sonra da Azərbaycanda neft hasilatını lazımi səviyyədə saxlayacaq və ümid edirəm, hətta artım da olacaq. Ancaq bu gün bizim ümumi iqtisadi inkişafımızın, ümumi daxili məhsulumuzun 1,2 faiz artmasının səbəbi budur. Bu, bizi narahat etməməlidir, çünki bundan daha vacib göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da son 8 ayda, yəni bu ilin 8 ayında 5,4 faiz artım olmuşdur.

Yəni qeyri-neft sənayesi sahəsində biz yaxşı nəticələr göstəririk və o cümlədən qəbul edilmiş proqramlar bu artımı daimi və uzunmüddətli edəcək.

Əfsuslar olsun ki, Azərbaycanda dağ-mədən sənayesi həm obyektiv, həm subyektiv səbəblərə görə lazımi səviyyədə inkişaf etməyib. Obyektiv səbəblər ondan ibarətdir ki, sovet vaxtında aşkar edilmiş bizim bir çox yataqlarımız işğal altında olan bölgələrdə yerləşirdi və Ermənistan dövləti öz işğalçılıq siyasətini, o cümlədən Azərbaycan xalqının və dövlətinin təbii resurslarını talamaqda da davam etdirirdi. Təkcə onu demək kifayətdir ki, işğal dövründə Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 60 min hektar meşə fondu Ermənistan dövləti tərəfindən məhv edilib, talan edilib, kəsilib, satılıb və artıq İkinci Qarabağ müharibəsindən sonra yandırılıb, o müddətdə ki, erməni silahlı qüvvələri Kəlbəcər və Laçın rayonlarından çıxmalı idi, orada onlara 2-3 həftə vaxt verilmişdi. Hamının yaxşı xatirindədir, onlar həm ağacları məhv edirdilər, həm də santexnikanı yaddan çıxarmayıblar. Görünür, onlar üçün ən qiymətli iki məsələ var idi: biri Azərbaycan təbiətini tamamilə məhv etmək, ikinci də ən qiymətli santexnika cihazlarını özləri ilə aparmaq. O işğal dövrünün onlar üçün əsas yadigarı yəqin ki, odur.

O cümlədən bizim təbii resurslarımız - qızıl, mis, molibden yataqlarımız talan edilirdi. Təbii ki, işğal dövründə Ermənistan dövləti ancaq talançılıqla məşğul idi. Sovet vaxtında isə müəyyən dərəcədə kəşfiyyat işləri aparılmışdır. Amma o vaxt sovet hökuməti üçün bu bölgə, xüsusilə Azərbaycan bu sahə üzrə prioritet sayılmırdı. Prioritet neft sənayesi sayılırdı. Ona görə bizim bir çox yataqlarımız, yəni perspektivli yataqlarımız bu gün hələ də öz geoloji kəşfiyyat dövrünü gözləyir. Bunun, əlbəttə ki, bu tərəfi müsbətdir. Çünki bu ehtiyatlar bu gün yerin altındadır. Biz bu məsələlərin həlli üçün dövlət proqramında çox konkret mexanizmlər tətbiq edəcəyik. Birinci növbədə, işğaldan azad edilmiş ərazilərdə istismarda olan yataqların tezliklə işə salınması məsələləridir. Bunlar ilk növbədə Kəlbəcər, Ağdərə və Zəngilan rayonlarında yerləşən qızıl, mis, molibden yataqlarıdır. Ağdərə rayonunda artıq işlərə başlanılmışdır. Ümid edirəm ki, yaxın gələcəkdə həm Kəlbəcərdə, həm Zəngilanda da işlərə start veriləcək və beləliklə, mövcud olan, yəni aşkar edilmiş yataqlarda istismar artıq başlanılacaq.

Eyni zamanda mövcud yataqları biz tam təhlil edib müasir geoloji üsullarla oradakı ehtiyatları tam dəqiqləşdirməliyik. Çünki sovet dövründə müəyyən rəqəmlər var idi. Amma o dövrdən təxminən 40 il keçib. Həm məlumatlar köhnəlib, həm də bu gün yeni texnologiyalar var ki, heç o vaxt sovet dövründə bu haqda heç kim fikirləşə də bilməzdi.

İkinci istiqamət. Nəzərə alsaq ki, bu bölgədə böyük təbii resurslar var. Ehtimal ki, dediyim o rayonların digər bölgələrində, həm qonşu rayonlarda da böyük təbii resurslar var. Bu məqsədlə kəşfiyyat işləri, geoloji kəşfiyyat işləri aparılacaq. Artıq buna da start verildi. Yenə də deyirəm, ən müasir texnologiyalar var. Yəqin ki, bu gün bu barədə bizə məlumat veriləcəkdir.

Digər perspektivli bölgə Naxçıvan Muxtar Respublikasıdır. Orada da vaxtilə, - sovet dövrünü nəzərdə tuturam, - və son dövrlərdə geoloji kəşfiyyat işləri lazımi səviyyədə aparılmamışdır. Ona görə orada da böyük yataqların mövcudluğu ehtimalı çox yüksəkdir. Naxçıvan Muxtar Respublikasında geoloji kəşfiyyat işləri artıq yəqin ki, gələn ildən başlayacaq.

Onu da bildirməliyəm ki, biz işimizi iki istiqamət üzrə qururuq. Birincisi, dövlət xətti ilə. "AzerGold" şirkəti bu məsələləri həll edəcək. İkincisi, özəl sektorun iştirakı ilə. Bu sahə özəl sektor üçün də açıqdır və mövcud olan kontraktlar da icra edilir. Əgər dediyim o xarici tərəfdaşlar tərəfindən aparılan geoloji kəşfiyyat işləri nəticə verərsə, təbii ki, xarici investorlar da iştirak edəcəklər. Biz bunu alqışlayırıq. Çünki bu, yenə də deyirəm, çox maliyyətutumlu sahədir və burada əhəmiyyətli dərəcədə yeni qızıl, mis, molibden yataqları aşkarlanarsa, onda bütün sikl - zənginləşdirmə və emal zənciri yaradılmalıdır. Çünki əgər əhəmiyyətli dərəcədə aşkarlanarsa, bu resursları, sadəcə olaraq, filiz kimi dünya bazarlarına çıxarmaq səhv olar.

Növbəti istiqamət Avropa qitəsində ən perspektivli yataqlardan biri sayılan Balakən rayonunda yerləşən "Filizçay" polimetal yatağıdır. Bu yataq qeyd etdiyim kimi, çox perspektivlidir və artıq bir neçə ildir ki, "AzerGold" şirkəti bu yatağın istismara hazırlanması ilə bağlı işlər görür. Hesab edirəm ki, tezliklə texniki-iqtisadi əsaslandırma hazır olmalıdır və yekun investisiya qərarı da qəbul edilməlidir. Mən hesab edirəm ki, "AzerGold" bu yatağın 100 faiz səhmdarı olmalıdır. İstismar getdikcə, təbii ki, bu yatağın qiyməti də, dəyəri də qalxacaq. Onda biz baxa bilərik. Ola bilər, müəyyən faiz səviyyəsində, - əgər maraq olarsa, mən əminəm ki, olacaq, - xarici investorlar da bu yatağa cəlb oluna bilər.

Bu yaxınlarda Qərb Sənaye Parkının yaradılması ilə bağlı fərman imzalanıb. Sənaye parkları Azərbaycanda artıq bir çox bölgələrdə, demək olar ki, hər bir bölgədə var, o cümlədən aqroparklar. Sənaye parklarının və aqroparkların fəaliyyəti nəticəsində milyardlarla manat əlavə dəyər yaradıldı, o cümlədən ixrac potensialımız gücləndirildi.

Qərb Sənaye Parkının yaradılmasının əsas məqsədi məhz dağ-mədən sənayesinin inkişafıdır. Çünki "Daşkəsən" filiz yatağının istismarı və ona yaxın olan bölgələrdə digər layihələrin icra edilməsi, əlbəttə ki, məhz Qərb Sənaye Parkının yaradılmasını şərtləndirdi. Burada ilk növbədə tezliklə infrastruktur yaradılmalıdır və bu məqsədlə büdcədə lazımi vəsait nəzərdə tutulmalıdır. Dağ-mədən sənayesinin son məhsula qədər tam zənciri yaradılmalıdır. Burada, təbii ki, filiz hasilatı və bir neçə zavodun yaradılması nəzərdə tutulur. Zənginləşdirmə, pelet və briketlənmiş dəmir zavodları yaradılmalıdır. Burada, təbii ki, bu filizin daşınması önəmli yer tutur. Ona görə bu daşınmada, yəni tariflərdə güzəştlər edilməlidir ki, iqtisadi cəhətdən səmərəli olsun. Maksimum ekoloji ekspertiza aparılmalıdır və bütün ekoloji normalar gözlənilməlidir. Çünki əsas sərvətimiz hətta yerin altında olan sərvətlər deyil, bizim təbiətimizdir. Ona görə həm təbiətin qorunmasını, həm ekoloji normaların ən yüksək standartlara cavab verməsini, əlbəttə ki, biz xarici tərəfdaşlardan tələb edirik və tələb edəcəyik. Əgər ona əməl etməsələr, onlar cəzalandırılacaq. Təbii ki, dövlət şirkəti olan "AzerGold" bütün ekoloji standartlara cavab verməlidir.

Metallurgiya sənayesinin inkişafına dair. Əlbəttə ki, alüminium istehsalının inkişafı nəzərdə tutulur. Müəyyən xarici tərəfdaşlardan təkliflər olsa da, onların təklifləri reallaşmadı. Çünki biz maksimum çalışırıq ki, ölkə iqtisadiyyatına səmərə verə biləcək mexanizmlər tətbiq edilsin. Ona görə hesab edirəm ki, biz özümüz bu önəmli sənaye istiqamətini inkişaf etdirməliyik və qəbul olunacaq proqram əsasında alüminium istehsalı 100 min tona çatdırılmalıdır. Burada da müddət, dediyim kimi, 2030-cu ilin sonuna qədərdir. Burada da bir neçə zavod yaradılacaq və bu barədə bizə indi məlumat veriləcək.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu proqramın maliyyə təminatı bəllidir, bütün müvafiq qurumlarla razılaşdırılıb və biz bu proqramı istənilən halda icra edəcəyik. Amma eyni zamanda əgər yerli və xarici investorlar maraq göstərsələr, müəyyən faiz səviyyəsində onların iştirakı da mümkündür. Olsa yaxşıdır, olmasa da yaxşıdır. Onsuz da biz bunu edəcəyik. Amma mən hesab edirəm ki, sahə, düzdür, maliyyətutumludur, ancaq gəlirlidir. Xüsusilə bu gün qiymətli metalların dünya bazarlarındakı qiyməti kifayət qədər yüksəkdir və yəqin ki, aşağı-yuxarı bu səviyyədə belə də qalacaq. Ona görə həm maliyyətutumludur, həm də ki, gəlirlidir. Ona görə yerli və xarici investorlara da mesajımız budur ki, qapılar açıqdır. Proqram dərc olunacaq, görüləcək bütün işlər orada sadalanır. Hər kəs tanış ola bilər. Əgər maraq doğursa, onda xarici investorları da biz cəlb edə bilərik. Yekun olaraq bu bizə nə verəcək? Qeyd etdiyim kimi, yeni bir güclü sənaye istiqaməti yaradılacaq. Beş mindən çox, bəlkə də daha çox yeni iş yeri yaradılacaq. İşğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun inkişafı, orada məşğulluğun artırılması daha sürətlə gedəcək. Ölkə büdcəsinə vergilər şəklində böyük vəsait daxil ediləcək, güclü ixrac potensialı yaradılacaq. İndi bunu demək bəlkə də bir qədər tezdir. Amma gözlənilən illik müsbət maliyyə təsiri bir milyard manatdan daha çox olmalıdır. Yəni son rəqəm demək istəmirəm. Amma bunlar milyardlarla manat səviyyəsində ölçülə biləcək layihələrdir.

İndi isə proqramın təqdimatına keçək. Söz verilir iqtisadiyyat naziri Mikayıl Cabbarova.

❖ ❖ ❖

**İqtisadiyyat naziri Mikayıl CABBAROV** çıxış edərək dedi:

- Təşəkkür edirəm, möhtərəm cənab Prezident.

Hörmətli toplantı iştirakçıları.

Möhtərəm cənab Prezident.

Sizin rəhbərliyinizlə son illərdə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Belə ki, yeni istehsal sahələri yaradılır, mövcud müəssisələr genişləndirilir, bunun nəticəsində investisiya və ixrac imkanları artır, yeni iş yerləri yaranır.

Bu istiqamətlərdən biri də ölkəmizin mineral xammal potensialından daha səmərəli istifadə etmək və metallurgiya sənayesini inkişaf etdirməkdir. Siz bu il yanvarın 13-də "Dəmirli" yatağının fəaliyyətə başlaması ilə bağlı oraya səfəriniz zamanı bu sahədə sistemli işlərin həyata keçirilməsi ilə bağlı tapşırıqlarınızı verdiniz. Nazirlər Kabineti tərəfindən dövlət proqramının hazırlanması ilə bağlı aprelin 1-də sərəncam imzaladınız. İcazənizlə, bu gün diqqətinizə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"nın layihəsini təqdim etmək istərdim. Proqramın layihəsinin hazırlanmasına dəstək verən bütün qurumlara - Nazirlər Kabinetinə, nazirliklərə, qurumlara təşəkkürümü bildirirəm.

Proqramın əsas məqsədləri sadədir: bu, daha çox xammal hasil etmək deyil, bu, xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır.

Bu slaydda biz dövlət proqramının icmalını diqqətinizə təqdim edirik. Proqram bu məqsədə çatmaq üçün əsas istiqamətləri müəyyən edir. Bunlar mineral xammal bazasının genişləndirilməsi, mövcud istehsal güclərinin artırılması və yeni layihələrin həyata keçirilməsidir.

Dəmir filizi, alüminium, mis və qızıl əsas istiqamətlərdir. Eyni zamanda yeni yataqların iqtisadi dövriyyəyə cəlb edilməsi nəzərdə tutulur. Biz əsas istiqamətlərdir dedikdə, bu gün sübut edilmiş, istismarda olan yataqlara əsaslanırıq. Eyni zamanda həm ilkin geoloji tədqiqatlar, həm bu gün əlimizdə olan məlumatlar və gələcək işlər bu siyahının genişlənəcəyinə bizdə əminlik hissi yaradır.

Burada dövlətin tənzimləyici və dəstəkləyici rolu ilə yanaşı, dövlət müəssisələrinin və özəl sektorun investisiya imkanlarından da istifadə olunacaq.

Proqramın əsas hədəfləri kifayət qədər böyükdür. 2030-cu ilədək dağ-mədən və metallurgiya sektorunun ümumi daxili məhsula töhfəsinin 700 milyon manatdan 1,8 milyard manata, illik ixrac potensialının isə 1,3 milyard manatdan 2025-ci ilin orta dünya qiymətləri əsasında 3,4 milyard manata çatdırılması nəzərdə tutulur. 2027-2030-cu illərdə bu nəticələrin əldə edilməsi üçün bu dövr ərzində ümumilikdə 5,3 milyard manat investisiya nəzərdə tutulur.

Möhtərəm cənab Prezident, biz təqdimatda bu mövzuya bir daha toxunacağıq. Siz öz çıxışınızda bunu vurğuladınız. Digər dövlət proqramlarının təsdiqlənmiş maliyyə öhdəliklərini nəzərə alaraq, bu, büdcə və sərmayə qoyuluşu ilə yanaşı, uzunmüddətli, əlçatan maliyyələşmə mənbələrinin mövcudluğunu da şərtləndirir.

Proqramın layihəsində daha yüksək əlavə dəyər yaratmaq potensialına xüsusi diqqət yetirilir. Azərbaycanın mineral resurslarından daha yüksək dəyər yaratmaq üçün böyük imkanları var. Bunun bir yolu mövcud emal proseslərini təkmilləşdirmək və daha yüksək emal səviyyəli məhsullar istehsal etməkdir. Digər istiqamət isə yeni kəşfiyyat işlərinin aparılmasıdır. Yeni ehtiyatları müəyyənləşdirməliyik və iqtisadi cəhətdən səmərəli olan yataqları mərhələli şəkildə sənaye dövriyyəsinə daxil edəcəyik.

Dünyada metala və strateji minerallara tələbat sürətlə artır. Bunun əsas səbəbləri enerji keçidi, elektromobillik, enerji saxlama sistemləri, yarımkeçiricilər və süni intellekt infrastrukturu ilə bağlı artan tələbatdır. Bu səbəbdən ölkələr artıq yalnız filiz hasilatına deyil, emala, təkrar emala və yüksək əlavə dəyərli məhsulların istehsalına üstünlük verirlər. Ölkəmiz də bu dəyişikliklərdən istifadə etmək üçün çox gözəl imkanlara malikdir. Burada bizim resurs bazamız, enerji imkanlarımız və nəqliyyat infrastrukturumuz var. Təbii ki, bütün bu məsələlərin əsasında mövcud olan siyasi, makroiqtisadi sabitlik, Sizin uzaqgörən siyasətiniz və həyata keçirdiyiniz planlar dayanır.

Hesab edirik ki, ölkəmizin Orta dəhliz üzərində yerləşməsinin və açar rolunu oynamasının da bu istiqamətdə böyük əhəmiyyəti var. İcazənizlə, bu mövzuya da toxunacağam.

Daxili potensiala nəzər saldıqda, ölkəmizdə qara, əlvan və qiymətli metallar üzrə təsdiqlənmiş ehtiyatlar mövcuddur. Alüminium, mis və qara metallurgiya üzrə müəyyən istehsal bazası artıq formalaşıb. Enerji infrastrukturu və kadr potensialı da mühüm üstünlükdür. İşğaldan azad edilmiş ərazilərdə yeni resurs imkanları var. Burada nəqliyyat infrastrukturunun inkişafı da yeni layihələr üçün artıq əlavə üstünlük yaradıb. Digər mühüm üstünlüyümüz Azərbaycanın əsas nəqliyyat dəhlizlərinə çıxışıdır. Bu, həm xammalın, həm də hazır məhsulların regional və beynəlxalq bazarlara çıxarılmasını asanlaşdırır.

*Ardı 3-cü səh.*

# "Biz bu proqramı istənilən halda icra edəcəyik"

## Prezident İlham Əliyevin sədrliyi ilə dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirə keçirilib

*Əvvəli 2-ci səh.*

Çağırışlarımız da var və burada biz bu çağırışları ünvanlamaq üçün nəzərdə tutulan yanaşmaları məruzə edirik. Əsas məsələlərdən biri hüquqi və institusional bazanın müasirləşdirilməsidir. Bu məqsədlə "Yerin təki haqqında" yeni qanun layihəsinin hazırlanması, beynəlxalq hesabatlılıq standartlarının tətbiqi və vahid elektron geoloji informasiya bazasının yaradılması nəzərdə tutulur.

Digər mühüm məsələ maliyyələşmədir. Dağ-mədən və metallurgiya layihələri böyük kapital və uzunmüddətli maliyyə tələb edir. Buna görə dövlətlə yanaşı, özəl sektor, o cümlədən bank maliyyələşməsi daxil olmaqla, beynəlxalq maliyyə resurslarından daha geniş istifadə imkanlarına baxılmalıdır. Səsləndirdiyiniz göstərişlərə görə təşəkkür edirəm.

İri layihələrin cəlbi üçün vergi, gömrük və investisiya təşviqləri də təkmilləşdirilməlidir. Sənaye və nəqliyyat infrastrukturuna dəstəyin genişləndirilməsi vacib istiqamətlərdən biridir. Sahə üzrə elmi potensialın artırılması, araşdırma və inkişafın dəstəklənməsi, həmçinin təhsil-sənaye əməkdaşlığının gücləndirilməsi nəzərdə tutulan istiqamətlərdəndir.

Dəyər zəncirinin inkişafına toxunaraq demək istəyirəm ki, proqramın əsas prinsiplərindən biri filizdən son məhsuladək dəyər zəncirinin ölkə daxilində qurulmasıdır. Təbii olaraq bu, bütün xammal növləri üzrə mümkün olmayacaq. Amma əminliklə deyirik ki, bir sıra istiqamətlər üzrə bu mümkündür və həyata keçiriləcək. Yəni kəşfiyyat və hasilatdan başlayaraq zənginləşdirmə, emal, yarımfabrikat və hazır məhsul istehsalına keçməliyik.

İlk mərhələdə yerli xammal potensialını reallaşdırmaq və mövcud yataqlar üzrə hasilatı artırmaq nəzərdə tutulur. "Dəmirli", "Söyüdlü", "Filizçay", Naxçıvandakı yataqlar və digər perspektivli sahələr hesabına xammal bazasının genişləndirilməsi nəzərdə tutulur. Alüminium üzrə də mövcud istehsal zəncirinin genişləndirilməsi və yeni güclərin yaradılması planlaşdırılır və bu istiqamətdə müvafiq sərəncamınız icra olunacaq.

Növbəti mərhələdə isə məqsəd daha yüksək əlavə dəyərli polad və alüminium məhsulları istehsal etməkdir. Bu məhsullar həm daxili sənayedə istifadə olunacaq, həm də ixrac ediləcək. Burada mən xüsusilə artıq xarici tərəfdaşlarla həyata keçirilən əməkdaşlığı da qeyd etmək istərdim. Belə ki, bu qəbildən olan son müqavilə bir həftə bundan öncə "AzerGold" dövlət şirkəti ilə Birləşmiş Ərəb Əmirlikləri şirkəti arasında bağlanmış sazişdir. Həmin sazişin şərtlərinə əsasən, Naxçıvanda yerləşən ehtiyatlarımızın birgə geoloji kəşfiyyatı həyata keçiriləcək.

"Daşkəsən" dəmir filizi layihəsi barədə məlumatı məruzə etmək istərdim. Bu layihənin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Burada yerli dəmir filiz mədəni, zənginləşdirmə və pelet istehsalı gücləri yaradılacaq. Eyni zamanda isti briketlənmiş dəmir zavodunun yaradılması planlaşdırılır. Əsas məqsədlərdən biri istehsal olunan dəmiri ölkə daxilində metallurgiya müəssisələrində xammal kimi istifadə etməkdir. Paralel olaraq, ixrac imkanlarımız da artacaq. Beləliklə, dəmir filizindən başlayaraq növbəti emal mərhələlərinə qədər yerli sənaye zənciri formalaşacaq.

Alüminium üzrə əsas məqsəd mövcud istehsal zəncirini genişləndirmək və daha yüksək əlavə dəyərli məhsullara keçməkdir. Proqramın əhatə etdiyi dövrdə Elektroliz zavodunun illik gücünün 50 min tondan 100 min tona, yayma məhsullarının istehsalının isə 20 min tondan 50 min tona çatdırılması nəzərdə tutulur. Bundan əlavə, kalsinasiya və anod bişirmə zavodunun yaradılması, karbon anod bloklarının istehsalı planlaşdırılır.

"Zəylik" alunit yataqları üzrə araşdırmalar davam etdiriləcək. Məqsəd əlavə xammal bazasının iqtisadi potensialını müəyyənləşdirməkdir. Biz burada əsas olaraq müasir texnologiyaların inkişafına arxalanırıq. Nəticədə "Azəralüminium"un ixracının 2025-ci ildəki 252 milyon manatdan 2030-cu ildə 510 milyon manata çatdırılması nəzərdə tutulur.

Mis, qızıl və gümüş üzrə hasilat və istehsalın artırılması planlaşdırılır. Mis istehsalı əhəmiyyətli dərəcədə artırılacaq. Qızıl istehsalı isə həm mövcud, həm də yeni layihələr hesabına genişləndiriləcək. Nəticədə mis, qızıl və gümüş üzrə ümumi ixracın 2025-ci ildəki 600 milyon manatdan 2030-cu ildə 1,6 milyard manata çatdırılması gözlənilir. Qeyd edim ki, bu rəqəm 2025-ci ilin orta dünya qiymətləri əsasında hesablanmış proqnozdur.

Dövlət proqramının layihəsində uğurlu icra üçün mühüm şərtlərdən biri də əsas icraçı qurumların koordinasiyalı fəaliyyətidir. Proqramın layihəsinə əsasən, ümumi tənzimləmə, əlaqələndirmə və nəzarət Nazirlər Kabineti tərəfindən həyata keçiriləcək. İqtisadiyyat Nazirliyi investisiya təşviqi, dövlət dəstəyi, sənaye siyasəti və sənaye infrastrukturunun inkişafını təmin etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Yerin təki üzrə hüquqi bazanın, geoloji standartların və hesabatlılıq sisteminin təkmilləşdirilməsinə, həmçinin geoloji kəşfiyyatın həyata keçirilməsinə dəstək verəcək. SOCAR "Daşkəsən" dəmir filizi layihəsi və müvafiq klasterin təmin olunması üçün zəruri qaz infrastrukturu təmin etməlidir. "AzerGold" "Daşkəsən" dəmir filizi, qızıl, mis və digər layihələrin inkişafını həyata keçirəcək. Azərbaycan İnvestisiya Holdinqi portfel şirkətləri vasitəsilə alüminium və digər metallurgiya layihələrinə cəlb olunacaq. Özəl sektorun əsas rolu isə yeni istehsal və emal güclərinə investisiyaların qoyulmasından ibarət olacaq.

İnvestisiya mühiti və maliyyələşmə imkanlarına toxunaraq demək istəyirəm ki, dövlət proqramının hədəflərinə çatmaq üçün investisiya mühitinin daha da təkmilləşdirilməsi qarşımızda hədəf kimi durur. Dövlət dəstəyi, investisiya təşviqləri və digər stimullaşdırıcı tədbirlər genişləndirilir. Hüquqi və institusional baza da müasir tələblərə uyğunlaşdırılmalıdır.

Maliyyələşmə imkanlarının genişləndirilməsi isə deyərdim ki, fikrimizcə, ən aktual məsələlərdən biridir. Təkcə bu sahə üzrə deyil, ümumilikdə sənaye sahəsinin qarşılaşdığı əsas çağırışlardan biri uzunmüddətli kreditlərə çıxışın mövcudluğudur. Xüsusilə nəzərə alsaq ki, dağ-mədən və metallurgiya layihələrində qərar qəbulundan və layihənin icrasına başlanmasından istehsala qədər ötən müddət 5 il və daha çox davam edir. Belə layihələr üçün uzunmüddətli maliyyələşmə imkanlarının olması xüsusi əhəmiyyət daşıyır. Bu, həm büdcə yükünün azaldılmasına xidmət edir, həm maliyyə ekosistemində, bank sistemində əlavə gəlirlərin yaradılmasını təmin edir. Bu baxımdan 10 il və daha uzun müddətə kredit imkanlarının genişləndirilməsi, yerli bankların iri və uzunmüddətli layihələrin maliyyələşdirilməsində iştirakının artırılması vacibdir. Burada obyektiv çağırış da var. Bu, ondan ibarətdir ki, bu gün banklarımızda obyektiv olaraq belə uzunmüddətli vəsait mənbəyi də olmaya bilir. Hazırda bu sahədə uzunmüddətli və güzəştli kreditləşmə imkanlarının kifayət qədər məhdud olduğunu qeyd etmək istərdim. Bu baxımdan, möhtərəm cənab Prezident, təklif edirik ki, Nazirlər Kabinetinin, Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın, Dövlət Neft Fondunun və digər aidiyyəti qurumların iştirakı ilə uzunmüddətli maliyyələşmə üzrə siyasət tədbirləri hazırlansın və müvafiq maliyyələşmə mexanizmləri müəyyənləşdirilərək diqqətinizə təqdim edilsin.

2027-2030-cu illərdə proqram üzrə ümumi investisiya ehtiyacı 5,3 milyard manat qiymətləndirilir. Bu vəsaitin 1,1 milyard manatı dövlət büdcəsi hesabına, 2,2 milyard manatı dövlət müəssisələrinin vəsaiti, o cümlədən kredit, yeni borc kapitalı, 2 milyard manat isə özəl vəsait, o cümlədən borc kapitalı hesabına formalaşacaq. Beləliklə, ümumi investisiyanın təxminən 80 faizi qeyri-büdcə mənbələrindən cəlb ediləcək. Bu baxımdan dövlət müəssisələrinin və özəl sektorun investisiya imkanlarının səfərbər edilməsi qarşımızda duran əsas məsələdir. Nəticədə yaradılacaq yeni güclər hesabına növbəti 4 il ərzində sektorun əlavə dəyərinin və illik ixrac potensialının 2,6 dəfə artırılması nəzərdə tutulur.

Proqram yalnız 2030-cu ilədək olan dövrü əhatə etmir, sonrakı mərhələ üçün də böyük inkişaf imkanları müəyyənləşdirir. "Filizçay" polimetal yatağında mis, sink və qurğuşun ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb edilməsi imkanları o dövrə qədər qiymətləndiriləcək və yekunlaşdırılacaq. "Dəmirli" yatağında təxminən 470 min ton əlavə mis ehtiyatının istifadə potensialına baxılacaq. "Zəylik" alunit yataqlarının alüminium dəyər zəncirinin xammal bazasının formalaşdırılması imkanına dair yekun rəy formalaşdırılacaq. Bundan əlavə, o cümlədən xarici investorların ifadə etdiyi marağa əsasən, illik təxminən 200 min ton gücündə yeni ilkin alüminium müəssisəsinin yaradılması imkanı hazırda araşdırılır. Qarabağda və Şərqi Zəngəzurda geoloji kəşfiyyatın genişləndirilməsi də nəzərdə tutulur.





Möhtərəm cənab Prezident, regional emal mərkəzi üçün ciddi potensial görürük. Uzunmüddətli məqsədlərdən biri Azərbaycanın strateji minerallar üzrə regional emal mərkəzinə çevrilməsi imkanını qiymətləndirməkdir. Son 10 ildə seçilmiş strateji metalların qiymətlərində ciddi artım müşahidə edilib. Növbəti 10 ildə isə bu metallara qlobal tələbatın daha da artacağı gözlənilir. Alüminium üzrə 23 faiz, mis üzrə 21 faiz, sink üzrə 15 faiz, qızıl üzrə isə 10 faiz artımın olacağı proqnozlaşdırılır. Azərbaycanın burada bir sıra imkanları və üstünlükləri var. Biz Mərkəzi Asiya-Avropa dəhlizi üzərində yerləşirik və siyasətiniz nəticəsində açar rolunu oynayırıq. Bakı Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu mühüm logistika imkanları yaradır. Ələt Azad İqtisadi Zonası və digər sənaye zonalarımız isə əlavə imkanlar təmin edir. Rəqabətqabiliyyətli enerji qiymətləri də ölkəmizin mühüm üstünlüyüdür. Bundan başqa, Mərkəzi Asiya və Cənubi Qafqazın xammal potensialına çıxış imkanları Azərbaycanın regional emal imkanlarını genişləndirə bilər.

Bu proqramın təsiri təkcə dağ-mədən və metallurgiya sektoru ilə məhdudlaşmayacaq. İstehsal çoxaldıqca yükdaşımalar və logistika xidmətlərinə tələb artacaq, yerli podratçı və təchizatçı şirkətlər üçün yeni imkanlar yaranacaq. Yerli xammal və yarımfabrikat bazasının genişlənməsi yeni sənaye sahələrinin formalaşmasına şərait yaradacaq. İxtisaslı kadrlara tələbat artacaq. Bu da texniki bilik və bacarıqların inkişafını sürətləndirəcək, elmi potensialımıza töhfə verəcək. Ən əsası isə regionlarda məşğulluq və iqtisadi fəallıq artacaq. Yeni dəyər zəncirləri özəl investisiya və sahibkarlıq üçün də əlavə imkanlar yaradacaq.

Möhtərəm cənab Prezident, təqdim olunan dövlət proqramı Azərbaycanın mineral resurslarından daha səmərəli istifadə etmək, dağ-mədən, metal filizləri və metallurgiya sənayesini yeni mərhələyə çıxarmaq məqsədi daşıyır. Əsas yanaşmamız xammalı yalnız hasil etmək deyil, onu ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır. Proqramın icrası nəticəsində istehsal və ixrac imkanlarının genişləndirilməsi, idxalın əvəzlənməsi, yeni sənaye zəncirlərinin yaradılması və sektorun rəqabət qabiliyyətinin artırılması üçün ciddi imkanlar yaranacaq.

Möhtərəm cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, İqtisadiyyat Nazirliyi dövlət proqramının uğurlu icrasını, habelə bu istiqamətdə verdiyiniz tapşırıqların vaxtında, əlaqələndirilmiş şəkildə və keyfiyyətlə yerinə yetirilməsini təmin etmək üçün bütün resurslarını səfərbər edəcək, dağ-mədən və metallurgiya sənayesini ölkəmizin iqtisadi inkişafının etibarlı dayaqlarından birinə çevirmək istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Əyləşin.

❖ ❖ ❖

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İBRAHİMOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, ilk növbədə Azərbaycan Respublikasında dağ-mədən sənayesinin inkişafına göstərdiyiniz davamlı diqqətə və dəstəyə görə Sizə dərin minnətdarlığımızı ifadə edirəm. İcazənizlə, həmin dəstəyin və strateji baxışın davamı olaraq hazırlanmış dövlət proqramı çərçivəsində "AzerGold"un qarşısında qoyulan əsas hədəf və vəzifələr barədə məlumatı diqqətinizə təqdim edim.

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti 2015-ci ildə Sizin sərəncamınızla yaradıldı və bununla Azərbaycanın dağ-mədən sənayesinin yeni inkişaf mərhələsinin əsası qoyuldu. 2016-cı ildə Daşkəsəndə yerləşən "Çovdar" qızıl mədənində fəaliyyətə başlanıldı və növbəti ilin aprel ayında gümüş-qızıl xəlitənin ilk ixracı həyata keçirildi.

Həmin dövrdə yatağın çıxarıla bilən qızıl ehtiyatı 179 min unsiya qiymətləndirilirdi və istismar müddətinin 2021-ci ildə başa çatacağı proqnozlaşdırılırdı. Sonrakı illərdə aparılan optimallaşdırma və genişmiqyaslı geoloji kəşfiyyat işləri nəticəsində ehtiyatlar 1,02 milyon unsiyaya çatdırıldı, istismar müddəti isə ən azı 2032-ci ilədək uzadıldı. "Mərəh", "Ağyoxuş", "Tülallar" və "Çovdar" yataqlarından filizin emalı vahid istehsal mərkəzində - Çovdar İnteqrə olunmuş Regional Emal Sahəsində birləşdirildi. Bununla uzunmüddətli və səmərəli istehsal davamlılığı təmin edildi.

Növbəti illərdə şirkətin fəaliyyət istiqamətləri əhəmiyyətli dərəcədə genişləndirildi. Əlvan metallarla yanaşı, qara metal filizləri üzrə fəaliyyətə keçid təmin edildi və bu məqsədlə "Daşkəsən Dəmir Filiz" MMC yaradıldı. "AzerBlast" MMC isə sənaye partlayıcı maddələrin istehsalı və satışı üzrə fəaliyyətə başladı.

Geoloji kəşfiyyatda hiperspektral peyk çəkilişləri və aeroelektromaqnit tədqiqatlar kimi müasir texnologiyalar tətbiq edilərək yeni perspektivli sahələr müəyyənləşdirildi və bu proses davam edir.

"AzerGold"un 2024-cü ildə gəlirləri və yerli banklardan cəlb edilmiş vəsait hesabına qurulan çəndə qələviləşdirmə zavodu tam gücü ilə istismara verildi və bununla da "Çovdar" yatağının sulfid filizlərinin emalı təşkil edildi. Həmin ildən eyni zamanda "AzerGold" Hasilatın Pay Bölgüsü haqqında Saziş çərçivəsində dövləti təmsil etmək səlahiyyətlərini də həyata keçirməyə başladı.

Cari ildə "AzerGold" Qafqazın ən böyük qızıl yataqlarından biri olan "Söyüdlü" yatağında - "Zod" yatağında fəaliyyətə başladı. Artıq ərazidə hasilatın təşkili ilə bağlı üstaçma işləri aparılır. Eyni zamanda "AzerGold"a həmin cari ildə qeyri-filiz yataqları üzrə operator statusu da həvalə edildi.

Beləliklə, 10 il ərzində "AzerGold" qızıl hasil edən şirkətdən geoloji kəşfiyyat, əlvan və qara metal filizləri, sənaye partlayıcıları və qeyri-filiz sahəsini əhatə edən çoxşaxəli və inteqrə olunmuş milli dağ-mədən şirkətinə çevrildi.

Qarşıdakı mərhələdə əsas hədəfimiz "AzerGold"u 2030-cu ilədək illik dövriyyəsi 1 milyard manata çatan dövlət şirkətinə çevirməkdir. Bu məqsədlə strateji layihələrin maliyyələşdirilməsində daxili gəlir və borc vəsaitləri hesabına, həmçinin özəl investisiyaya üstünlük veriləcək. Nəticədə əsas məqsədimiz gəlir və məşğulluq göstəricisinə görə "AzerGold"u Azərbaycanın qeyri-neft sənayesinin ən iri şirkətlərindən birinə çevirməkdir.

Möhtərəm cənab Prezident, bu slayd şirkətin iqtisadi inkişaf dinamikasını göstərir. Qızıl hasilatı, gəlirlər, EBITDA və vergi ödənişləri fəaliyyət dövrü ərzində davamlı artım nümayiş etdirib. Qızılın hasilatı 2017-ci illə müqayisədə 2 dəfədən çox artıb. Gəlirlər 3,5 dəfə yüksəlib. Ümumi gəlirlərin 92 faizi ixracdan, 8 faizi isə daxili bazarda satışdan formalaşır. 2019-cu ildən qızıl və gümüş məhsullarının istehsalına başlanılıb və daxili pərakəndə satış əlavə dəyər mənbəyinə çevrilib.

Digər mühüm göstərici EBITDA-dır. 2017-ci ildə 46 milyon manat olduğu halda, 2025-ci ildə 260 milyon manata çatıb, yəni təxminən 6 dəfə artıb. EBITDA marjası isə orta hesabla 50 faizdən yüksək olub. Eyni zamanda şirkətin vergi ödənişləri 15 dəfə artıb.

Ən vacib məqamlardan biri ehtiyat bazasının genişləndirilməsidir. Ehtiyatların 6 dəfə artması nəticəsində "Çovdar"da istehsal müddəti 11 il uzadılıb. 2025-ci ildə əldə olunan mənfəətin təqribən 42 milyon manatı səhmdara - dövlətə dividend olaraq ödəniləcək. Bu nəticələr şirkətin mövcud ehtiyatları səmərəli istismar etməklə yanaşı, hasilat dinamikasının qorunmasına və yeni strateji istiqamətlərə investisiyaların genişləndirilməsinə imkan yaradır.

"AzerGold" birbaşa fəaliyyəti ilə yanaşı, Hasilatın Pay Bölgüsü haqqında Saziş çərçivəsində dövlət təmsilçiliyi istiqamətində də mühüm nəticələr əldə edib. 2024-cü ilin iyun ayından etibarən həyata keçirilən nəzarət tədbirləri nəticəsində "Azerbaijan International Mining Company Limited" şirkətinin istehsal və maliyyə göstəricilərində də ciddi artım əldə olunub. Qızıl ekvivalentində hasilat 2024-cü ilin ilk yarısındakı 5,3 min unsiyadan 2026-cı ilin ilk yarısında 37,6 min unsiyaya yüksəlib, yəni 7,1 dəfə artıb. Dövlətin mənfəətdən payı isə 2,4 milyon manatdan 37,6 milyon manata çatıb. Bu, 15 dəfədən çox artım deməkdir. Ümumilikdə "AzerGold"un dövlət təmsilçiliyi dövründə cari tarixə dövlətin mənfəətdən payı 77,5 milyon manat təşkil edib. 2026-cı ildə artımın əsas hissəsi işğaldan azad edilmiş Ağdərə rayonunda yerləşən "Dəmirli" mis mədənində hasilatın bərpası hesabına əldə olunub. Cari ilin əvvəlində Sizin də təşrif buyurduğunuz emal kompleksi "AzerGold"un dəstəyi və nəzarəti ilə təqribən bir il ərzində yenidən qurularaq istifadəyə verilib. Nəticədə investor 2025-ci ildə ölkənin qeyri-neft ixracatçıları arasında birinci yerə yüksəlib və bu tendensiya 2026-cı ildə də davam etdirilib.

"AzerGold"un fəaliyyəti artıq dağ-mədən sənayesinin bütün əsas dəyər zəncirini əhatə edir. Şirkət geoloji kəşfiyyatına da başlayaraq, hasilat, emal, ixrac və satış mərhələlərini vahid sistem şəklində ifadə edir. Geoloji kəşfiyyatda müasir hiperspektral və aeroelektral maqnetik tədqiqat metodlarından istifadə etməklə yeni perspektivli sahələr müəyyən edilir və resurslar aşkarlanır. "Çovdar"da iki fərqli emal texnologiyası vasitəsilə ildə təxminən 70 min unsiya qızıl hasil olunur, emal nəticəsində qızıl və gümüş tərkibli xəlitələr istehsal olunur, əsas hissəsi ixrac edilir, digər hissəsi isə daxili bazarda satılır.

Proqramın icrası nəticəsində 2030-cu ilədək əsas hədəfimiz bu dəyər zəncirini əhəmiyyətli dərəcədə genişləndirməkdir. Bu məqsədlə "Filizçay", "Daşkəsən", "Ortakənd" və "Söyüdlü" yataqları istismara hazırlanacaq. "Filizçay"da mis, sink və qurğuşunun tamhəcmli emalı, "Söyüdlü"də flotasiya üsulu ilə qızılın emalı, "Daşkəsən" layihəsində isə poladtökmə sahəsi üçün ildə 2 milyon ton ən yüksək keyfiyyətə cavab verən isti briketləşmiş dəmir istehsalı gücü yaradılacaq. Bununla da "AzerGold" qiymətli əlvan və qara metallar üzrə ixrac potensialını əhəmiyyətli dərəcədə genişləndirəcək.

Hazırda "AzerGold" tərəfindən mineral resurs bazasının artırılması və yeni mədənlərdə istismara başlanılması məqsədilə genişmiqyaslı işlər görülür. Proses 4 əsas mərhələdə həyata keçirilir.

İlkin axtarış-qiymətləndirmə mərhələsində dövlət büdcəsi hesabına 15 min kvadratkilometr ərazidə tədqiqatlar davam etdirilir və işlərin 2027-ci ildə tamamlanması planlaşdırılır. Nəticədə işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, ölkənin mineral resurs potensialının xəritəsi hazırlanacaq. Naxçıvan Muxtar Respublikasında ilkin axtarış-qiymətləndirmə işləri Sizin iştirakınızla Birləşmiş Ərəb Əmirlikləri şirkəti ilə imzalanmış müqavilə çərçivəsində planlaşdırılan birgə müəssisə tərəfindən həyata keçiriləcək.

Axtarış-qiymətləndirmə mərhələsində hazırda 10 perspektivli qızıl-mis sahəsi üzrə işlər davam edir və bu mərhələnin də 2027-ci ildə yekunlaşdırılması planlaşdırılır.

İlkin kəşfiyyat mərhələsində 5 yataq üzrə iqtisadi cəhətdən səmərəli ehtiyatların müəyyənləşdirilməsi davam etdirilir. Naxçıvanda "Göydağ" və "Başkənd" mis-qızıl yataqları, Balakəndə "Mazımçay" mis yatağı üzrə artıq ümumilikdə təxminən 1,5 milyon qızıl ekvivalenti unsiya ilkin resurs müəyyən edilib. Naxçıvandakı "Nəsirvaz", Kəlbəcərdəki "Tutxun" qızıl yataqları üzrə isə ehtiyatların hesablanması davam edir.

Sonuncu mərhələdə - dəqiq kəşfiyyat və texniki-iqtisadi əsaslandırma mərhələsində 3 yataq artıq istismara hazırlanır. "Söyüdlü" üzrə təxminən 1,03 milyon unsiya qızıl, "Ortakənd" üzrə 246 min unsiya qızıl, "Filizçay" üzrə isə 4 milyon qızıl ekvivalentində unsiya resurs müəyyən edilib.

Möhtərəm cənab Prezident, bu slaydda "AzerGold"un dövlət proqramı çərçivəsində həyata keçirəcəyi 4 əsas strateji layihəni təqdim edilir. Bu layihələr üzrə ümumi investisiya həcmi təxminən 3,63 milyard manat təşkil edir və bu investisiyaların yalnız təxminən 10 faizinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsi planlaşdırılır.

İlk layihə "Söyüdlü" qızıl yatağıdır. Burada ilk istehsal 2028-ci ildə nəzərdə tutulub. Layihənin qızıl resursu 1,03 milyon unsiya qızıldır və kəşfiyyat davam etdirilir, bu rəqəmin artması ehtimalı da var. İqtisadi dəyəri qızılın bugünkü qiyməti ilə 7,5 milyard manat təşkil edir, tələb olunan investisiya 425 milyon manatdır. Bu investisiyanın icrası "AzerGold"un daxili gəliri hesabına və cəlb edəcəyi borc hesabına planlaşdırılır.

İkinci layihə Naxçıvanda yerləşən "Ortakənd" qızıl yatağıdır. Burada ilk istehsal 2029-cu ildə nəzərdə tutulub. Qızılın resursu 246 min unsiya təşkil edir və iqtisadi dəyəri 1,8 milyard manatdır. Tələb olunan investisiya 255 milyon manatdır, bu layihənin də icrası "AzerGold"un daxili gəliri hesabına və cəlb ediləcək borc hesabına planlaşdırılır.

"Filizçay" polimetal yatağı dünyadakı digər polimetal yataqları kimi müxtəlif - geoloji və digər amillərə görə ən mürəkkəb yataqlardan biridir. Bu layihənin tam gücü ilə istismara verilməsi 2031-ci ilin sonuna planlaşdırılır. Yatağın 34 illik istismarı dövründə 363 min ton mis, 2,7 milyon ton sink və 1 milyon ton qurğuşun resursunun hasilata cəlb edilməsi planlaşdırılır. Layihənin iqtisadi dəyəri 29,7 milyard manat təşkil edir və tələb olunan investisiya təqribən 1 milyard manatdır. Bu layihənin icrası "AzerGold"un daxili gəlirləri hesabına, cəlb ediləcək borc vəsaitləri və Sizin tapşırığınıza uyğun surətdə müxtəlif həcmdə investor vəsaitlərinin cəlb edilməsi hesabına ola bilər.

"Daşkəsən" dəmir filizi layihəsi üzrə ilk istehsal 2030-cu ildə nəzərdə tutulur. Layihə üzrə illik nəticədə 2 milyon ton isti briketləşdirilmiş dəmir istehsal gücü yaradılacaq və tələb olunan investisiya 1,95 milyard manatdır. Maliyyələşmə dövlət büdcəsi, borc vəsaitləri və investorun iştirakı hesabına təmin edilir.

Beləliklə, 4 strateji layihə üzrə qeyd etdiyim kimi, təxminən 3,63 milyard manat investisiya tələb olunur və bunun təqribən 10 faizinin dövlət büdcəsindən ayrılması üçün müraciət ediləcək.

Möhtərəm cənab Prezident, yekunda diqqətinizə çatdırmaq istərdik ki, "AzerGold" milli dağ-mədən sahəsinin aparıcı dövlət şirkəti kimi dövlət proqramına uyğun olaraq 4 əsas strateji istiqamət üzrə irəliləyir:

- Birinci istiqamət qızıl hasilatı və emalıdır. "Söyüdlü" və "Ortakənd" üzrə ümumilikdə təxminən 1,28 milyon unsiya əlavə qızıl ehtiyatlarının hasilata cəlb edilməsi ölkə üzrə qızıl ixracını əhəmiyyətli dərəcədə artıracaq.
- İkinci istiqamət qara metallurgiyadır. "Daşkəsən" layihəsi çərçivəsində 2 milyon ton isti briketləşdirilmiş dəmir istehsalat gücü yaradılacaq və təxminən 1,7 milyon ton hissəsi ixrac potensialını formalaşdırır.
- Üçüncü istiqamət əlvan metallardır. "Filizçay" üzrə mis, sink, qurğuşun resursunun hasilata hazırlanması ölkəmizin ixrac portfelini genişləndirəcək və yeni sənaye istiqamətini formalaşdıracaq.
- Dördüncü istiqamət dağ-mədən sənayesinin yan sahələrinin inkişafıdır. Bu layihələr yeni istehsal zəncirlərinin, xidmət sahələrinin və ümumilikdə sənaye potensialının güclənməsinə töhfə verəcək.

Möhtərəm cənab Prezident, əldə etdiyimiz və qarşıdakı dövrdə əldə etməyi planlaşdırdığımız nəticələrin əsasında Sizin rəhbərliyinizlə həyata keçirilən qeyri-neft sektorunun inkişafına və təbii sərvətlərin səmərəli idarə olunmasına yönəlmiş dövlət siyasəti dayanır. Davos Ümumdünya İqtisadi Forumunda dağ-mədən sənayesinin xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun şaxələndirilməsi baxımından iqtisadiyyatımızın əsas prioritet sahələrindən biri kimi qeyd edilməsi sektorun inkişafı üçün yeni imkanlar yaradır. 2027-ci ildən icrasına başlanması nəzərdə tutulan dövlət proqramı isə dağ-mədən sənayesinin inkişafında növbəti mərhələnin əsas yol xəritəsi olacaq.

"AzerGold" olaraq bu strateji hədəflərin icrası üçün bütün imkan və resurslarımızı səfərbər edəcək, fəaliyyətimizi bundan sonra da yüksək məsuliyyətlə davam etdirəcəyik. Öz adımdan və kollektivimiz adından Sizə göstərdiyiniz etimada və diqqətə görə təşəkkür edirəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Sonra müşavirə müzakirələrlə davam etdirildi.

# IV Bakı Təhlükəsizlik Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumunda səmimi-qəlbdən salamlayıram.

Artıq dördüncü dəfə Bakıda keçirilən bu forum müxtəlif ölkələrin xüsusi xidmət və təhlükəsizlik orqanlarının rəhbər və nümayəndələrini bir araya gətirməklə beynəlxalq təhlükəsizlik sahəsində fikir mübadiləsi və qarşılıqlı əməkdaşlığın inkişafı üçün mühüm imkan yaradır. Forumun iştirakçı coğrafiyasının ildənilə genişlənməsi və müzakirə olunan məsələlərin aktuallığı Bakı platformasının beynəlxalq səviyyədə artan nüfuzunun göstəricisidir. Əminəm ki, builki tədbir də təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı, qarşılıqlı fikir və təcrübə mübadiləsi baxımından əhəmiyyətli olacaqdır.

Bu gün dünya sürətli və mürəkkəb dəyişikliklər dövrünü yaşayır. Beynəlxalq münasibətlər sistemində baş verən proseslər, geosiyasi rəqabətin kəskinləşməsi, müxtəlif regionlarda davam edən münaqişələr və qarşıdurmalar qlobal təhlükəsizlik mühitinə ciddi təsir göstərir. Etimad böhranının kəskinləşməsi və qarşılıqlı anlaşmanın çətinləşməsi milli təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsini və beynəlxalq sabitliyin qorunmasını bütün ölkələrin qarşısında duran fundamental və təxirəsalınmaz prioritetə çevirir.

Dünyada sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunması bütün dövlətlərin ortaq məsuliyyətidir. Müasir çağırışların miqyası və təhdidedici xarakteri qarşılıqlı əməkdaşlığın gücləndirilməsini, çevik və əlaqələndirilmiş yanaşmaların tətbiqini zəruri edir. Çünki təhlükəsizlik anlayışı artıq ayrı-ayrı dövlətlərin sərhədləri ilə məhdudlaşmır. Hər hansı bir regionda meydana gələn böhran və ya gərginlik ocağı qısa müddət ərzində digər regionlara təsir göstərə, siyasi və iqtisadi sabitliyə, enerji və ərzaq təhlükəsizliyinə xələl gətirə, nəqliyyat və kommunikasiya əlaqələrində ciddi fəsadlara yol aça bilir. Terrorçuluq və ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, qanunsuz silah və narkotik dövriyyəsi, kibercinayətkarlıq və digər transsərhəd təhdidlər də məhz bu qarşılıqlı bağlılıqdan istifadə edərək daha mürəkkəb xarakter alır.

Xüsusilə müasir texnologiyaların və yeni imkanların terrorçuluğun fəaliyyət dairəsinin genişləndirilməsi üçün istifadə olunması ciddi narahatlıq doğurur. Rəqəmsal imkanlardan, o cümlədən süni intellektin bədniyyətli istifadəsi radikal ideyaların yayılmasına, terrorçu şəbəkələrin maliyyə mənbələrinin genişlənməsinə və yeni tərəfdarların cəlb edilməsinə təkan verərək terrorçuluğa qarşı mübarizənin səmərəliliyinə ciddi maneələr yaradır. Bu şəraitdə terrorçuluğa qarşı mübarizə yalnız ayrı-ayrı ölkələrin səyləri ilə məhdudlaşmamalı, beynəlxalq əməkdaşlığın və birgə fəaliyyətin mühüm istiqamətlərindən biri olaraq qalmalıdır.

Təhlükəsizliyin etibarlı təmin olunması üçün yalnız mövcud təhdidlər və onların nəticələri ilə mübarizə aparmaq deyil, riskləri əvvəlcədən müəyyən etmək və onların qarşısını vaxtında almaq vacibdir. Bunun üçün dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, təhlükəsizlik orqanları arasında peşəkar əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı məlumat mübadiləsinin effektivliyinin artırılması xüsusi əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, açıq və etibarlı dialoq əsasında qurulan tərəfdaşlıqlar ən mürəkkəb təhlükəsizlik çağırışlarının belə daha çevik və effektiv şəkildə qarşısının alınmasına imkan yaradır.

Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasını, dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsini və əməkdaşlığın genişləndirilməsini əsas prioritetlərdən hesab edir. Ölkəmiz müxtəlif beynəlxalq və regional platformalarda təhlükəsizlik məsələləri ilə bağlı dialoqun təşviqinə, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə mühüm əhəmiyyət verir. Bakı Təhlükəsizlik Forumunun keçirilməsi də bu məqsədlərə xidmət edərək konkret əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə və qarşılıqlı etimadın daha da möhkəmləndirilməsinə şərait yaradır.

Əminəm ki, builki forum çərçivəsində aparılacaq müzakirələr müasir qlobal təhlükəsizlik çağırışlarının daha dərindən dərk edilməsinə, onların qarşısının alınması istiqamətində yeni yanaşmaların müəyyənləşdirilməsinə, xüsusi xidmət və təhlükəsizlik orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsinə şərait yaradacaq, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə və gələcək nəsillər naminə daha sabit və təhlükəsiz dünyanın formalaşdırılmasına xidmət edəcəkdir.

IV Bakı Təhlükəsizlik Forumunun işinə uğurlar, bütün iştirakçılarına isə səmərəli müzakirələr və məhsuldar əməkdaşlıq arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2026-cı il*

# Milli Onkologiya Mərkəzində uşaq onkologiyasına həsr olunmuş elmi seminar keçirilib



Milli Onkologiya Mərkəzi və Azərbaycan Onkoloqlar Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Vilms şişinin patologiyası və klinik müalicəsində müasir yanaşmalar: SIOP-RTSG təcrübəsi" mövzusunda elmi seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Onkologiya Mərkəzində təşkil olunan seminardan əvvəl xarici qonaqlar mərkəzin Baş direktoru akademik Cəmil Əliyevlə görüşüblər. Görüş zamanı akademik Cəmil Əliyev qonaqlara mərkəzin fəaliyyəti, burada tətbiq edilən müasir diaqnostika və müalicə üsulları haqqında ətraflı məlumat verib. Xarici qonaqlar mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Seminarda uşaqlarda böyrək şişlərinin, xüsusilə Vilms şişinin diaqnostikası, patologiyası və klinik müalicəsində beynəlxalq SIOP-RTSG təcrübəsinə əsaslanan müasir metodlar geniş müzakirə edilib, təcrübə mübadiləsi aparılıb.

Tədbirdə tanınmış yerli və xarici mütəxəssislər - Almaniyadan professor Norbert Graf "Birtərəfli netroblastomada yeni yanaşmalar" və professor Kristian Vokul "Uşaqlarda non-Vilms şişlər", Azərbaycandan həkim Reyman İsmayılzadə "Azərbaycanda nefroblastomanın müalicəsində təcrübəmiz", Norveçdən həkim Ellen D'Hooghe "Vilms şişinin diaqnostik qiymətləndirilməsi və mərhələləndirilməsi", Qətərdən professor Qordan Vuyaniç "SİOP-RTSG Umbrella tədqiqatında patoloqun rolu" mövzularında məruzələrlə çıxış ediblər. Seminarda yeni tibbi innovasiyalar, xəstəliklərin diaqnostikası və müalicəsi ilə bağlı elmi diskussiyalar aparılıb.

# Forumda Orta dəhlizin Şərqlə Qərb arasında əhəmiyyətindən danışılıb

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Azərbaycanın Çindəki səfirliyini ziyarət edib, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək abidəsi önünə gül dəstəsi qoyub.

Nümayəndə heyəti Ümum-Çin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Şöhrət Zakir ilə görüş keçirib. Görüşdə Azərbaycan-Çin münasibətlərinin inkişafından məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri, eləcə də müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə edilib.



Şahin Mustafayev "Qlobal Dayanıqlı Nəqliyyat Forumu - 2026"nın açılış mərasimində, həmçinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə Yüksəksəviyyəli Görüşdə çıxış edib. Baş nazirin müavini Orta dəhlizin Şərq ilə Qərb arasında mühüm nəqliyyat bağlantısı kimi əhəmiyyəti, Azərbaycan və Çin arasında yükdaşımaların həcminin artırılması, tranzit imkanlarının genişləndirilməsi, eləcə də nəqliyyat və logistika sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Tədbir çərçivəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında "Beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin mübadiləsi həyata keçirilib.

"Qlobal Dayanıqlı Nəqliyyat Forumu - 2026"nın yekununda dayanıqlı nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsini və qarşılıqlı əlaqələrin gücləndirilməsini nəzərdə tutan Pekin Təşəbbüsü qəbul edilib.

Səfər çərçivəsində həmçinin Çinin bir sıra aparıcı şirkətlərinin rəhbərləri ilə görüşlər keçirilib. Görüşlər zamanı Azərbaycanda həyata keçirilən layihələrin mövcud vəziyyəti nəzərdən keçirilib, enerji və "yaşıl enerji" sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də yeni birgə layihələrin həyata keçirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin komitə iclaslarında



Sentyabrın 22-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Sadiq Qurbanov iclası açaraq komitə üzvlərinə növbəti sessiyada uğurlar arzulayıb.

Sadiq Qurbanov iclasın gündəliyinə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində görülən işlər barədə hesabat, komitənin payız sessiyası üçün iş planının layihəsi və bir sıra qanun layihələrinin daxil edildiyini söyləyib.

Əvvəlcə 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə komitədə görülən işlər barədə hesabat nəzərə çatdırılıb. Bu barədə komitənin üzvü Vüqar Rəhimzadə məlumat verib. Qeyd edilib ki, hesabat dövründə komitənin 12 iclası keçirilib, 19 məsələyə baxılıb. Bu müddətdə komitə beynəlxalq əməkdaşlıq istiqamətində də səmərəli fəaliyyət göstərib. Komitə üzvləri enerji təhlükəsizliyi, iqlim dəyişmələri, dayanıqlı inkişaf, təmiz enerji, tullantıların idarə olunması və regional enerji əməkdaşlığı ilə bağlı beynəlxalq tədbirlərdə fəal iştirak ediblər.

Bildirilib ki, bu müddətdə komitə sədrinin ünvanına 279 vətəndaş müraciəti daxil olub. Komitə sədri tərəfindən 143 vətəndaş qəbul edilib. Komitə üzvlərinin ünvanına 1997 müraciət daxil olub. Komitədə vətəndaş müraciətləri daim diqqətdə saxlanılıb, onların qaldırdıqları məsələlərin araşdırılması və həlli istiqamətində lazımi addımlar atılıb. Bununla yanaşı, yaz və növbədənkənar sessiyalarda komitə üzvlərinin ölkənin ekoloji və enerji siyasəti ilə bağlı ictimaiyyətin məlumatlandırılması istiqamətində də fəallığı davam etdirilib.

Sonra komitə sədri Sadiq Qurbanov komitənin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edərək bildirib ki, qarşıdan gələn dövr ərzində komitədə qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələri, o cümlədən mövcud qanunlarda dəyişikliklər edilməsi haqqında sənədlər müzakirəyə çıxarılacaq. Sessiya müddətində habelə müxtəlif mövzularda dinləmələrin keçirilməsi nəzərdə tutulub. İş planına müvafiq orqanlardan və vətəndaşlardan daxil olan təkliflərin təhlili, müraciətlərə baxılması və vətəndaşların qəbulu ilə bağlı məsələlər də daxildir.

Daha sonra komitə sədri gündəlikdəki qanun layihələrini təqdim edib.

Əvvəlcə o "Azərbaycan Respublikasının Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi (Quba Xəzəryani) üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Gran Tierra Energy (Azərbaycan) GmbH" şirkəti və "SOCAR Quba-Xəzəryani" MMC arasında Saziş"in qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsi haqqında danışıb. Diqqətə çatdırılıb ki, saziş həmin ərazidə karbohidrogen ehtiyatlarının müəyyənləşdirilməsi, perspektiv strukturların qiymətləndirilməsi, həmçinin ehtiyatların işlənməsi və hasilatın təşkil edilməsi ilə bağlı məsələləri ehtiva edir.

Sonra "Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsindən (birinci oxunuş) bəhs edilib. Bildirilib ki, layihəyə əsasən, "Ətraf mühitin mühafizəsi haqqında" qanuna edilən dəyişiklikdə ətraf mühitin istehsalat monitorinqinin ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) tələb olunan fəaliyyət növləri ilə məşğul olan hüquqi şəxslər tərəfindən aparılması, istifadə edilən ölçmə vasitələrinin qanunvericiliyə uyğunluğunun təmin edilməsi və monitorinq nəticələri barədə illik hesabatın növbəti ilin fevral ayının 1-dən gec olmayaraq aidiyyəti dövlət orqanına təqdim edilməsi müəyyən olunur. Bununla yanaşı, sənəddə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanuna təklif olunan dəyişikliklə sifarişçinin ƏMTQ sənədini aidiyyəti dövlət orqanının rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi üçün həmin orqana təqdim etmək öhdəliyi təsbit olunur.

Komitədə habelə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi də (ikinci oxunuş) nəzərdən keçirilib.

İclasda komitənin sədr müavini Fatma Yıldırım, üzvləri Nigar Arpadarai, Naqif Həmzəyev, Eyvaz Qurbanov, Asif Əsgərov, Parlament Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov müzakirəyə çıxarılan məsələlərlə bağlı fikirlərini, qeyd və təkliflərini söyləyiblər.

İclasda 2026-cı ilin yaz və növbədənkənar sessiyaları dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində görülən işlər məqbul hesab olunub, komitənin cari ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib, gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasında baxılması üçün tövsiyə olunub.

❖ ❖ ❖

Sentyabrın 22-də Milli Məclisin Gənclər və idman komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Şahin İsmayılov yeni sessiyada komitənin fəaliyyətinə uğurlar arzulayıb və gündəliyə iki məsələnin daxil edildiyini bildirib.

İlk növbədə komitə sədri gündəliyin birinci məsələsi olan 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Gənclər və idman komitəsinin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, ötən sessiyada 4 iclas keçirilib və 6 məsələyə baxılıb. Bununla yanaşı, 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində ümumilikdə komitəyə 125 müraciət daxil olub, onlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb. Komitə sədri deyib ki, ötən dövrdə seçicilərlə görüşlər keçirilib, onların müraciətləri dinlənilərək, qaldırılan məsələlərin həlli istiqamətində müvafiq addımlar atılıb.

Daha sonra Şahin İsmayılov gündəliyin ikinci məsələsi - Gənclər və idman komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, iş planı layihəsində qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, gənclər və idman sahəsində maarifləndirmə tədbirlərinin keçirilməsi və geniş müzakirələrin təşkili nəzərdə tutulur.

Müzakirələr zamanı komitə sədrinin müavini Könül Nurullayeva, üzvləri Asif Əsgərov, Ülvi Quliyev, Mircəlil Qasımlı, Səbinə Xasayeva, Eyvaz Qurbanov, Müşfiq Cəfərov, Vüqar İskəndərov, Göydəniz Qəhrəmanov və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək fikir və təkliflərini bildiriblər.

Beləliklə, ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

***"Azərbaycan"***

# Zəfərdən sülhə uzanan yol

2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixində yeni bir səhifə açdı. Bu müharibə xalqımızın həmrəyliyini, ordumuzun gücünü və dövlətimizin qətiyyətini nümayiş etdirməklə yanaşı, uzun illər həsrətində olduğumuz torpaqlara qovuşmaq arzusunu reallığa çevirdi. Bu baxımdan 27 Sentyabr həm şəhidlərimizin xatirəsinə ehtiram, həm də Zəfərimizin başlanğıcını xatırladan mühüm tarixdir.

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan uzun illər ərzində münaqişənin sülh yolu ilə həllinə üstünlük verib və bunun üçün beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanıb. Ermənistanın Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları, işğalçıya xarici dəstək və beynəlxalq müstəvidə tətbiq olunan ikili standartlar regionda uzunmüddətli qeyri-sabitliyin yaranmasına gətirib çıxarıb. "Bu proses nəticəsində yüz minlərlə insan öz doğma torpaqlarından didərgin düşüb, Azərbaycan əraziləri uzun illər işğal altında qalıb. Bu ikili standartlara baxmayaraq, xalqımız torpaqlarının işğal altında qalması ilə heç vaxt barışmayıb. Münaqişənin sülh yolu ilə həllinə ümid edərək, illərlə təmkin nümayiş etdirən xalqımız Ermənistan tərəfindən həyata keçirilən ardıcıl hərbi təxribatlarla üzləşib. 2020-ci il sentyabrın 27-də baş vermiş növbəti genişmiqyaslı təxribat isə Azərbaycanın özünümüdafiə hüququndan istifadə etməsini zəruri edib. Başlayan müharibə xalqımızın öz torpaqlarını müdafiə və tarixi ədaləti bərpa etmək iradəsinin göstəricisinə çevrildi. 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın hərbi gücü ilə yanaşı, siyasi iradəsini və xalq-iqtidar birliyini də nümayiş etdirdi", - deyə o bildirib.

Deputat dedi ki, Azərbaycan Ordusu yüksək peşəkarlıq göstərərək və müasir döyüş taktikalarından istifadə edərək işğal altında olan əraziləri azad etdi. Qələbənin əldə olunmasında hərbi imkanlarla yanaşı, ölkənin diplomatik fəaliyyəti də mühüm rol oynadı. Prezident İlham Əliyevin rəhbərliyi, Silahlı Qüvvələrin hazırlığı və Azərbaycan xalqının möhkəm iradəsi nəticəsində ölkənin ərazi bütövlüyü bərpa edildi.



K.Bayramov müharibə günlərində cəmiyyətin bütün təbəqələrinin vahid məqsəd ətrafında birləşdiyini xatırladaraq əlavə edib ki, xalqın orduya və dövlətə göstərdiyi mənəvi dəstək, əsgər və zabitlərimizin döyüş əzmi Zəfərin qazanılmasında mühüm amillərdən biri olub: "Həmin dövr Azərbaycan tarixində milli həmrəyliyin ən parlaq nümunələrindən biri kimi yadda qaldı. Müharibədən sonra da dövlət tərəfindən şəhid ailələrinin və qazilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirildi. Şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən sosial dəstək, təltiflər, eləcə də Bakıda yaradılmış Zəfər parkı və digər layihələr Vətən müharibəsinin tariximizdəki əhəmiyyətini yaşadan nümunələr sırasındadır. Azərbaycanın əldə etdiyi Zəfərin beynəlxalq müstəvidə tanıdılması və ölkəmizin mövqeyinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində də mühüm fəaliyyət aparılıb. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq platformalarda, o cümlədən BMT Baş Assambleyası və Qoşulmama Hərəkatının tədbirlərində çıxışları zamanı Azərbaycanın mövqeyi və beynəlxalq hüquqa əsaslanan yanaşması diqqətə çatdırılıb. Bu çıxışlarda Ermənistanın uzun illər davam edən işğal siyasətinin nəticələri barədə beynəlxalq ictimaiyyətə məlumat verilib".

K.Bayramov vurğulayıb ki, Vətən müharibəsində əldə edilən Zəfərdən sonra qarşıda duran əsas vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və insanların öz doğma torpaqlarına qayıdışının təmin edilməsidir. Bu məqsədlə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Yeni avtomobil yollarının və hava limanlarının inşası, dəmir yolu xətlərinin tikintisi, müasir yaşayış məntəqələrinin salınması, eləcə də "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin reallaşdırılması bu istiqamətdə görülən işlərin əsas nümunələrindəndir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası kimi inkişaf etdirilməsi də xüsusi əhəmiyyət daşıyır. Bərpaolunan enerji mənbələrindən istifadə, müasir texnologiyaların tətbiqi və ekoloji cəhətdən dayanıqlı layihələrin həyata keçirilməsi Azərbaycanın enerji siyasətinin yeni istiqamətlərini nümayiş etdirir.

"Azad edilmiş ərazilərin bərpası ölkənin iqtisadi inkişafı üçün də yeni imkanlar formalaşdırır. Burada yaradılan müasir infrastruktur sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yerli istehsalın inkişafına və investisiyaların cəlb edilməsinə şərait yaradır. Kənd təsərrüfatının müxtəlif sahələrinin yenidən qurulması, təbii ehtiyatlardan səmərəli istifadə və turizm imkanlarının genişləndirilməsi regionun iqtisadi potensialının artırılması baxımından mühüm istiqamətlərdir. Dövlət tərəfindən tətbiq olunan müxtəlif təşviq mexanizmləri, investorlara yaradılan imkanlar və biznes mühitinin formalaşdırılması Qarabağ və Şərqi Zəngəzurda iqtisadi fəallığın artmasına xidmət edir. Quruculuq prosesinin genişlənməsi ilə bu ərazilərin Azərbaycanın iqtisadi həyatında daha mühüm mövqeyə sahib olması gözlənilir"- deyə o əlavə edib.

Deputat qeyd edib ki, davamlı sülhün təmin olunması isə bütün bu imkanların tam şəkildə reallaşması üçün əsas şərtlərdən biridir. Qarşılıqlı etimadın gücləndirilməsi, kommunikasiyaların açılması, iqtisadi və humanitar əlaqələrin inkişaf etdirilməsi xalqlar arasında münasibətlərin normallaşmasına mühüm töhfə verə bilər. Uzunmüddətli perspektivdə belə əməkdaşlıq region ölkələri arasında qarşılıqlı asılılığı və maraqları artıraraq sabitliyin möhkəmlənməsinə xidmət edə bilər. Bu baxımdan Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda apardığı quruculuq siyasəti yalnız milli inkişaf layihəsi deyil, həm də regionun gələcək iqtisadi və sosial mənzərəsinə təsir göstərə biləcək proses kimi qiymətləndirilir. Sülh, təhlükəsizlik və qarşılıqlı əməkdaşlıq mühitinin möhkəmlənməsi isə Cənubi Qafqazda sabitliyə, inkişafa və xalqların rifahının yüksəlməsinə xidmət edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması"

## IV Bakı Təhlükəsizlik Forumu işə başlayıb

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı ilə beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbir açıq elan edildikdən sonra Prezident İlham Əliyevin forum iştirakçılarına müraciəti oxunub.

Tədbirdə çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev ölkə başçısının təşəbbüsü ilə əsası qoyulan və ildən-ilə əhatə dairəsi genişlənən forumun iştirakçılarını növbəti dəfə Bakı şəhərində salamlamaqdan məmnunluğunu bildirib.

İlkin müzakirələr zamanı vurğulanıb ki, Bakıda keçirilən beynəlxalq forum xüsusi xidmət və təhlükəsizlik orqanları üçün vacib dialoq platformasıdır. 600-ə yaxın yüksəksəviyyəli nümayəndənin iştirakı qlobal təhlükələrə qarşı forum çərçivəsində 2023-cü ildən başlanan davamlı dialoqun coğrafi miqyasının genişləndiyini göstərir, milli təcrübələrin müqayisəsi, peşəkar əlaqələrin inkişafı və birgə həllərin axtarışı üçün geniş imkanlar yaradır. Tərəfdaş qurumların rəhbərlərinin geniş iştirakı Bakı platformasına olan etimadı göstərir və müzakirələrin praktiki əməkdaşlığa çevrilməsi imkanlarını artırır.

Həmçinin qeyd edilib ki, forum siyasi yanaşmalardakı fərqlərə baxmayaraq, əməkdaşlığı təşviq etməsi, ortaq təhlükələrə qarşı ünsiyyət kanallarının qorunması baxımından əhəmiyyətlidir. Belə ki, beynəlxalq təhlükəsizlik sistemində transformasiya gedir - terrorçuluq, transmilli cinayətkarlıq, qeyri-qanuni miqrasiya, narkotik dövriyyəsi və kibercinayətkarlıq halları artır. Transsərhəd çağırışlarla təkbaşına mübarizə aparmaq isə mümkün deyil. Bu səbəbdən etibarlı tərəfdaşlıq vacibdir. Çünki təhlükəsizlik təkcə sərhədlərin qorunması deyil. Enerji, nəqliyyat, bank, su ehtiyatları, rabitə və informasiya məkanı dövlət xidmətlərinin dayanıqlığının mühüm tərkib hissələridir.

Eyni zamanda diqqətə çatdırılıb ki, kiberimkanlar, süni intellekt və kosmik sistemlər uğrunda qlobal rəqabət güclənir. Silahlanma xərcləri və münaqişələr regional proseslərə, enerji və ərzaq təhlükəsizliyinə ciddi təsir edərək, terrorçuluq üçün əlverişli zəmin yaradır. Dünyanın istənilən regionundakı böhranlar qısa müddətdə qlobal təhlükəyə çevrilə bilər. Bakı Təhlükəsizlik Forumunda risklərin və təhdidlərin qarşılıqlı əlaqədə qiymətləndirilməsi isə ölkələrin daha hazırlıqlı olmasına xidmət edir.

# Azərbaycanın xarici işlər naziri ABŞ-də səfərdədir



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Cammu və Kəşmir üzrə Kontakt Qrupunun iclasında çıxış edib.

AZƏRTAC xəbər verir ki, nazir Azərbaycanın mübahisənin beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə həllinə sadiqliyini bir daha təsdiqləyib.

Ceyhun Bayramov həmçinin regional sülh və sabitliyin möhkəmləndirilməsi baxımından Hindistan ilə Pakistan arasında münasibətlərin normallaşdırılması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

❖ ❖ ❖



Nyu Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Federal Şurasının üzvü və Xarici İşlər üzrə Federal Departamentin rəhbəri İqnatsio Kassis ilə görüşüb.

Tərəflər Azərbaycan-İsveçrə münasibətlərinin mövcud vəziyyəti və perspektivlərini müzakirə edərək, müntəzəm siyasi dialoqun davam etdirilməsinin və ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini vurğulayıblar. Görüşdə həmçinin ATƏT çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər davamlı qarşılıqlı əlaqələrin və konstruktiv beynəlxalq əməkdaşlığın əhəmiyyətini qeyd ediblər.

❖ ❖ ❖

Nyu Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Cibutinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdulkader Hüseyn Ömər ilə görüşüb. Bu barədə Xarici İşlər Nazirliyi sosial media səhifəsində məlumat paylaşıb.



Görüşdə Azərbaycan-Cibuti münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilib. Tərəflər yüksəksəviyyəli təmasların və siyasi dialoqun davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Ticarət, iqtisadiyyat, təhsil və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi, mövcud imkanlardan səmərəli istifadə olunması məsələlərinə xüsusi diqqət yetirilib.

Nazirlər həmçinin BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalarda koordinasiya və qarşılıqlı dəstək məsələlərini müzakirə ediblər. Görüşdə Azərbaycanın 2027-ci ildə İƏT Sammitinə evsahibliyi etməyə hazırlığı və qarşıdakı İƏT sədrliyi ilə bağlı məsələlər də müzakirə olunub.

Həmçinin Yaxın Şərqdə cərəyan edən təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb, gərginliyin azaldılmasının və yaranmış vəziyyətin sülh yolu ilə həllinin vacibliyi vurğulanıb.

# Unikal dialoq məkanı

## Bakı platforması beynəlxalq təhlükəsizlik arxitekturasına mühüm töhfə verəcək

Beynəlxalq münasibətlər sisteminin qeyri-müəyyənlik mərhələsini yaşadığı, ənənəvi təhlükəsizlik arxitekturasının zəiflədiyi bir dövrdə dünyada dialoq kanallarının açıq saxlanılması zərurətə çevrilib. Belə mürəkkəb tarixi şəraitdə Azərbaycan növbəti dəfə qlobal miqyaslı vacib təşəbbüslə çıxış edərək beynəlxalq təhlükəsizlik dialoqunun məkanına çevrilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı ilə keçirilən "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusundakı IV Bakı Təhlükəsizlik Forumu öz miqyası və əhatə dairəsi ilə qlobal əhəmiyyətli hadisə kimi diqqəti cəlb edir.

Bakıda keçirilən bu beynəlxalq forum dünya ölkələrinin xüsusi xidmət və təhlükəsizlik orqanları üçün strateji əhəmiyyətli dialoq platformasıdır. Tədbirdə beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərləri və yüksəksəviyyəli nümayəndələrinin iştirakı Azərbaycanın qlobal təhlükəsizlik sistemində oynadığı birləşdirici rolun bariz göstəricisidir.

Tədbirə 600-ə yaxın yüksəksəviyyəli nümayəndənin qatılması 2023-cü ildən başlanan davamlı dialoqun coğrafi miqyasının sürətlə genişləndiyini, Bakı platformasına olan beynəlxalq etimadın yüksək səviyyədə olduğunu təsdiqləyir.

Əslində, Azərbaycanın bu cür möhtəşəm tədbirlərə evsahibliyi etməsi təsadüfi xarakter daşımır. Ölkəmiz uzun illərdir ki, qlobal diplomatik, siyasi və humanitar dialoqun əsas mərkəzlərindən biri kimi tanınır. Nümunə üçün Bakı Qlobal Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Qoşulmama Hərəkatının Zirvə görüşləri, eləcə də BMT-nin Ümumdünya Şəhərsalma Forumu kimi beynəlxalq miqyaslı tədbirlər Azərbaycanın beynəlxalq arenadakı yüksək nüfuzunun və təşkilatçılıq qabiliyyətinin parlaq sübutudur. İqlim dəyişikliyi ilə mübarizədən tutmuş humanitar diplomatiyaya və regional təhlükəsizliyə qədər müxtəlif sahələri əhatə edən bu platformalar göstərir ki, Bakı yalnız coğrafi cəhətdən deyil, məhz ideoloji və strateji baxımdan da Şərqlə Qərbi, Şimalla Cənubu bir araya gətirən unikal məkandır. Məhz bu zəngin təcrübə və qazanılmış beynəlxalq etimad IV Bakı Təhlükəsizlik Forumunu da unikal edən əsas amillərdəndir.

Dünyanın müxtəlif qütblərində yerləşən, bir çox hallarda siyasi və ideoloji yanaşmalarında ciddi fərqləri olan 100-dən artıq dövlətin təhlükəsizlik strukturlarının rəhbərlərini bir masa arxasında toplamaq müstəsna diplomatik və təşkilati nailiyyətdir. Bakı platforması siyasi fikir ayrılıqlarından asılı olmayaraq, peşəkar müstəvidə ünsiyyət kanallarının qorunması, birgə təhdidlərə qarşı ortaq dilin tapılması baxımından əvəzsiz rola malikdir. Bu platforma milli təcrübələrin müqayisə edilməsi, xüsusi xidmət orqanları arasında operativ və peşəkar əlaqələrin inkişafı, transmilli təhlükələrə qarşı birgə həll yollarının axtarılması üçün geniş imkanlar açır.

Tərəfdaş qurumların rəhbərlərinin belə yüksəksəviyyəli iştirakı müzakirə olunan məsələlərin birbaşa praktiki əməkdaşlıq mexanizmlərinə çevrilməsi potensialını dəfələrlə artırır. Dünyada baş verən geosiyasi dəyişikliklər təhlükəsizlik anlayışının mahiyyətini köklü şəkildə dəyişib. Bu gün terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsi və kibercinayətkarlıq artıq lokal xarakter daşımır. Sərhəd tanımayan bu çağırışlarla heç bir dövlətin təkbaşına, təcrid olunmuş şəkildə mübarizə aparması mümkün deyildir.

Müasir dövrdə dövlət təhlükəsizliyi anlayışı yalnız fiziki sərhədlərin qorunması çərçivəsindən çoxdan çıxıb. Müasir reallıqlar göstərir ki, enerji şəbəkələri, nəqliyyat-logistika dəhlizləri, bank və maliyyə sektoru, su ehtiyatları, rabitə və informasiya məkanı dövlət xidmətlərinin dayanıqlılığının, deməli, həm də milli təhlükəsizliyin ayrılmaz tərkib hissələridir. Bunlara qarşı yönəlmiş hər hansı təhdid bütün dövlət mexanizminin iflic olmasına gətirib çıxara bilər.

Eyni zamanda süni intellekt texnologiyaları və kosmik sistemlər uğrunda qlobal rəqabətin kəskinləşməsi təhlükəsizlik mühitinə yeni risklər əlavə edir. Qlobal miqyasda silahlanma xərclərinin artması və aktiv münaqişə ocaqlarının genişlənməsi regional proseslərə, enerji və ərzaq təhlükəsizliyinə ciddi zərbə vurur. Bu isə öz növbəsində terrorçu və radikal qrupların fəaliyyəti üçün əlverişli zəmin yaradır.

Müasir dünyada baş verən proseslər bir daha sübut edir ki, planetin istənilən regionunda meydana gələn böhran və ya sabitlik pozuntusu qısa müddət ərzində zəncirvari reaksiya verərək qlobal miqyaslı təhlükəyə çevrilə bilər. Bu baxımdan risklərin lokallaşdırılması və erkən xəbərdarlıq sistemlərinin qurulması üçün beynəlxalq informasiya mübadiləsi həlledici rol oynayır.

IV Bakı Təhlükəsizlik Forumunda risklərin və təhdidlərin kompleks şəkildə, qarşılıqlı əlaqədə qiymətləndirilməsi ölkələrin gələcək gözlənilməz ssenarilərə və böhranlara daha hazırlıqlı olmasına birbaşa xidmət edir. Məhz Bakıda aparılan müzakirələr müxtəlif dövlətlərin xüsusi xidmət orqanlarına ümumi mənzərəni görməyə, potensial riskləri əvvəlcədən təhlil etməyə və qabaqlayıcı tədbirlər həyata keçirməyə imkan verir.

IV Bakı Təhlükəsizlik Forumu Azərbaycanın yalnız regional sabitliyin təminatçısı kimi deyil, həm də qlobal təhlükəsizlik arxitekturasının formalaşmasında fəal və məsuliyyətli tərəfdaş kimi mövqeyini növbəti dəfə nümayiş etdirdi. 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərini bir araya gətirən bu unikal Bakı platforması qlobal təhlükələrə qarşı konstruktiv dialoqun, etibarlı tərəfdaşlığın və operativ işbirliyinin mühüm mərkəzi olduğunu sübut etdi.

Beynəlxalq təhlükəsizlik sisteminin ciddi sınaqlar qarşısında qaldığı bir dövrdə Bakıdan verilən həmrəylik və peşəkar əməkdaşlıq mesajları daha təhlükəsiz bir dünyanın qurulması işinə böyük töhfədir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# "TDT-nin enerji və nəqliyyat sahəsində əməkdaşlığı strateji əhəmiyyət daşıyır"

Türk Dövlətləri Təşkilatının (TDT) qarşıdakı dövrdə rolunun daha da artacağını düşünürəm. Müasir dövrdə təhlükəsizlik anlayışını yalnız hərbi təhlükəsizliklə məhdudlaşdırmaq mümkün deyil. Enerji mənbələrinin, nəqliyyat bağlantılarının və iqtisadi əlaqələrin təhlükəsizliyi də ümumi təhlükəsizliyin mühüm tərkib hissəsidir.



Bunu AZƏRTAC-a açıqlamasında türk **siyasi ekspert Kadir Uğur YILMAZ** bildirib.

Onun sözlərinə görə, enerji və nəqliyyat təhlükəsizliyi bir-biri ilə sıx bağlıdır.

"Enerjinin istehsal olunduğu ərazidən istehlak məntəqələrinə təhlükəsiz çatdırılması ilə yanaşı, malların və insanların sərbəst və təhlükəsiz hərəkəti də təmin edilməlidir. Türkiyə-Azərbaycan münasibətləri yalnız siyasi əlaqələr çərçivəsində qiymətləndirilməməlidir. Bu əlaqələr Xəzər dənizi ilə Anadolunu, Anadolu ilə Avropanı birləşdirən strateji enerji və nəqliyyat bağlantısıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və "Cənub qaz dəhlizi" kimi layihələr yalnız iqtisadi deyil, həm də regional və qlobal əhəmiyyət daşıyır. Azərbaycanın enerji resurslarının Türkiyə üzərindən dünya və Avropa bazarlarına çıxarılması enerji təchizatının şaxələndirilməsi baxımından mühümdür. Türk dünyasının iqtisadi və strateji gücünün artırılması üçün nəqliyyat və enerji infrastrukturunun bir-birinə bağlanması vacibdir. Dəmir yolları, avtomobil yolları, limanlar, enerji xətləri, elektrik bağlantıları və rəqəmsal infrastruktur bu prosesin əsas elementləridir", - deyə Kadir Uğur Yılmaz vurğulayıb.

Ekspert Orta dəhlizin də yalnız ticarət marşrutu kimi deyil, daha geniş iqtisadi və strateji bağlantının mühüm hissəsi kimi qiymətləndirilməli olduğunu bildirib. Qeyd edib ki, enerji və nəqliyyat dəhlizləri bir-birini tamamlayır və onların təhlükəsizliyi vahid yanaşma tələb edir.

K.U.Yılmaz TDT-nin bu sahədə mühüm imkanlara malik olduğunu diqqətə çatdırıb. O bildirib ki, Azərbaycanın Xəzərə çıxışı, Qazaxıstan və Türkmənistanın enerji potensialı, Özbəkistanın istehsal imkanları və Türkiyənin Avropa bazarlarına çıxış mövqeyi bir-birini tamamlayır.

Ekspert enerji təhlükəsizliyinin yalnız neft və təbii qazla məhdudlaşmadığını da vurğulayıb. Onun sözlərinə görə, bərpaolunan enerji, elektrik ötürücü xətləri və enerji saxlama sistemləri gələcəkdə bu sahədə əməkdaşlığın əsas istiqamətlərindən olacaq: "Türkiyə-Azərbaycan enerji əlaqələrini yalnız mövcud layihələr çərçivəsində deyil, gələcəyin enerji sistemi baxımından qiymətləndirmək lazımdır. Söhbət təkcə Azərbaycanın qazının Türkiyə və Avropaya çatdırılmasından getmir. Əsas məsələ Xəzərdən Anadoluya, Anadoludan Avropaya uzanan təhlükəsiz və dayanıqlı iqtisadi damar formalaşdırmaqdır".

K.U.Yılmazın fikrincə, türk dünyasının gələcək təhlükəsizlik modelində enerji, nəqliyyat, ticarət və kommunikasiya sahələri bir-birini tamamlamalıdır. O, TDT-nin qarşısında duran əsas imkanlardan birinin bu bağlantıları vahid sistem çərçivəsində gücləndirmək olduğunu qeyd edib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Türkiyə nümayəndə heyəti ilə görüşüb

Sentyabrın 22-də Azərbaycanın müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Türkiyənin Baş Qərargahının Beynəlxalq Müştərək Strateji Komandanlığının rəhbəri general-polkovnik Sebahattin Kılınç ilə görüşüb.



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, qonaqları salamlayan general-polkovnik K.Vəliyev Azərbaycan və Türkiyə arasında münasibətlərin tarixi dostluq, qardaşlıq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığını bildirib.

Tərəflər iki ölkənin hərbi qulluqçularının iştirakı ilə keçirilən birgə təlimlərin şəxsi heyətin peşə hazırlığının yüksəldilməsi, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi və ordularımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə mühüm töhfə verdiyini qeyd ediblər.

Görüşdə həmçinin hərbi, hərbi təhsil, hərbi-texniki, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi də aparılıb.



**B**əzən tarix bir hadisə ilə deyil, bir neçə hadisənin eyni nöqtədə qovuşması ilə öz sözünü deyir. 2024-cü il sentyabrın 23-ü də Azərbaycan üçün belə tarixlərdəndir. Həmin gün VII çağırış Milli Məclis ilk iclasına başlayarkən ölkəmizin siyasi həyatında yeni mərhələnin mənzərəsi aydın görünürdü - 30 illik işğalın ağır səhifəsi arxada qalmış, ərazi bütövlüyümüz və dövlət suverenliyimiz bərpa olunmuş, seçkilər ilk dəfə Azərbaycanın bütün suveren ərazisini əhatə etmişdi. Prezident İlham Əliyevin Milli Məclisin ilk iclasındakı çıxışı məhz belə bir tarixi mərhələnin siyasi mənzərəsini təqdim etməklə yanaşı, qarşıdakı illərin əsas vəzifələrini də ortaya qoyurdu.

# Zəfərdən sonra başlayan yeni mərhələnin yol xəritəsi

## Bunu dövlətimizin başçısı 2024-cü il sentyabrın 23-də Milli Məclisin ilk iclasında çıxışında təqdim etdi

Dövlətimizin başçısının çıxışının mühüm xüsusiyyətlərindən biri o idi ki, burada Zəfər yalnız keçmişin möhtəşəm nəticəsi kimi deyil, gələcəyin məsuliyyəti kimi də təqdim edilir. Prezidentin "Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir" fikri təkcə seçki faktına verilən qiymət deyil. Bu cümlənin arxasında bütöv bir tarixi mərhələnin məntiqi dayanır. Seçkinin ölkənin bütün suveren ərazisində keçirilməsi dövlətin ərazi bütövlüyünün və suverenliyinin bərpasının siyasi həyatdakı təzahürü idi. 2024-cü ildə VII çağırış Milli Məclisin ilk iclasının keçirilməsi də məhz bu tarixi kontekstdə baş vermişdi.

Prezidentin çıxışında diqqətçəkən məsələlərdən biri də bu idi ki, dövlətimizin başçısı qələbədən danışarkən arxayınlaşmamağı xüsusi vurğulayırdı. "Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək" sözləri nitqin əsas fəlsəfəsini ifadə edirdi. Çünki hər bir dövlət üçün qələbəni qazanmaq qədər onu qorumaq, möhkəmləndirmək və gələcək nəsillərə təhlükəsiz ötürmək də mühüm məsuliyyətdir. İlk növbəli vəzifə kimi hərbi gücün artırılmasının göstərilməsi də məhz bu yanaşmanın davamıdır. Dünyada baş verən müharibələr, təhlükəsizlik böhranları və dəyişən beynəlxalq münasibətlər fonunda Azərbaycan müdafiə imkanlarını daim gücləndirməli olduğunu bəyan edir. Burada diqqətçəkən məqam odur ki, hərbi güc yalnız silah və texnika məsələsi kimi təqdim olunmur. Yerli hərbi sənaye kompleksinin inkişafı, yeni texnologiyaların tətbiqi, peşəkar kadrların hazırlanması və xarici asılılığın mümkün qədər azaldılması məsələləri də bu siyasətin tərkib hissəsi kimi göstərilir.

Belə yanaşmanın iqtisadi tərəfi də var. Hərbi sənayenin inkişafı bir tərəfdən müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə, digər tərəfdən yeni istehsal sahələrinin və iş yerlərinin açılmasına xidmət edə bilər. Prezident çıxışında bu sahənin özəl sektor üçün də əhəmiyyətindən danışaraq gələcəkdə hərbi sənaye məhsullarının istehsalının genişləndirilməsi məqsədini ortaya qoyurdu. Deməli, burada söhbət yalnız təhlükəsizlikdən yox, eyni zamanda texnoloji inkişafdan gedir.

Çıxışın digər mühüm xətti sərhədlərin qorunması və daxili təhlükəsizlik məsələsi idi. Dövlətin suverenliyi yalnız xəritədə müəyyən edilmiş sərhədlərlə ölçülmür. Burada sərhədin təhlükəsizliyi, müasir infrastruktur, texnoloji imkanlar və sabitlik bir-birini tamamlayan amillərdir. Prezidentin "Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır" fikri də bu kontekstdə səslənir. Burada əsas fikir gücün yalnız hərbi ölçüdə başa düşülməməsidir, həm də iqtisadiyyat, insan kapitalı, sosial sabitlik və dövlət institutlarının dayanıqlılığı da milli gücün mühüm elementləridir.

Dövlət başçısının nitqində xüsusi yer tutan məsələlərdən biri isə gənc nəslin yetişdirilməsidir. Prezidentin "Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir" fikri, əslində, çox geniş ictimai məsuliyyət məsələsini gündəmə gətirir. Zəfər qazanan dövlətin gələcəyini yalnız bugünkü nəsil deyil, sabahın gəncləri də müəyyən edəcək. Ona görə bilikli, savadlı, milli dəyərlərə bağlı, eyni zamanda müasir dünyanı dərk edən gəncliyin yetişdirilməsi uzunmüddətli dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi görünür.

Prezidentin çıxışında Qarabağ və Şərqi Zəngəzurun bərpası ən geniş yer ayırdığı mövzulardandır. Burada rəqəmlər, sadəcə, statistik göstəricilər deyil, müharibədən sonra qarşıya qoyulmuş nəhəng quruculuq vəzifəsinin miqyasını göstərən faktlardır. Prezident çıxşında müharibədən sonrakı dövrdə həmin ərazilərin bərpasına 19 milyard manat vəsaitin xərclənməsinin nəzərdə tutulduğunu - minlərlə kilometr yolun, tunellərin, körpülərin tikintisi, dəmir yollarının və hava limanlarının istifadəyə verilməsi, enerji infrastrukturunun yaradılması kimi genişmiqyaslı yenidənqurmanın istiqamətlərini bildirdi.

Burada diqqətçəkən daha bir məqam var - Qarabağın bərpası yalnız fiziki infrastrukturun yenilənməsi kimi təqdim edilmir. Məktəblər, xəstəxanalar, yaşayış məntəqələri, mədəni-tarixi abidələr, məscidlər, muzeylər və digər obyektlərin yaradılması və bərpası bütöv bir həyat mühitinin yenidən qurulmasını nəzərdə tutur. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı isə bu prosesin insan amilini təşkil edir. Bütün bunların həyata keçirilməsi üçün iqtisadi gücün əhəmiyyəti də çıxışda xüsusi vurğulanır. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi və sosial siyasətin davam etdirilməsi qarşıdakı dövrün mühüm məsələləri kimi göstərilir. Beləliklə, təhlükəsizliklə iqtisadi inkişaf, iqtisadi inkişafla sosial rifah, sosial rifahla insan kapitalı arasında qarşılıqlı bağlılıq yaradılır.

Dövlətimizin başçısının Ermənistanla münasibətlərin normallaşdırılması və sülh danışıqları barədə fikirləri də çıxışın mühüm hissəsini təşkil edir. Burada Azərbaycanın mövqeyi, sərhədlərin delimitasiyası, sülh müqaviləsi və regionda təhlükəsizliyin təmin olunması məsələləri ön plana çıxarılır. Bu məsələlərə münasibətdə müxtəlif tərəflərin fərqli mövqeləri olsa da, çıxışın əsas xətti ölkəmizin öz suverenliyi və təhlükəsizliyi məsələlərində prinsipial mövqedən çıxış etməsidir.

Xarici siyasətlə bağlı səsləndirilən fikirlər də bu ümumi xəttin davamıdır. Prezident "müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir" deyərək Azərbaycanın xarici siyasətində qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsipini önə çəkir. Eyni zamanda Azərbaycanın beynəlxalq münasibətlər sistemində daha fəal iştirak etmək niyyətini ifadə edir.

Prezidentin nitqinə bütöv şəkildə nəzər saldıqda belə bir nəticəyə gəlmək mümkündür: 23 sentyabr 2024-cü il çıxışı yalnız yeni parlament çağırışının başlanması münasibətilə söylənmiş siyasi nitq deyildi, həm də Zəfərdən sonrakı Azərbaycanın qarşısında dayanan vəzifələrin ümumi çərçivəsini təqdim edən proqram xarakterli sənəddir. Təhlükəsizlik, ordu, sərhəd, ideoloji dayanıqlıq, gənclər, Qarabağın bərpası, iqtisadi inkişaf, sosial rifah, sülh və xarici siyasət - bütün bu istiqamətlər vahid bir dövlətçilik məntiqi daxilində birləşdirilirdi.

Ən əsası isə, bu çıxışın ruhunda bir həqiqət dayanır - tarixi Zəfər son nöqtə deyil, əksinə, o, daha böyük məsuliyyət tələb edən yeni mərhələnin başlanğıcıdır. Torpaqların azad edilməsi tarixi missiyanın mühüm hissəsini tamamladı, amma həmin torpaqlarda həyatın yenidən qurulması, iqtisadi və sosial inkişafın təmin edilməsi, təhlükəsizliyin qorunması və güclü dövlətin gələcək nəsillərə ötürülməsi qarşıda duran davamlı vəzifələrdir.

Məhz buna görə 23 sentyabr 2024-cü ildə Milli Məclisdə səslənən fikirlərə bu gün yalnız həmin günün hadisəsi kimi baxmaq kifayət deyil. Həmin nitq Azərbaycanın Zəfərdən sonrakı dövrünün əsas yol xəritəsini müəyyənləşdirirdi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Yeni dünya nizamında Bakının güclənən mövqeyi

## Ölkəmizin etibarlı tərəfdaş imici möhkəmlənir, dialoq məkanı və qlobal təşəbbüslərin müəllifi kimi nüfuzu daha da artır

**D**ünyanın siyasi və iqtisadi nizamı mürəkkəb keçid dövrünü yaşayır. Ənənəvi güc mərkəzləri arasında ziddiyyətlərin kəskinləşməsi, beynəlxalq hüquq normalarının faktiki olaraq işləməməsi, mövcud təhlükəsizlik arxitekturasının zəifləməsi dövlətləri yeni nizamın formalaşması mərhələsinə sövq edir. Təbii ki, belə şəraitdə hər ölkə yeni nizamda öz yerini müəyyənləşdirməyə, strateji maraqlarını qorumağa, daha əlverişli mövqe tutmağa çalışır.



Bu mürəkkəb və çoxvektorlu dəyişikliklər fonunda Azərbaycan özünün daxili sabitliyi, uğurlu xarici siyasət strategiyası və müstəqil qərarqəbuletmə imkanları ilə xüsusi diqqət çəkir. Regional və qlobal reallıqların yenidən formalaşdığı şəraitdə Azərbaycan təkcə baş verən proseslərə uyğunlaşmır, eyni zamanda birbaşa gündəliyin müəyyən olunmasında, regional təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq modelinin formalaşmasında aparıcı rol oynayır.

Suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən ölkəmiz Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar sayəsində beynəlxalq münasibətlər sistemində strateji çəkisini əhəmiyyətli dərəcədə artırıb, özünü regional çərçivədən kənarda təsir imkanlarına malik "orta güc" kimi təsdiqləyib. Son dövrlərdə qazanılan tarixi nailiyyətlərin, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artmasının, dəyişən dünya nizamında mövqeyinin güclənməsində Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara əsaslanan müdrik siyasəti dayanır.

Dövlətimizin başçısının qlobal geosiyasi proseslərin inkişaf meyillərini vaxtında və düzgün qiymətləndirmək bacarığı və qətiyyətli mövqeyi Azərbaycanı mümkün təhdidlərdən qoruyaraq tarixi inkişaf mərhələsinə çıxarıb. Məhz Prezident İlham Əliyevin liderliyi sayəsində ölkəmiz regional lider statusunu aşaraq qlobal miqyasda söz sahibi olan, geosiyasi təşəbbüsləri dəstəklənən və rəyi nəzərə alınan müstəqil güc mərkəzinə çevrilib. Bu uzaqgörən xətt Azərbaycanın həm hərbi-siyasi müstəvidə, həm də diplomatik və iqtisadi sferada davamlı uğurlar qazanmasını təmin edən əsas hərəkətverici qüvvədir.

Bu gün Bakının dəyişən dünya nizamında mövqeyini şərtləndirən mühüm amillərdən biri ölkəmizin qlobal enerji təhlükəsizliyində oynadığı əvəzolunmaz roldur. Dünya bazarında karbohidrogen resurslarına və alternativ enerji mənbələrinə tələbatın kəskin dəyişdiyi, enerji xəritələrinin yenidən çəkildiyi bir şəraitdə Azərbaycan Avropanın və qonşu regionların enerji təminatını müəyyənləşdirən əsas tərəfdaş statusundadır. "Cənub qaz dəhlizi" vasitəsilə Avropa qitəsinin enerji təminatının diversifikasiyasına həlledici töhfə verən Bakı bir çox Avropa dövlətinin enerji təhlükəsizliyinin etibarlı zəmanətçisi kimi çıxış edir. Ənənəvi təbii qaz ixracı ilə yanaşı, bərpaolunan enerji sahəsində həyata keçirilən irimiqyaslı layihələr və "yaşıl enerji" dəhlizlərinin formalaşdırılması istiqamətində atılan addımlar Azərbaycanı gələcəyin qlobal enerji transformasiyasında ön sıralara çıxarır. Beynəlxalq tərəfdaşlar da Azərbaycanın mürəkkəb layihələri vaxtında və müvəffəqiyyətlə icra etməsini yüksək qiymətləndirirlər.

Nəqliyyat və logistika imkanları da Azərbaycanın qlobal əhəmiyyətini artırır. Mərkəzi Avrasiyanın kəsişməsində, geoiqtisadi məkanda yerləşən ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin təhlükəsiz, səmərəli və etibarlı tranzit mərkəzinə çevrilib. Qlobal tədarük zəncirlərində yaranan qırılmalar və siyasi böhranlar fonunda Azərbaycanın təşəbbüskarı olduğu Orta dəhliz Çin ilə Avropa arasında ən qısa və iqtisadi baxımdan əlverişli ticarət marşrutu kimi özünü tam doğruldub. Regionda nəqliyyat kommunikasiyalarının açılması çərçivəsində Zəngəzur dəhlizinin (TRIPP) reallaşdırılması bütövlükdə Avrasiya məkanının nəqliyyat və ticarət xəritəsini köklü şəkildə dəyişmək gücünə malikdir. Bakı müasir dəniz limanları, dəmir yolları, beynəlxalq hava limanları və avtomobil magistralları şəbəkəsi ilə şərqlə qərb, şimalla cənub arasında dayanıqlı və fasiləsiz körpü rolunu oynayır.

Dünyada müxtəlif güclər arasında qarşıdurmanın dərinləşdiyi zamanda fərqli qütblərin Bakı ilə tərəfdaşlıqda maraqlı olması Azərbaycanın xarici siyasətinin böyük uğurudur. Qərb, şərq, şimal və cənub mərkəzləri ilə bərabərhüquqlu, qarşılıqlı hörmətə və maraqlara söykənən dialoq quran ölkəmiz beynəlxalq arenada etibarlı, prinsiplərinə sadiq və proqnozlaşdırılan tərəfdaş imicini möhkəmləndirib. Avropa İttifaqı rəhbərlərinin, aparıcı qitə dövlətlərinin liderlərinin və digər yüksəksəviyyəli rəsmilərin ölkəmizə mütəmadi səfərləri, imzalanan strateji tərəfdaşlıq sazişləri praqmatik siyasətin bariz göstəricisidir. Bakı heç bir blokun təzyiqinə və ya diktəsinə məruz qalmadan öz milli maraqlarını qətiyyətlə müdafiə edir. Eyni zamanda müxtəlif tərəflər arasında mediator, barışdırıcı və birləşdirici mövqe nümayiş etdirir.

Ölkəmizin artan beynəlxalq nüfuzunun və diplomatik gücünün digər mühüm göstəricilərindən biri Azərbaycanın qlobal miqyaslı tədbirlər, mötəbər forumlar və beynəlxalq platformalar üçün əsas məkanlardan birinə çevrilməsidir. Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə bəşəri maraqları, təşkilatın inkişafını və peyvənd ədalətsizliyi kimi qlobal problemləri müdafiə edən Bakı çoxtərəfliliyin və həmrəyliyin mərkəzi kimi tanınıb. Nüfuzlu beynəlxalq sammitlərə, COP29 kimi qlobal iqlim konfranslarına, Bakı Qlobal Forumu kimi intellektual müzakirə platformalarına evsahibliyi etməsi ölkəmizin yalnız iqtisadi və siyasi deyil, həm də qlobal ideyalar, həll yolları və təşəbbüslər generatoru olduğunu sübut edir. Müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dialoqların kəsişmə nöqtəsi olan Bakı mühüm qərarların müzakirə edildiyi və qəbul olunduğu mərkəz statusunu hər keçən gün daha da möhkəmləndirir.

Azərbaycanın artan geosiyasi çəkisini və milli gücünü şərtləndirən önəmli amillərdən biri də iqtisadi müstəqilliyin tam təmin edilməsi və hərbi potesialın davamlı olaraq modernləşdirilməsidir. Müasir standartlara cavab verən güclü ordu quruculuğu, müdafiə sənayesinin inkişafı və təhlükəsizlik sisteminin möhkəmləndirilməsi Azərbaycanı regionda hərbi-strateji balansın əsas tənzimləyicisinə çevirib. Siyasi iradə, iqtisadi suverenlik və hərbi qüdrət Bakının beynəlxalq arenada irəli sürdüyü təşəbbüslərin arxasında dayanan ən böyük təminatdır.

Bütün bu faktlar, həyata keçirilən genişmiqyaslı strategiya və əldə olunan tarixi uğurlar bir daha göstərir ki, dəyişən dünya nizamında Azərbaycanın tutduğu yüksək mövqe dərin zəkanın və ardıcıl siyasi iradənin qanunauyğun nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq hüququn aliliyini real müstəvidə bərpa edərək regional münaqişələrin həllində yeni presedent yaratdı, öz gücü hesabına tarixi ədaləti təmin etdi. Bu gün ölkəmiz Cənubi Qafqazda dayanıqlı sülhün, təhlükəsizliyin və tərəqqinin əsas memarı kimi çıxış edir. Azad edilən torpaqlarımızda sürətlə icra olunan "Böyük qayıdış" proqramı, quruculuq işləri, müasir nəqliyyat-logistika infrastrukturu Azərbaycanın daxili gücünü və gələcəyə hesablanmış inkişaf modelini bütün dünyaya nümayiş etdirir.

Nəticə etibarilə qeyri-müəyyənliklərin, böhranların və ziddiyyətlərin hökm sürdüyü dünyada Bakı özünün prinsipiallığı, sülhməramlı təşəbbüsləri və birləşdirici rolu ilə etibarlı və qüdrətli bir dövlət kimi mövqeyini daha da sarsılmaz edir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Bakının sülh gündəliyi dəyişməz reallıqdır

## İrəvan anklavlar da daxil bütün öhdəliklərini yerinə yetirməyə məcburdur

Regionda formalaşan yeni hərbi-siyasi reallıqlar Ermənistan rəhbərliyini uzun illər boyu davam edən illüziyalardan, puç xəyallardan imtina etməyə məcbur buraxdı. Nəticədə rəsmi İrəvan Bakının sülh gündəliyinin alternativinin olmadığını qəbul etdi. Bu baxımdan Ermənistan baş naziri Nikol Paşinyanın son günlərdə anklav kəndlərimiz - Kərki, Yuxarı Əskipara, Sofulu və Barxudarlı ilə bağlı açıqlamaları, bu kəndlərin geri qaytarılmasının zərurətindən danışması Ermənistan rəhbərliyinin xoş məramı yox, Bakının yaratdığı məcburedici reallıqların nəticəsidir.

Azərbaycan Ermənistanı addım-addım sülhə məcbur edir. Nikol Paşinyan anlayır ki, Bakının şərtlərinin qəbul edilməməsi, prosesin bəhanələrlə yubadılması, yenidən revanşizmə qapılmaq Ermənistan üçün fəlakətli aqibət deməkdir. Məhz bu səbəbdən baş nazir erməni toplumuna dəyişməz reallığı izah etməyə çalışır, onları revanşist müxalifətə, kilsə və kənar güclərin təbliğatına inanmamağa səsləyir. İrəvan hökuməti fərqindədir ki, yekun sülh və sərhədlərin dəqiqləşdirilməsi ilk növbədə dövlətçilik böhranı yaşayan Ermənistan üçün həyati əhəmiyyət kəsb edir.

Baş nazirin anklavlar məsələsini mütəmadi gündəmə daşıması Ermənistanın bir ölkə kimi mövcudluğunu qorumaq və beynəlxalq müstəvidə sərhədlərinin tanınmasına nail olmaq cəhdləridir. Ona görə də Paşinyan açıq şəkildə bildirir ki, Azərbaycanın suveren torpaqlarını işğal altında saxlamaq Ermənistanın təhlükəsizliyinə xidmət etmir, əksinə, ölkəni zərbə altında qoyur: "Ermənistan özünün suveren ərazisinin olduğunu bəyan edirsə və paralel olaraq başqasının torpağını əlavə etməyi düşünürsə, beynəlxalq legitimlik çərçivəsindən kənara çıxır və qarşı tərəfə özünə qarşı hərəkətlər həyata keçirmək üçün əsaslar yaradır".

Bu fikirlər göstərir ki, İrəvan hökuməti Azərbaycanın gücü və beynəlxalq legitimliyi qarşısında başqa yolunun olmadığını, ordunun yalnız öz hüquqi sərhədləri çərçivəsində qala biləcəyini qəbul etmək məcburiyyətindədir. Başqasının torpağına göz dikmək Azərbaycanın öz hüquqlarını bərpa etməsi üçün növbəti dəfə tam legitim və əzici addımlar atmasına şərait yaradır.

Paşinyan bu riskin nə demək olduğunu yaxşı bilir və 1991-ci il Almatı Bəyannaməsini və ölkəsinin daxili qanunvericiliyini əsas gətirərək, Ermənistan SSR-in 29 743 kvadratkilometrlik ərazisini xatırladır. O, Kərki və digər anklavların bu əraziyə aid olmadığını etiraf edərək məsələni belə əsaslandırır: "Kərki ilə bağlı söhbətlər də bununla əlaqəlidir. Biz deyirik ki, Almatı Bəyannaməsi delimitasiya və demarkasiya məsələsində fundamental prinsipdir. Bu, Ermənistan ərazisinin hələ 2018-ci ildən əvvəl Ermənistan tərəfindən tanınmış Ermənistan SSR ərazisi ilə tam eyniliyini nəzərdə tutur. Kərkini buna qatmaq cəhdləri suverenlik məntiqindən kənara çıxmaqdır".

Əlbəttə, rəsmi İrəvan onun da fərqindədir ki, anklavlar məsələsi Azərbaycan üçün müzakirəolunmaz prinsipial mövqedir və Bakının tələbi ilə həmin kəndlər mütləq şəkildə öz həqiqi sahibinə - Azərbaycana qaytarılacaq. Praktiki baxımdan bu məsələ iki ölkə arasında fəaliyyət göstərən sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiyaların birgə işi çərçivəsində həllini tapacaq. Çünki 2022-ci il Praqa razılaşması ilə Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü və suverenliyini qarşılıqlı olaraq tanıyıb.

Anklav kəndlərin Azərbaycana qaytarılması sülh prosesinin tərkib hissəsidir. Ermənistan rəhbərliyi Bakının iradəsi qarşısında bu reallığı etiraf edir və erməni ictimaiyyətinə qəbul etdirməyə çalışır. Lakin bu öhdəliklərin kağız üzərində qalmaması üçün öncəlik Ermənistan hökumətinin Bakının haqlı və qətiyyətli tələbini yerinə yetirməsidir. İrəvan ilk növbədə öz konstitusiyasında və digər normativ-hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarını əks etdirən müddəaları birdəfəlik ləğv etməlidir. Hüquqi müstəvidə ərazi iddiaları ləğv edilmədən yekun sülh müqaviləsindən söhbət gedə bilməz. Anklav kəndlər məsələsi hüquqi zəmin tam formalaşdıqdan sonra, yəni növbəti mərhələdə həll edilə bilər.

Regionda qalıcı sülhün və davamlı sabitliyin bərqərar olunması üçün İrəvanın yeganə çıxış yolu Bakının sülh gündəliyini bəhanəsiz qəbul etməkdir. Paşinyan və komandası anlamalıdır ki, Azərbaycanın diktə etdiyi sülh şərtlərinə qarşı çıxmaq və revanşist meyilləri davam etdirmək Ermənistanı uçuruma yuvarlamaqdır. Ermənistan iqtidarı ölkə daxilində sülh prosesini pozmağa çalışan qüvvələrin, kilsə xadimlərinin və regionda gərginliyi saxlamaqda maraqlı olan xarici havadarların təxribatçı fəaliyyətlərini neytrallaşdırmağa məcburdur. Sülh ilk növbədə Ermənistanın gələcək mövcudluğu üçün labüddür.

***İ.QOCAYEV,***
***"Azərbaycan"***

# Yeni dövlət proqramı dağ-mədən sənayesinin inkişafında növbəti mərhələnin yol xəritəsi olacaq

**Son** vaxtlar ölkə iqtisadiyyatını gücləndirəcək, eyni zamanda vətəndaşların sosial vəziyyətini və onları müasir infrastrukturla təmin edəcək daha bir neçə dövlət proqramı qəbul olunub. Qəbul edilmiş proqramlar arasında  üç əsas istiqamətə həsr olunanlar xüsusi önəm daşıyır. Bunlar kənd təsərrüfatına, nəqliyyata, su təsərrüfatına - həm meliorasiya, həm Bakı və Abşeron yarımadasının su təminatına dair dövlət proqramlarıdır.

Sentyabrın 22-də isə Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"na həsr olunmuş müşavirə keçirilmişdir. Bu, ölkə iqtisadiyyatı üçün çox perspektivli sahədir və bununla bağlı dövlət proqramının hazırlanması üçün Prezident İlham Əliyev hələ aprel ayında müvafiq sərəncam imzalamışdır. Sözügedən müşavirədə də dövlətimizin başçısı bu sahənin  ölkə iqtisadiyyatı üçün, xüsusilə qeyri-neft sektorunun inkişafı üçün böyük əhəmiyyət daşıdığını, çox perspektivli olduğunu vurğulamışdır. Qeyd etmişdir ki, bu, maliyyətutumlu sahə olsa da, ölkəmizdə yeni, müasir sənaye istiqaməti yaradacaq.

Bütövlükdə təbii resurslarımızın işlənməsi və onlardan səmərəli şəkildə istifadə olunması, eyni zamanda istehsal zəncirinin tam yaradılması ölkə iqtisadiyyatını daha da gücləndirəcək.

Yeni proqram həmçinin regionların sosial-iqtisadi inkişafına dair gündəliyimizi əks etdirir. Necə ki, indiyədək qəbul edilmiş proqramlarda bölgələrin inkişafı xüsusi yer tutub. Hazırda ölkəmizdə qazlaşmanın səviyyəsi 96 faizdir və 25 milyard kubmetrdən çox qaz ixrac edirik. Elektrik enerjisi ilə bağlı bütün məsələlər həll olunub. Bu gün ölkədə ehtiyat generasiya gücləri kifayət qədər böyükdür. Hətta müəyyən həcmdə elektrik enerjisi ixrac edilir.

Digər infrastruktur layihələri də uğurla həyata keçirilib və bu proses davamlıdır. Xəstəxanalar və məktəblər tikilib, avtomobil və dəmir yolları çəkilib, hava limanları inşa edilib. Qeyri-neft sektorunun inkişafını o cümlədən bu infrastruktur layihələri də şərtləndirir.

"Yəni qeyri-neft sənayesi sahəsində biz yaxşı nəticələr göstəririk və o cümlədən qəbul edilmiş proqramlar bu artımı daimi və uzunmüddətli edəcək. Əfsuslar olsun ki, Azərbaycanda dağ-mədən sənayesi həm obyektiv, həm subyektiv səbəblərə görə lazımi səviyyədə inkişaf etməyib. Obyektiv səbəblər ondan ibarətdir ki, sovet vaxtında aşkar edilmiş bizim bir çox yataqlarımız işğal altında olan bölgələrdə yerləşirdi və Ermənistan dövləti öz işğalçılıq siyasətini, o cümlədən Azərbaycan xalqının və dövlətinin təbii resurslarını talamaqda da davam etdirirdi. Təkcə onu demək kifayətdir ki, işğal dövründə Kəlbəcər, Laçın və Zəngilan rayonlarında 60 min hektar meşə fondu Ermənistan dövləti tərəfindən məhv edilib, talan edilib, kəsilib, satılıb və artıq İkinci Qarabağ müharibəsindən sonra yandırılıb, o müddətdə ki, erməni silahlı qüvvələri Kəlbəcər və Laçın rayonlarından çıxmalı idi, orada onlara 2-3 həftə vaxt verilmişdi," - deyə Prezident İlham Əliyev sözügedən müşavirədə bunları bir daha xatırladıb.

İşğal dövründə təbii resurslarımız - qızıl, mis, molibden yataqlarımız da talan edilirdi. Ona görə də indi bu sərvət öz geoloji kəşfiyyat dövrünü gözləyir. İlk  növbədə gündəmdəki işğaldan azad edilmiş ərazilərdə istismarda olan yataqların tezliklə işə salınması məsələləridir. Bunlar Kəlbəcər, Ağdərə və Zəngilan rayonlarında yerləşən qızıl, mis, molibden yataqlarıdır. Ağdərə rayonunda artıq işlərə start verilib.



İqtisadiyyat naziri Mikayıl Cabbarov tədbirdəki çıxışında bildirmişdir ki, proqramın əsas məqsədləri sadədir: bu, daha çox xammal hasil etmək deyil, bu, xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır: "Proqram bu məqsədə çatmaq üçün əsas istiqamətləri müəyyən edir. Bunlar mineral xammal bazasının genişləndirilməsi, mövcud istehsal güclərinin artırılması və yeni layihələrin həyata keçirilməsidir. Dəmir filizi, alüminium, mis və qızıl əsas istiqamətlərdir. Eyni zamanda yeni yataqların iqtisadi dövriyyəyə cəlb edilməsi nəzərdə tutulur. Biz əsas istiqamətlərdir dedikdə, bu gün sübut edilmiş, istismarda olan yataqlara əsaslanırıq. Eyni zamanda həm ilkin geoloji tədqiqatlar, həm bu gün əlimizdə olan məlumatlar və gələcək işlər bu siyahının genişlənəcəyinə bizdə əminlik hissi yaradır".

Proqramın icrasında dövlətin tənzimləyici və dəstəkləyici rolu ilə yanaşı, dövlət müəssisələrinin və özəl sektorun investisiya imkanlarından da istifadə olunacaq. Ümumiyyyətlə, proqramın əsas hədəfləri kifayət qədər böyükdür: 2030-cu ilədək dağ-mədən və metallurgiya sektorunun ümumi daxili məhsula töhfəsinin 700 milyon manatdan 1,8 milyard manata, illik ixrac potensialının isə 1,3 milyard manatdan 2025-ci ilin orta dünya qiymətləri əsasında 3,4 milyard manata çatdırılması nəzərdə tutulur. 2027-2030-cu illərdə həmin nəticələrin əldə edilməsi üçün bu dövr ərzində ümumilikdə 5,3 milyard manat investisiya nəzərdə tutulur.

Müşaviədə o fikir də səsləndirilmişdir ki, Azərbaycanın mineral resurslarından daha yüksək dəyər yaratmaq üçün böyük imkanları var. Bunun bir yolu mövcud emal proseslərini təkmilləşdirmək və daha yüksək emal səviyyəli məhsullar istehsal etməkdir. Digər istiqamət isə yeni kəşfiyyat işlərinin aparılmasıdır. Odur ki, yeni ehtiyatlar müəyyənləşdirilməlidir. İqtisadi cəhətdən səmərəli olan yataqlar mərhələli şəkildə sənaye dövriyyəsinə daxil edilməlidir.

Müşavirədə "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zakir İbrahimov 2015-ci ildə dövlət başçısının sərəncamı ilə yaradılan bu qurumla Azərbaycanın dağ-mədən sənayesinin yeni inkişaf mərhələsinin əsası qoyulduğunu xatırlatdı. Ötən illərdə görülən işlər barədə məlumat verdi. Cari ildə isə "AzerGold" Qafqazın ən böyük qızıl yataqlarından biri olan "Söyüdlü" yatağında - "Zod" yatağında fəaliyyətə başlayıb.

Beləliklə, Davos Ümumdünya İqtisadi Forumunda dağ-mədən sənayesinin xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun şaxələndirilməsi baxımından iqtisadiyyatımızın əsas prioritet sahələrindən biri kimi qeyd edilməsi sektorun inkişafı üçün yeni imkanlar yaradır. 2027-ci ildən icrasına başlanması nəzərdə tutulan dövlət proqramı isə dağ-mədən sənayesinin inkişafında növbəti mərhələnin əsas yol xəritəsi olacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Dəyişən dünyanın ritmində Dördüncü Sənaye İnqilabı

**D**ördüncü Sənaye İnqilabı (4Sİ) müasir dövrdə texnologiyanın, iqtisadiyyatın və cəmiyyətin inkişafını köklü şəkildə dəyişdirən qlobal proseslərdəndir. Süni intellekt, robototexnika, bulud texnologiyaları və digər texnoloji yeniliklərin sürətlə inkişaf etməsi ölkələrin rəqabət qabiliyyətinə və sosial-iqtisadi inkişafına birbaşa təsir göstərir. Bunlara uyğunlaşmaq və yeni imkanlardan səmərəli istifadə etmək dövlətlər qarşısında bir sıra vəzifələr qoyur.

Texnologiyanın sərhədləri sürətlə dəyişdirdiyi, rəqəmsal dünyanın həyatın demək olar ki, bütün sahələrinə nüfuz etdiyi bir dövrdə gələcəyin sınaqlarına hazır olmaq indi seçim deyil, daha çox zərurətdir. Süni intellekt, yeni nəsil rəqəmsal infrastruktur dünyanı görünməmiş sürətlə dəyişir. Dəyişimin mərkəzində isə innovasiya, çeviklik və yeni imkanları zamanında dəyərləndirmək bacarığı dayanır. Bu baxımdan Azərbaycan da həmin qlobal dəyişimin ritmini yaxından izləyən və yeni texnoloji reallıqlara uyğunlaşmaqla yanaşı, onun formalaşmasında fəal iştirak etməyə çalışan ölkələr sırasındadır.

Həmin istiqamətdə həyata keçirilən mühüm addımlardan biri 2021-ci il yanvarın 6-da Prezident İlham Əliyevin imzaladığı fərmanla Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) yaradılmasıdır. 4SİM-in fəaliyyətinin əsasını yeni texnologiyaların izlənilməsi, onların yaratdığı imkanların müəyyənləşdirilməsi  və ondan səmərəli istifadə təşkil edir. Mərkəz Azərbaycanın Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığını və əlaqələndirməni həyata keçirir, rəqəmsal iqtisadiyyatın qarşısında dayanan problemləri, yeni təşəbbüsləri, strategiyaları və layihələri təhlil edir. Bununla da 4SİM ölkəmizin qlobal texnoloji transformasiya proseslərində daha fəal iştirakına, qabaqcıl təcrübələrin öyrənilməsinə və yeni imkanların ölkə daxilində tətbiqinə zəmin yaradır.



Əslində, bu hekayənin başlanğıcı  2020-ci il yanvarın 21-də İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumuna (DİF) gedib çıxır. Həmin gün Prezident İlham Əliyev və DİF prezidenti Borge Brende arasında forumun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalandı. Bu sənəd Azərbaycanın qlobal texnoloji gündəlikdə daha fəal yer tutması istiqamətində atılan vacib addımlardan biri oldu.

Ardınca DİF-in 4SİM şəbəkəsinin Azərbaycan Mərkəzi fəaliyyətə başladı. MDB məkanında bu şəbəkənin ilk mərkəzinin məhz Azərbaycanda yaradılması ölkəmizin innovasiya və texnoloji inkişaf sahəsində beynəlxalq əməkdaşlığa verdiyi əhəmiyyətin göstəricisi kimi  diqqət çəkdi. 2021-ci il aprelin 1-dən etibarən 4SİM artıq Azərbaycan Mərkəzinin fəaliyyətini də koordinasiya etməyə başladı. Bu addım Azərbaycanın texnoloji inkişaf və innovasiyalar sahəsində fəaliyyətini daha çox genişləndirməsinə imkan yaratdı. Bu, dəyişən dünyanın imkanlarını vaxtında görmək, onları milli inkişaf məqsədləri ilə uzlaşdırmaq və gələcəyin texnologiyalarında bu gündən söz sahibi olmaq cəhdidir.

Unutmaq olmaz ki, texnoloji transformasiyanın uğuru həmin texnologiyalardan istifadə edə biləcək bilikli, çevik və daim yenilənən insan kapitalının formalaşdırılmasından keçir. Çünki rəqəmsal dünyanın ən böyük sərvəti yalnız məlumat və texnologiya deyil, onları dəyərə çevirə bilən insan potensialıdır. Məhz buna görə də 4SİM-in fəaliyyətində insan kapitalının inkişafı, müasir bilik və bacarıqların təşviqi, ömürboyu öyrənmə imkanlarının genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Müasir əmək bazarının dəyişən tələblərinə cavab verən bacarıqların formalaşdırılması və yeni nəsil mütəxəssislərin yetişdirilməsi istiqamətində həyata keçirilən təşəbbüslər 4SİM-in texnoloji transformasiya gündəliyinin mühüm istiqamətlərindən birini təşkil edir. Belə təşəbbüslər arasında "4Sİ Akademiyası - Milli Proqram" xüsusi yer tutur. Proqram rəqəmsal iqtisadiyyatın inkişafı ilə insan kapitalının inkişafını eyni müstəvidə birləşdirir, vətəndaşlara müasir biliklərə çıxış və öz bacarıqlarını yeni tələblərə uyğun inkişaf etdirmək imkanı yaradır.

Bir neçə gün əvvəl "Baku ID 2026" innovasiya festivalı çərçivəsində "4Sİ Akademiyası - Milli Proqram"ın nəticələrinə həsr olunan mükafatlandırma mərasiminin keçirilməsi real göstəricidir.  İqtisadiyyat Nazirliyinin tabeliyində 4SİM-in strateji tərəfdaş olduğu festival çərçivəsində proqramın birinci mərhələsinin nəticələri təqdim olunub.

Tədbirdə "Milli Proqram" üzrə 12 nominasiyada fərqlənən iştirakçı "Üstün nailiyyət" sertifikatı və hədiyyələrlə təltif olunub. Nominasiyalar ömürboyu öyrənmə və özünüinkişaf, karyerada yüksəliş, regionlarda istedadların dəstəklənməsi, sahibkarlıq və startap fəaliyyəti, innovasiyada qadınların iştirakı və biliklərin paylaşılması kimi istiqamətləri əhatə edib.

Qeyd edək ki, "4Sİ Akademiyası - Milli Proqram" 4SİM, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və ABŞ-nin "Coursera" şirkəti ilə birgə həyata keçirilir. Proqramın məqsədi rəqəmsal iqtisadiyyatın inkişafına töhfə vermək, rəqabətli insan kapitalının formalaşdırılmasını dəstəkləmək və əmək bazarının müasir tələblərinə uyğun bacarıqların inkişafına imkan yaratmaqdır. Bu çərçivədə vətəndaşlara "Coursera" platformasında 21 mindən çox təlimdən ödənişsiz yararlanmaq imkanı təqdim olunur.

Proqram dövlət və özəl sektor tərəfdaşlığı əsasında həyata keçirilir. "PASHA Holding", SOCAR, BP, "Azerconnect Group", "TotalEnergies", XRG, JOCAP, "Norm Sement", "Smart Solutions Group" və "B2B Group" proqramın əsas mərhələsinin tərəfdaşları sırasında yer alır. Çünki gələcəyi həmin texnologiyalara yol göstərən insanlar qurur. Bu gün formalaşan bilik və bacarıqlar sabahın ideyalarına, ideyalar isə Azərbaycanın daha innovativ, rəqəmsal və güclü gələcəyinə çevrilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin oktyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 5 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 8 |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 7 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 1 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 6 |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 12 |
| **Zahid  Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 19 |
| **Sadiq Haqverdi  oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 27 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 20 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 23 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 14 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 21 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 16 |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 28 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 15 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 29 |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 26 |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 22 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr  komitəsinin sədri | 9 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 13 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 9 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 27 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 16 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 23 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 30 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 13 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;**

**Qəbul vaxtı saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqələrini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Ağdam-Xankəndi dəmir yolunda tikinti-quraşdırma işlərinin 48 faizi başa çatdırılıb



Ağdam-Xankəndi dəmir yolu xəttinin bərpası istiqamətində işlər davam etdirilir.

"Azərbaycan Dəmir Yolları" QSC-dən AZƏRTAC-a bildirilib ki, layihə üzrə layihələndirmə işlərinin 90 faizi, tikinti-quraşdırma işlərinin isə 48 faizi başa çatdırılıb.

Layihə çərçivəsində Xankəndidə müasir dəmir yolu və avtovağzal kompleksinin yaradılması da nəzərdə tutulur.

## Tarixi saxtalaşdıranlar

# Alban irsinin dəyişdirilməsi cəhdləri məkrli erməni siyasətinin tərkib hissəsidir



**Son** 40 ildə Cənubi Qafqazda şovinizm meyillərinin güclənməsi və əsassız ərazi iddiaları Ermənistanı Azərbaycan Respublikasına qarşı etnik zəmində iki dəfə müharibəyə sövq etmişdir. Nəticədə təkcə erməni din xadimləri tərəfindən uydurulmuş "Böyük Ermənistan" ideologiyası iflasa uğramaqla qalmamış, həmçinin Ermənistanın bəzi xarici havadarlarının Qafqaz regionu ilə bağlı geostrateji planları alt-üst olmuşdur. Qədim dövrlərdən bu günədək Qafqazın tarixində dərin iz qoymuş Azərbaycan xalqı döyüş meydanında cəmi 44 gün ərzində haqlı mövqeyini sübut etmişdir. Qarabağ həm də qətiyyət nümayiş olunan döyüş meydanı olmuşdur.

Müharibə başa çatsa da, qarşı tərəfin təxribat əməlləri hələ də davam etməkdədir. Bu təxribatların ən mühüm istiqamətlərindən biri Azərbaycanın qədim tarixi torpağı olan Qarabağdakı Alban irsi ilə bağlıdır. Əslində, bu məsələ ilk baxışdan göründüyü kimi, yalnız tarixi keçmişin müzakirəsi ilə məhdudlaşmır. Ermənistanın şovinist dairələri Qarabağ müharibəsində məğlub olduqdan sonra yeni bir strategiyaya əl atmış, Qafqaz Albaniyasının xristian irsinə sahib çıxmaqla saxta tarix yazmağı yenidən aktivləşdirmişlər.

Lakin bu cəhdlər Ermənistanı nəinki Qarabağda, həmçinin Qərbi Azərbaycan ərazisində törətdiyi kultursid siyasətinə görə beynəlxalq məsuliyyətdən azad etmir. Alban irsinin konfessional və etnik identikliyinin dəyişdirilməsinə yönələn təşəbbüslər də məhz bu məkrli siyasətin tərkib hissəsidir.

Qərbi Azərbaycanın və Qarabağın tarixi keçmişi Qafqaz Albaniyası ilə sıx bağlıdır. Bu bağlılıq arxeoloqların, qədim dillər və qədim dövr tarixi ilə məşğul olan tədqiqatçıların araşdırmaları ilə bir daha sübut olunur. Amma burada ən vacib məsələ tədqiqatçının etibarlı, ciddi və təkzibolunmaz dəlillərə əsaslanmasıdır. Qafqaz Albaniyasının tədqiq edilməsində ən mühüm yanlışlıq bu dövlətin qədim tarixinin və mədəniyyətinin müasir sərhədlər kontekstində araşdırılmasıdır. Bu yanaşma SSRİ dövründə erməniəsilli tədqiqatçıların albanşünaslığa vurduğu ən böyük zərbədir. Qədim tarixi müasir sərhədlər daxilində öyrənmək, əslində, onu təhrif etmək və saxtalaşdırmaq deməkdir. Halbuki həm arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş artefaktlar, yerüstü tarixi-mədəni və dini abidələr, həm də yazılı mənbələrdə əks olunmuş məlumatlar bu saxtakarlığı ifşa edir. Digər mühüm bir fakt isə 1920-ci ildə Qərbi Azərbaycan ərazisində Ermənistan SSR yaradıldıqdan sonra erməni şovinistlərinin saxtakarlıq əməllərinin geniş vüsət almasıdır. Bundan sonra Qərbi Azərbaycan ərazisinin uydurma "Böyük Ermənistan"ın tərkibində olduğunu sübut etmək cəhdləri daha da artmışdır.

Təəssüf ki, Cənubi Qafqaz regionunda ən qədim və ən uzunömürlü dövlət olan Qafqaz Albaniyasının tarixi ilə bağlı bir çox mühüm məsələ hələ də ciddi tədqiqat mövzusu olmayıb. Bunun başlıca səbəbləri Alban abidələrinin bir çoxunun müasir Ermənistan ərazisində yerləşməsi ilə yanaşı, onların əksəriyyətinin məhv edilməsi, qalan az hissəsinin isə hazırda erməni abidələri kimi təqdim edilməsidir.

### Müasir Ermənistan ərazisinin avtoxton sakinləri

Müasir Ermənistan ərazisində ən qədim xristian abidələr Qafqaz Albaniyasının maddi mirasına aiddir. İrəvan şəhərində isə "ən qədim" erməni kilsəsi 1842-ci ildə inşa edilmiş Surb Sarkis kilsəsidir. Erməni din xadimləri tərəfindən bu kilsənin IV əsrdə tikildiyi haqqında rəvayətlər uydurulmuşdur. Digər bir rəvayətə görə, bu kilsə 1679-cu il zəlzələsindən sonra dağılmış, daha sonra erməni-qriqoriyan kilsəsinin rəhbəri I Naapet Edessalının göstərişi ilə yenidən inşa edilmişdir. Lakin gerçək odur ki, 1842-ci ildə inşa edilmiş Surb Sarkis kilsəsi hazırda İrəvanın Kentron rayonunda yerləşir və 1972-ci ildə I Vazgenin tapşırığı ilə bu kilsənin genişmiqyaslı təmiri adı ilə, əslində, "qədim" daş, qum və digər inşaat materialları gətirmək üçün Ani xarabalıqlarından istifadə edilmişdir. Əvvəlcə erməni memarı Rafayel İsraelyan, 1973-cü ildə o öləndən sonra isə Arsrun Qalikyan bu kilsənin bərpası üçün yeni saxtakarlıq planı hazırladılar. Beləliklə, cəmi 53 il öncə Anidən gətirilmiş qədim kilsə daşları (qırmızı tuf daşı) ilə İrəvanda ilk erməni kilsəsi olan Surb Sarkis kilsəsi inşa edilmişdir.

Maraqlıdır ki, İrəvanda erməni kilsəsinin iki əsrə çatmayan tarixi olduğu halda Göyçə, Şörəyel, Ağbaba, Dərələyəz, Vedi, Dərəçiçək və Zəngəzurda Alban irsinin tarixi keçmişi iki minillik dövrü əhatə edir. Bu gün Ermənistanda Qarabağdakı qədim Alban irsinin taleyindən "narahat" olan qüvvələrin yeganə mirası öz xələflərindən qalan vandalizm əməlləridir. Şörəyeldə VII əsrdə inşa edilmiş qədim Qıpçaq kilsəsinin "Arçivəng", Zəngəzurda Ərəfsə və Comərdli kəndləri arasında V əsrdə tikilmiş Qızılkilsə məbədinin bütpərəstlik dövrünün məşhur tanrıçalarından biri olan Anahitin şərəfinə "Tanahat" kimi qondarma adlarla təqdim edilməsi erməni saxtakarlığının bariz nümunəsidir.

Müasir dövrdə Ermənistan adlandırılan Azərbaycanın əzəli qərb torpaqlarında Alban kilsələrinin tarixi xristianlıq dininin meydana gəldiyi ilk əsrdən başlayır. Əslində, Göyçə gölü hövzəsinin Qafqaz Albaniyasının tərkibində olmasını III-V əsrlərə aid Zod qalasında 2011-2015-ci illərdə aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş artefaktlar da sübut edir. Buradakı qəbir abidələrindən götürülmüş insan qalıqlarının nümunələri ilə Qarabağ ərazisindən eyni dövrə aid qəbir abidələrindən aşkar edilən nümunələrin əsasən H, K, mitoxondrial DNT (mtDNA) göstəricilərinin analizi ana xətti ilə qohum tayfalara mənsub olduqları sübut olunmuşdur. Burada qədim Qafqaz xalqlarının etnogenezi məsələsinin gələcəkdə daha dərin, kompleks arxeoloji və multidissiplinar tədqiqatlara cəlb olunmasının bir çox sualı cavablandırmasını da qeyd etmək lazımdır. Qarabağı, Kəlbəcəri, eləcə də digər tarixi Arran vilayətlərini Göyçə gölü hövzəsi ilə əlaqələndirən qədim ticarət yolu bir çox mənbədə də qeyd edildiyi kimi, Qafqaz Albaniyasının paytaxtı Bərdə şəhərindən keçirdi.

*E.ə. VIII əsrin 40-cı illərində Alban ölkəsindən bəhs edən Urartu mixi yazılı kitabəsi (Türkiyə Cümhuriyyəti, Van şəhəri, "Analıkız" kitabəsi)*




### Göyçə mahalı Qafqaz Albaniyasının tərkibində

Alban ölkəsindən ilk dəfə e.ə. VIII əsrin 40-cı illərinin sonlarında Göyçə gölü ətrafına hücum etmiş Urartu hökmdarı II Sardurinin mixi yazılı kitabəsində "Ku-Alban" kimi bəhs edilir. "Analıkız" və ya "Xəzinə qapısı" adlı bu kitabə hazırda Van gölü sahilində hündür qayalıq ərazidə yerləşir. Həmin kitabədə verilən məlumatdan aydın olur ki, Alban ölkəsi Göyçə gölünün cənubunu əhatə edirdi. Urartu dövləti e.ə.IX əsrin I yarısında Şərqi Anadoluda Van gölü hövzəsində əsasən Qafqaz əsilli Hurri aşirət birliklərinin konfederasiyası şəklində meydana gəlmişdir. Urartulular öz dövlətlərini Biainili adlandırırdılar. Onların cənub qonşusu və ən güclü rəqibi olan aşşurlar isə bu dövləti əvvəlcə Uruadri, daha sonra Urartu adlandırmışlar. Urartu mixi yazılı kitabələrində Cənubi Qafqaz ərazisində onlarca tayfa, dağ, çay və müxtəlif yer-yurd adları çəkilsə də, indiyədək məlum olan heç bir Urartu dilində olan mətndə nə hay, nə də erməni adlı toplumdan bəhs edilib.

Müasir Ermənistan ərazisi erməni və ya hay adlanan toplumun qədim yurd yeri deyil. 2700 il əvvəl Urartu hökmdarlarının hərbi səfərlərindən bəhs edən mixi yazılı kitabələr bu faktı bir daha təsdiq edir. Cənubi Qafqazın ən qədim toponimləri e.ə. IX-VII əsrlərə aid Urartu mixi yazılı kitabələrində cüzi dəyişikliyə uğrayaraq, Azərbaycan türkcəsində olduğu kimi qorunub saxlanmışdır. Urartu mixi yazılı kitabələrində Loru mahalının adı "Lueru", Uti ölkəsinin adı "Etiu", Alban ölkəsinin adı "Ku-Alban", Şəmşəddil mahalında Alatala qışlağının adı "Alate", Aşquz (İşquz/İskit) ölkəsinin adı "İşkiqulu", Gərni qalasının adı "Giarni(ani)", Şörəyel mahalında Yörük (Qarapapaq tərəkəmə türkləri) obası "Erekua", Göyçə gölünün şimal-qərbində qədim Yellicə kəndi və obası (Çəmbərək rayonu Ağbulaq kəndi yaxınlığında qədim yurd) "Ueliku", Qərbi Zəngəzurda Zabazadur kəndi (Qarakilsə rayonu ərazisində ermənilər tərəfindən dağıdılmış qədim yurd) "Zabahe", Urud kəndi "İrdua", İrmis kəndi "Amuşa", Cul obası "Çuluku", Göyçə gölünün qərbində Üştəpə (Üçqaya) "Uşkiya", Loru mahalında Qursalı kəndi yaxınlığında Kəmərli dağı, Qəmərli adlı kəndlər "Gamirra", Gorus qalasının adı "Guria", Zəngi çayının sol sahilində Aşağı Axta kəndi yaxınlığında qədim Ulaş (Üləşik) obası "Luşa", Dərələyəz mahalında Sallı kəndi "Şila", Zəngi çayının aşağı hövzəsində yerləşən Uluxanlı kəndinin adı "Ulua(ne)" kimi əks olunmuşdur. 1930-1950-ci illərdən etibarən Ermənistan SSR-in hakim dairələri bu qədim yer-yurd adlarını saxta adlarla əvəz etməyə başlamışdır.

### Qərbi Azərbaycan ərazisində Türk-Alban xristian mirası

Qafqaz Albaniyasının xristian mirasının daha çox dağıntıya məruz qaldığı ərazi Qərbi Azərbaycan (müasir Ermənistan) ərazisidir. Azərbaycan Respublikasında isə multukultural dəyərlərin yüksək inkişafı, həmçinin tarixi və mədəni abidələrə həssas münasibətin və dövlət qayğısının göstərilməsi nəticəsində respublikamızın ərazisində yerləşən Alban xristian abidələrinin qorunması və restavrasiyası istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir. Zəngəzur, Dərələyəz, Loru, Göyçə və Şörəyeldə Alban dini abidələrinin həm memarlıq üslubu, həm də epiqrafik mətnləri ciddi dağıntılara məruz qalmışdır. Erməni vandalizminin başlıca hədəfi yerli türk boylarına aid olan tarixi və mədəni abidələri məhv etmək olmuşdur. Burada Qıpçaq boylarının adına "arçi, arçu (aruç), hartes və harteş" şəklində bir sıra yer-yurd adlarında, tarixi və mədəni abidələrin adlarında rast gəlmək olar.

Hamamlıda (Əştərək) və Şörəyeldə Qıpçaq kilsələri erkən Orta əsrlər dövründən başlayaraq geniş yayılmışdır. Şörəyeldə əsrlər boyu Kıpçakavəng (Qıpçaq kilsəsi) adı ilə tanınan monastır kompleksi XIX əsrdə ermənilərin bu ərazidə məskunlaşdırılmasından sonra ermənicə saxta Ariçavəng adı ilə əvəz edilmişdir. Əslində, bu söz də türkcə qardaş sözünün ermənicə "xartiç/artiç" şəklində tələffüzündən qaynaqlanır. Hamamlıda da Aruç kilsəsinin adı məhz Qıpçaq boyunun adı ilə izah olunur.

*(Ardı var)*

***Ramin ƏLİZADƏ,***
***AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi***

# Erməni saxtakarlığı dünyada ifşa olunur

## Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr Azərbaycanın tarixi-mədəni sərvətidir



Tarixin təhrif olunması, başqa xalqların maddi-mədəni irsinin mənimsənilməsi və qondarma iddialarla torpaq iddialarının əsaslandırılması əsrlər boyu erməni ideologiyasının ana xəttini təşkil edib. Ermənilərin Qafqaz Alban irsinə saxta iddiaları da bu qəbildəndir.

Lakin Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən diplomatiya və dövlət strategiyası bu uydurma iddiaları darmadağın edərək erməni yalanlarını beynəlxalq səviyyədə tamamilə ifşa edir.

Bu strategiyanın və aparılan fundamental elmi-siyasi işlərin başlıca məqsədi milli sərvətimiz olan Qafqaz Albaniyasının zəngin irsini qorumaq və onu dünya ictimaiyyətinə ilkin mənbələr əsasında obyektiv şəkildə təqdim etməkdir.

### Tarix olduğu kimi

Hələ işğal dövründən çox-çox əvvəl Qafqaz Albaniyasının və Alban kilsəsinin irsinə göz dikən ermənilər bölgədəki varlıqlarını əsaslandırmaq və Azərbaycan torpaqlarına iddialarını gücləndirmək üçün çoxsaylı saxtakarlığa əl atıblar.

Təkcə Qarabağ və Şərqi Zəngəzurda 200-ə qədər Alban məbədi, monastr, Alban xristian kilsəsi ilə bağlı tarixi yerlər mövcuddur. Qafqaza gəlmə xalq olduqlarını örtbasdır etmək üçün hiyləgər ermənilər bu zəngin irsə sahib çıxmaq istəyirdilər. Buna görə də həm işğal dövründə, həm də ondan əvvəl bu irsi özlərininki kimi təqdim etmək üçün Qafqaz Albaniyasının və Alban kilsəsinin irsinə aid olan bir çox şeyi mənimsəyib və beynəlxalq səviyyədə bunu erməni irsi kimi tanıtmağa çalışıblar.

Tarixi faktlar isə təkzibedilməzdir. Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində Prezident İlham Əliyev də məlumat verdi ki, Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir: "Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik".

Qafqaz Alban irsi ermənilərin saxta iddialarının qarşısında sözün əsl mənasında keçilməz səddir. Erməni təbliğatını dəlillərlə və təkzibedilməz faktlarla çürüdən əsas canlı mənbə Qafqaz albanlarının birbaşa dini və soy-kök varisləri olan Udi xalqıdır. XIX əsrdən başlayan təzyiqlərə baxmayaraq, öz ana dilini, adət-ənənələrini və dini kimliyini qoruyub saxlayan udilər Azərbaycanın köklü aborigen xalqı kimi bu torpaqlara bağlıdırlar.

Bir müddət əvvəl "Azərbaycan" qəzetinə müsahibəsində Alban-Udi dini icmasının rəhbəri Robert Mobili də Kəlbəcərdə Xudavəng məbədini ziyarəti zamanı xeyli erməni saxtakarlığı ilə üzləşdiyini demişdi: "Baxdım ki, ermənilər məbədi "bərpa" etmək adı ilə memarlıq üslubunu dəyişiblər, tamamilə saxtalaşdırıblar. Monastırın girişində sağ və solda təzə daşlar qoyub üzərinə erməni xaçı yapışdırıblar. Amma dünya tarixində belə bir fakt yoxdur ki, kilsənin girişində hər daşın üzərində xaç olsun. Buna vandalizmdən başqa ad vermək olmaz".

### Bu irsin müdafiəsi, araşdırılması akademik və diplomatik prioritetdir

Azərbaycan dövləti hər zaman Qafqaz Alban irsinin qorunmasına xüsusi diqqət yetirib. 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib və Alban Udi dini icmasının istifadəsinə verilib. Nicdə yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsinin bərpa işləri isə 2020-ci ildə pandemiyaya, 44 günlük müharibənin başlamasına baxmayaraq davam etdirilib, açılışı da elə həmin il noyabrın 7-də olub.

Bu gün Qafqaz Albaniyasının dini varisləri olan udilər öz müqəddəs bayramlarını və ibadətlərini işğaldan azad edilmiş torpaqlarda, müqəddəs məbədlərində edirlər. Bu gerçəklik Alban irsinin ermənilərlə heç bir aidiyyətinin olmadığını bir daha sübut edir.

Qafqaz Albaniyası irsinin müdafiəsi və araşdırılması artıq həm akademik, həm də diplomatik prioritetə çevrilib. Qərbi Azərbaycan İcmasında indiki Ermənistan ərazisində, tarixi Zəngəzur, Dərələyəz və Göyçə gölü hövzəsində yerləşən alban xristian irsinin öyrənilməsi məqsədilə İşçi Qrupu yaradılıb. İcmadan bildirilib ki, qrup kilsə, sövmə, xaçdaş və monastırların tarixini, memarlıq və epiqrafik xüsusiyyətlərini, mənsubiyyətini arxiv sənədləri və digər ilkin mənbələr əsasında elmi metodlarla araşdırmaq məqsədilə yaradılıb.

Azərbaycan elmi mühitində XVI-XIX əsrlər Alban katolikosluğu sənədlərinin tamamilə məhv olduğu fikri yayılıb. İtkilər şübhəsizdir, lakin bir sıra ölkələrin arxiv və əlyazma fondlarında həm Alban katolikoslarına, həm də dövrün dini-ictimai tarixinə dair çoxsaylı sənədlər, mənbələr saxlanılır, bir hissəsi isə artıq nəşr olunub. Bu materiallar müxtəlif fondlara səpələnib. Onların sistemli axtarışla aşkarlanıb vahid elmi bazada toplanması İşçi Qrupunun əsas missiyasıdır: "Tədqiqat həm də deportasiya olunmuş əhalinin təhlükəsiz və ləyaqətli qayıdışının tarixi-mədəni əsaslarının sənədləşdirilməsinə xidmət edəcək".

Sentyabrın 21-də Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanın dövlətçilik tarixində Qafqaz Albaniyası irsi" mövzusunda tədbir keçirilib. BMTMM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev Qafqaz Albaniyası irsinin qorunmasının siyasi məqamlarının da xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O qeyd edib ki, ölkəmizin ərazisində tarix boyu müxtəlif dövlətlər mövcud olub və onların hər biri Azərbaycan xalqına zəngin tarixi və mədəni irs qoyub. Bu irsi geniş şəkildə araşdıraraq ictimaiyyətə təqdim etməsək, müəyyən boşluqlar yaranır və həmin boşluqlardan öz məqsədləri üçün istifadə etməyə çalışan qüvvələr meydana çıxır. "Qafqaz Albaniyası tarixinin araşdırılması istiqamətində elmi fəaliyyət daha da genişləndirilməlidir. Bu baxımdan erməni və gürcü dillərinin öyrənilməsi, eləcə də Qafqaz tarixinin ilkin mənbələr əsasında araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Bəzi erməni radikalları Qarabağda mövcud olan kilsələrin Azərbaycan tərəfindən "albanlaşdırıldığını" iddia edirlər. Lakin bu yanaşma reallığı əks etdirmir. Azərbaycanın ərazisində müxtəlif xalqlara və dini icmalara məxsus tarixi ibadət məkanları mövcuddur və ölkəmiz bu abidələrin qorunmasına diqqət yetirir", - deyə İdarə Heyətinin sədri vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərdəki Xudavəng, Gəncəsər və Ağoğlan kimi kilsə kompleksləri təkcə region üçün deyil, bütöv xristian dünyası üçün böyük dəyərə malik tarixi abidələrdir.

Sentyabrın 12-də Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Qarabağ və Şərqi Zəngəzura səfər çərçivəsində Ağdərə rayonunun Vəngli kəndində yerləşən Gəncəsər monastırını ziyarət ediblər.

Bu ziyarətin özü Alban mədəni irsinin artıq beynəlxalq diplomatik gündəmə daxil olduğunu göstərir. Ümumiyyətlə, diplomatik korpus nümayəndələrinin bu ərazilərə səfərlərdə iştirakı ölkəmizin ərazi bütövlüyünün birmənalı qəbul olunması deməkdir. Ermənistan cəmiyyətinin bu ziyarətlərə göstərdiyi təşviş dolu reaksiya isə illərdir qurduqları yalan dünyasının gözləri qarşısında dağılmasından doğan narahatlıqdır.

Qafqaz Albaniyasına aid olan abidələr Azərbaycan xalqının tarixi və mədəni mülkiyyətidir. Dövlətimiz tərəfindən bu istiqamətdə atılan hər bir elmi və diplomatik addım erməni uydurmalarının qarşısına keçilməz sədd çəkir və tarixi həqiqətləri bütün dünyaya nümayiş etdirir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 iyul (Cümə axşamı günü) tarixli 221-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 11 şəvvalül-mükərrəm sənə 1337. 10 təmmuz 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERA**
Zülfüqar bəy və Üzeyir bəy
qardaşlarının müdiriyyəti
Cümə günü, şəvvalül-mükərrəm ayının 12-də (iyul ayının 11-də 1919-cu [ildə]) mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbəyli qardaşlarının yazmış olduğu məşhur **"Leyli və Məcnun"** operası.
6 pərdədə. Pərdədən qabaq Zülfüqar bəy tərəfindən olan təzə milli şərqi "Xudam məni yaratdı" çalınıb oxunacaq. Biletlər indidən teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam
saat 9-un yarısında.

10 iyul 1919, pəncşənbə [cümə axşamı] günü, saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

## ELAN

Azərbaycan Kazyonnı Palatası [Xəzinə Palatası] bununla əlavə mədən naloqu [vergisi] verənlərə elan edir ki, Maliyyə nazirinin həmin həziran (iyun) ayının 19-da 4117 nömrəli binagüzarlığına binaən [sərəncamına əsasən], 1919-cu il üçün idarələrdən mənfəətdən alınacaq faiz vergisi haqqında Müvəqqəti Hökumətin 13 dekabr 1917-ci ildəki 3, 5, 8[-ci] qətnamələri ləğv olunub, qət olunmuşdur [qərara alınmışdır] ki, avqust ayının 1-də naloq verənlərə oklodnoy vərəqə [vergi vərəqəsi] verilməsi, sentyabrın 1-də etirazlar verilməsi, dekabrın 2-də xəzinəyə faiz vergisi verilməsi. Oklodnoy vərəqəni hər kim nədənsə almazsa, podatnoy inspektorlardan [vergi müfəttişlərindən] xəbər ala bilər.

*T-172*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**1919[-cu] ildə buraxılan 50 rubləlik kağız pulun təsviri**

Pullar su nişanı olmadan, adi ağ kağız üzərində çap edilmişdir. Pulların tulu [uzunluğu] haşiyələri ilə bərabər 110 millimetrə və ərzi [eni] isə 68 millimetrədir.

***Üz tərəfi***

Pulların üz tərəfi ibarətdir: 1) Yazıdan, 2) Naxışlı konturalardan və 3) Şəbəkələrdən.

*1 - Yazısı*

Biletin yuxarı tərəfindəki haşiyənin havasında iri xətlə türkcə yazılmışdır: "Azərbaycan Cümhuriyyəti". Hərflər tünd qəhvəyi rənglə yazılmış və bir qədər uzaqdan nazik xətlə əhatələnmişdir.

İkinci xətt kiçik bağlanmış haşiyə arasında yerləşdirilmişdir. Burada türkcə olaraq "1335 sənə" yazılmışdır. Rəqəmlər sarı rəngli nazik xətlərlə əhatələnib müvafiq bir tərzdə qalınlaşır. Rəqəmlər vəsət əndazədə [orta ölçüdə] yazılmışdır. Bu rəqəm türkcə tünd qəhvəyi rənglə yazılmış "sənə" kəlməsini qapayır. Bu naxışın sol tərəfində "19" və sağ tərəfində yenə "19" rəqəmləri yazılıb səneyi-cariyyəni [cari ili] bildirir. Rəqəmlər vəsəti əndazədə olaraq qoşa xətlə yazılıb araları isə ağ qalmışdır.

Sonrakı xətdə: Türkcə "əlli manat" yazılmışdır. Həmin xətt tünd qəhvəyi rəngdə iri naxışlı kəlmələrlə yazılıb nazik xətlə əhatələnmişdir. Hərflər və ağ qalmış yer ümumi şəbəkə ilə örtülmüşdür.

Pulun mərkəzində türkcə iri naxışlı hərflərlə tünd qəhvəyi rəngdə "50" rəqəmi yazılıb nazik kontura xəttilə əhatələnmişdir.

Biletin sol və sağ tərəflərində 12 guşəli şəklin tünd qəhvəyi havasında ağ rəngdə "50"lər yazılmışdır. Bu rəqəmlər vəsəti əndazədə rusca olaraq yazılmışdır.

Ağ rəqəmlər ilə mərkəzi rəqəmlər arasında yazılar vardır. Sol tərəfdə nazik vəsəti xətlə dörd xətdə yazılmışdır: "Rusiya dövlət kağız pulu ilə bərabər işlənir".

Axırıncı xətdə ibtida və nəhayəsində içərisində əyri xətdə olaraq mürəbbelər [kvadratlar] yerləşdirilmişdir.

Sağ tərəfində həman yazılar, ancaq türkcə olaraq üç xətdə yazılmışdır. Bu axırıncı xətdə mürəbbelər yoxdur.

Bunlardan daha aşağı 4 millimetrə bir səthdə tünd qəhvəyi rəngdə naxışlı hərflərlə sarı rəngdə rusca bu sözlər yazılmışdır: "Əlli manat". Bir az aşağı haşiyənin bağlı müdəvvərində [dairəsində] "50" rəqəmi yazılmışdır. Bu rəqəm rusca iri sarı xətlə yazılmış və qoşa xətlərlə əhatələnib müvafiq kölgəsi vardır.

Bu axırıncı rəqəmin sol və sağ tərəflərində, pul rübünün [küncünün] hüdudunda konturasız göy, sadə və iri xətlə rəqəmlər yazılmışdır. Əvvəlinci rübün axırında rusca "50" və üçüncünün axırında türkcə rəqəmlər yazılmışdır.

Pulun sol tərəfindəki qalxan rəsimli haşiyə altında xırda, əyilmiş xətlə iki sətirdə yazılmışdır: "Heyəti-Vükəla rəisi". Bundan sağa isə həman cərgədə Heyəti-Vükəla rəisinin imzası vardır.

Bu yazıdan aşağı həman hürufat ilə bir xətdə: "Maliyyə naziri" yazılmış və Maliyyə nazirinin imzası vardır.

Sağ tərəfdən həman yazılar, ancaq türkcə yerləşdirilmişdir.

Axırıncı sətirdə rusca "Azərbaycan Cümhuriyyəti" yazılmışdır. Sözlər iri naxışlı ağ rəngli hərflərlə yazılmış və nazik kontura ilə əhatələnib müvafiq bir tərzdə qalınlaşaraq haşiyənin aşağı tərəfində yerləşdirilmişdir.

*[2 ] Haşiyəli kontura*

Haşiyənin ərzi 60 millimetrə və tulu 103 millimetrədir.

Pulun haşiyəsi qarışıq Avropa üsulunda birər rəsmi təsvir edir. Haşiyənin yuxarı tərəfi hər biri 1 ¼ millimetrə ərzində ağ xətləri məhdud yeddi üfüqi məsahədən [hissədən, sahədən] ibarətdir. Dörd məsahə sarı rəngdə olub, qalan 3 məsahə isə bunların arasında kağızın öz rəngində yapılmışdır.

Bu hər üç məsahələrin ağ havalarında 14 ½ dəfə naxışlı dırnaq ilə haşiyəli rəsimdən kombinasiya edilmişdir. Haşiyənin yuxarı tərəfinin ərzi 10 millimetrədir.

Həman tərz ilə yuxarı sətrə mütabiqən [uyğun olaraq] aşağı yapılmışdır.

Haşiyənin ətrafındakı şaquli vəchləri [üzləri] 2 ¼ ərzində məsahələrdən ibarətdir. Bunlar haşiyənin üfüqi tərəflərinin axırını qapayırlar. Bu yerdə ağ rənglər vardır. Bu ağ hissələrin havasında yuxarı və aşağı tərəflərin 1 ¼ millimetrə və ərzi xətlər arasında dörd dəfə "lira" nişanlı rəsm yerləşdirilmişdir. Haşiyənin üfüqi tərəfləri arasındakı şaquli tərəflərinin hissəsi içərisində göy rənglə rənglənmiş və səkkiz dəfə naxışlı mürəkkəb rəsmlər yapılaraq öz kontur[ası] ilə bir məsahə vardır.

Pulun vəsətində, haşiyənin yuxarı vəchi altında, bilavasitə aşağı tərəfində iki həlqəli altı pəncə naxış yapılmışdır. Bu da iki xətdə olub, araları sarı rənglə rənglənmişdir.

Biletin sağ və sol tərəflərində şaquli qayda ilə içərisində on iki pəncəli naxış olaraq iki dənə ucu iti qalxanlar vardır. Naxış tünd qəhvəyi rəngdə olub ətrafında nazik xətlər vardır. Naxışdan yuxarı və aşağı tərəfə səthi-müsəlləsələr [üçbucaq səthlər] çıxıb, tünd qəhvəyi rəngdə sarı sınıq xətlərlə rəsmlənmişdir. Səthi-müssəlləsələrin ətrafında nazik xətlər vardır. Ornamentin açıq hissələri sarı rənglə rənglənmişdir.

Pulun vəsətində türkcə yazılmış "50" rəqəminin altında iki konturalı və sarı rənglə boyanmış 52 millimetrə tulu və 4 millimetrə ərzində bir üfüqi məsahə vardır.

Həman məsahənin axırında iki həlqə olub, axırlarında dəxi məsahənin içərisində iki böylə həlqələr vardır.

Bu məsahənin altında guya iki nazik xətdən asılmış kimi sarı rənglə rənglənmiş iki xətli, bağlı, müddəvvər həlqə yerləşdirilmişdir.

*3 - Şəbəkəsi*

Pulun haşiyəsi ilə kənarları şimal-qərbdən cənub-şərqə tərəf dalğamisal [dalğavari] göy rəngli şəbəkələr ilə örtülmüşdür. Haşiyə ilə məhdud [əhatə edilmiş] məsahə iki dalğamisal bir-biri arasından keçən şəbəkələrlə örtülmüşdür. Bu şəbəkələrin biri üfüqi, digəri yuxarıda təsvir etdiyimiz kimi əyridir.

***Əks tərəfi***

Pulun əks tərəfi ibarətdir: 1) Yazıdan, 2) Naxışlı haşiyədən və [3)] şəbəkələrdən.

*1 - Yazısı*

Haşiyənin yuxarısında rusca "Azərbaycan Cümhuriyyəti" yazılmışdır. Bu kəlmələr tünd qəhvəyi olaraq iri və naxışlı hürufat [hərflər] ilə yazılmışdır. Hürufat ətrafında nazik xətlər vardır. Ümumi şəbəkə bu hərflərin üzərindən keçir. O biri xətt isə, tünd qəhvəyi rəngdə ətrafında nazik xətlə olaraq naxışlı hərflərlə türkcə "əlli manat" yazılmışdır.

Mərkəzi şəbəkələr ətrafında iri rəqəmlərlə "50" yazılmışdır. Həmin rəqəm soldan türkcə, ətrafı kontura xətti olaraq və müvafiq bir surətdə qalınlaşaraq yazılmışdır. Rəqəmin altında adi hüruf [hərflər] ilə türkcə "manat" yazılmışdır.

Naxışların sağ tərəfindən həman əndazədə rusca olaraq "50" və altında da "manat" yazılmışdır. Həmin yazı miyanə [ortabab] naxışlı hüruf ilə yazılmışdır. Pulun ümumi şəbəkəsi bu iki rəqəmlər arasından keçir. Naxışın göy rəngli havasında və onun yuxarı yarımmüdəvvərində [yarımdairəsində] miyanə hüruf ilə türkcə yazılmışdır: "Saxtasını yapanlar qanunən təqib edilirlər".

Naxışın aşağı yarımmüdəvvərində yuxarı yazıdan iki dənə səkkizguşəli və içərisi ulduzlarla ayrılaraq, həman yazı iki xətdə rusca olaraq "Saxtasını yapanlar qanunən təqib edilirlər" sözləri yazılmışdır. Hər iki xətt yarımmüdəvvər tərzdə yazılmışdır.

Naxışın mərkəzi müdəvvərinin tünd qəhvəyi havasında göy rəngdə konturasız hürufat ilə toxunma qaydası ilə naxışlı olaraq türkcə "Azərbaycan Cümhuriyyəti" yazılmışdır.

Axırıncı xətt: "əlli manat" ayrı, qalın, ətrafı konturalı hüruf ilə yazılmış və içərisi yuxarıya çevrilmiş kaman (duqa) [yay] kimi yerləşdirilmişdir. Bu xətt ümumi şəbəkə ilə örtülmüşdür.

*2 - Münəqqəş [naxışlı] haşiyə*

Haşiyənin ərzi 61 ½ millimetrə, tulu isə 103 millimetrədir.

Haşiyə qarışıq Avropa üsulundadır. Haşiyənin yan tərəfləri 28 belikdən [hörükdən] ibarət iki sütundan mütəşəkkildir. İki beliyin ¾ hissəsi görünüb, ikisi isə ancaq nişanlanmışdır.

Aşağıda sütunlar binaya 11 ½ millimetrə irtifasında [yüksəkliyində] daxil olur ki, bunun 1 ½ millimetrəsi bilavasitə sütunun uzadılmış dirəyini işğal edir. Sonra 10 millimetrə bina bir xətdə mürəkkəb naxışlar yerləşdirilmişdir. Bu naxış da pulun üz tərəfindəki ətraf vəchlərə daxil olan naxış kimi yapılıb, ufacıq təğyir [dəyişiklik] verilmişdir.

Sütunun iki səth arasında başlar vardır ki, bunların cəmi 4 millimetrədir. Sütunlar, səthlər və bina aşağı və sağ tərəfdən qalınlaşaraq göy rənglə rənglənmişdirlər.

Haşiyənin yazılarının hər biri 1 ¼ millimetrəlik ərzində iki məsahədən ibarətdir. Aşağı məsahə göy rəngli, yuxarı məsahə isə ağ kağız rəngindədir. Bu məsahənin ağ yerində haşiyənin üfüqi vəchlərinə daxil olaraq pulun üz tərəfində naxış yapılmışdır.

Haşiyənin yuxarı tərəfi 10 millimetrəlik lenta təsvir edir. Bu lentanın yuxarı və aşağı hissələri göy rəngli və bir millimetrə məsahələri təşkil edir. Bunların arasındakı məsahə ağ toxunma xətlərdən yapılmış naxışla naxışlanmışdır. Bu məsahələrin axırı hər tərəfdən 4 ½ millimetrə olaraq üfüqi tünd qəhvəyi rənglə hər tərəfdən 20 cızıqlarla cızıqlanmışdır. Məsahələrin qalan hissələri şimal-qərbdən cənub-şərqə doğru dalğamisal şəbəkə ilə örtülmüşdür.

Pulun mərkəzi hissəsi tünd qəhvəyi rəngli 16 millimetrə diametrli müdəvvərdən ibarətdir. Bu müdəvvər üç xətlə əhatələnmişdir ki, getdikcə bunların arasındakı məsahə azalır. Bu müdəvvər 10 pəncəli naxış arasında yerləşdirilibdir. Böylə ki, naxışın 8 pəncəsi müdəvvərin müstəqim hissələrini təşkil edir. Ətrafındakı iki pəncələri şəbəkə günbəd şəklini alırlar. Naxışın yuxarı və aşağı qütbü nöqtələrində birər çıxan başlar vardır.

Naxışlar göy rəngdə olub, qoşa bağlı konturaları vardır. Bu xətlərdən xaric, konturalara müqabil daha iki xətt vardır. Bu xətlər başların altından keçərək sağ və sol tərəflərə çıxıb, daxilində ürək misalı olaraq lira şəklini alırlar. Ürəkmisal xarici qoşa xətlərin arasındakı məsafə göy rəngdədir.

Bu naxışın başı üstündə ümumi şəbəkələr ilə örtülmüş qoşa nazik xətli bir naxış daha vardır. Mərkəzi naxışın sağ və sol tərəflərində iki vinyetkalardan ibarət naxışsız xurma ağacı yarpağına oxşar yarpaqlar yerləşdirilmişdir. Yuxarı vinyetkanın ağ cızıqları vardır.

Palmettalar bütün şəklin ətrafında ağ xətdə olaraq göy rənglə rənglənmişdir.

*3 - Şəbəkəsi*

Pulun haşiyədən kənarına kimi şimal-qərbdən cənub-şərqə doğru dalğamisal şəbəkə ilə örtülmüşdür. Haşiyənin yuxarı cızıqlanmamış hissəsi dəxi həmin şəbəkə ilə örtülmüşdür. Haşiyə ilə məhdud məsahə mərkəzi naxış və palmettalardan siva [başqa], göy rəngdə muaret şəbəkəsi ilə örtülmüşdür. Bu şəbəkə sol tərəfdə bir qədər yayılmış, bəsit və iri əndazədədir.

*Maliyyə naziri: Əliağa Həsənzadə*

**Azərbaycan Dəmiryolları Nəzarətindən**

*Əmrnamə nömrə 58*

9 iyun 1919

May ayının 26-da Sumqayıt istasyonu telefonçusu Nikolay Pokrovski istasyona gəlib, Dabravol ordusunun hücum etməsi hərəkatının qət edilməsi [qərara alınması] və qeyrə haqqında yalan və həyəcanlı şayiələr buraxmışdır. Buna görə dəmiryol qulluqçuları arasında həyəcan qalxıb, onlardan bir paraları hətta şeylərini yığışdırmağa belə başlamışlardır. Sumqayıt istasyonu candarması Aslan Babayev tərəfindən vaxtlı-vaxtında ittixaz edilən [görülən] bacarıqlı tədbirlərə görə qulluqçuların işi başlanıb, ixtilaf tamamilə bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Məzkur [adı çəkilən] candarma Aslan Babayevin vaxtlı-vaxtında lazım gələn binagüzarlıqda bulunmasına [addımlar atmasına] görə, xidməti cəhətdən ona öz razılığımı izhar edirəm.

*Əslində imza etdi:*
*Yollar naçalniki*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalnikini*
*[Xanbaba bəy] Sədrəddinbəyov*
*Kargüzar (imza)*

*Əmrnamə nömrə 59*

16 iyun 1919

Ələt-Culfa dəmiryolu təşkilatı başlanması münasibətilə bu yolun mühafizə qulluqçuları ştabı təsdiq edilənə qədər Osman bəy Mirzəbəyov Bakı şəhərində müvəqqətən mühafizə naçalniki ixtiyarında qalmaqla bərabər, Azərbaycan Dəmiryolları mühafizə naçalnikinin 2-ci müavini vəzifəsini ifa etməyə buraxılır.

*Əslində imza etdi:*
*Dəmiryol naçalniki mühəndis Vəkilov*
*Mühafizə naçalniki*
*[Xanbaba bəy] Sədrəddinbəyov*
*Kargüzar (imza)*

*Əmrnamə nömrə 61*

21 iyun 1919

1) Müşahidə edilmişdir ki, mühafizə xidmətçiləri nədənsə müqərrər edilmiş [qərarlaşdırılmış] uniformanı geyməyirlər. Bilatərəddüd [tərəddüdsüz, dərhal] ifasından və nəzər-diqqətə alınmasından ötrü elan edirəm ki, təhti-idarəmdə [tabeçiliyimdə] olan dəmiryol mühafizə xidmətçilərinin hamısı xidmət əsnasında öz vəzifələrinə müvafiq müqərrər edilmiş uniformanı geyməlidirlər.

2) Elan edirəm ki, mühafizə qulluqçuları xudsəranə [özbaşına] bir surətdə vəzifələrini buraxdıqlarına görə nəinki bir tək xidmətdən kənar ediləcəklər, bəlkə məhkəməyə də veriləcəklərdir. Uçastok naçalnikləri [sahə rəisləri] bu əmrnamənin mühafizə qulluqçuları tərəfindən dürüst ifa edilməsinə nəzarət edib, hər bir ittifaqda [hadisədə] mənə xəbər verməlidirlər.

3) Yay istisi münasibətilə müsri [yoluxucu] xəstəliklər zühur etməsin deyə dəmiryol xəttində, həmçinin bütün istasyonlarda, ələlxüsus fəhlə məntəqələrində olan mühafizə xidmətçilərinə əmr edirəm ki, sihhiyyə [səhiyyə və gigiyena] qanunlarını gözləməyi tələb etsinlər.

*Əmrnamə nömrə 62*

25 iyun 1919

Bakı şəhərinin qradonaçalniki və polismeysterinin bəyanatına müvafiq elan edirəm ki, Azərbaycandan Gürcüstana gedən şəxslər Azərbaycan Cümhuriyyəti nəzdində olan Gürcüstan nümayəndəsindən icazə vəsiqəsi almalıdırlar.

*Əslinə imza etdi:*
*Azərbaycan Dəmiryolları mühafizə naçalniki əvəzinə*
*[Osman] Mirzəbəyov*
*Əslinə mütabiqdir.*
*Kargüzar (imza)*

## TELEQRAF XƏBƏRLƏRİ

London - Kopenhaq [Kopenhagen] vasitəsilə Peştədən xəbər verilir ki, əksinqilab hərəkatı qətiyyən tərk edilmişdir. Əksinqilabçılara qarşı terror elan edilmişdir. Onları asırlar. Hər kəsdə silah tapılır, atmaqla edam edilir.

Berlin - Dəmiryol əmələləri [fəhlələri] tətil etdiklərindən dolayı dəmiryol hərəkatı dayanmışdır.

**Fransa ordusunun tələfatı**

Büdcə komissiyasının məruzəçisi Maren aprelin 1-i 1919-cu ilədək Fransa ordusu tələfatı barəsində zeyldəki [aşağıdakı] məlumatı verir:

Ölən afiserlər 32.000 nəfər, əsl fransız saldatlarından ölənlər 1.006.100 nəfər, Şimali Afrikadan alınan saldatlardan 27. 000 nəfər, müstəmləkə qoşunlarından 24.600 nəfər, xəbərsiz [itkin] düşənlər 2. 500 nəfər, xəbərsiz düşən Avropa saldatları 246.500 nəfər, Şimali Amerikadan alınan saldatlardan 9.000 nəfər. Dokladçı flot tələfatından da bəzi məlumat vermişdir.

*(Bolşeviklərin məlumatı)*

Melitopol səmtində Belqorod üzərinə olan düşmən hücumu dəf edilmişdir. Ştab naçalniki rotmistr Paşkovski və bir general qətl edilmişdir. Ştabın məktubat və əmrnamələri tövqif [həbs] edilmişdir.

* * *

Konstantinoqrad səmtində - Tərəfimizdən Lunnaya mövqifi işğal edilmişdir.

Yekaterinoslav səmtində şiddətli müharibələrdən sonra qırmızı qoşunlar Suxaçyovkanı işğal etdilər.

Valuysk səmtində düşmənlərin güclü qüvvəsi təzyiqi altında bizim hissələrimiz Novı Oskol denilən yeri tərk etdilər. Bobrov üzərinə olan düşmən hücumu dəf edilmişdir.

Kamışin səmtində Lapşinski mövqifi [stansiyası] üzərinə edilən düşmən həmləsi dəf edilmişdir.

Tsaritsın cəbhəsində düşmənlərin külli qüvvəsinin təzyiqi altında biz[im] hissələrimiz Kamışinin 50 verstliyinə yeni səngərlərə çəkilmişlərdir.

**Qərb cəbhəsində**

Petrozavod səmtində - Petrozavod-Olonets yolu düşmənlərdən təmizlənmişdir.

Narv səmtində - Peterqofun cənub-qərb tərəfində vaqe [yerləşən] Malenkovo, Trunovo kəndləri, Qatçinanın cənub tərəfində isə Poddubye kəndləri işğal edilmişdir.

Novo-Svenç səmtində - Luninetskin şimal tərəfində vaqe Lisino kəndindən bizim hissələr çəkildilər.

Proskurov səmtində - Proskurovun şimal-qərb hissəsində biz bir neçə kəndləri işğal etmişik.

**Şərq cəbhəsində**

Qızğın müharibədən sonra Puqaçyovskini işğal etdik.

Buzuluk səmtində - Buzulukun cənub tərəfində bizim hissələr bir neçə səngərləri işğal etmişlərdir.

Perm səmtində - Çernomor zavodu yanında müharibə davam edir.

## SÜLH ƏTRAFINDA

**Müharibə hənuz qurtarmamışdır**

Havas agentliyi xəbər verir ki, sülh müahidənaməsinin [sazişinin] imzalanması ilə müharibə qurtarmamışdır. Şərqin gələcəyi həll edilməlidir. Türkiyə və Bolqariya məsələsini həll etmək üçün hələ altı ay vaxt istər.

**Smets'in bəyanatı**

London - Smets bir bəyannamə nəşr edərək deyir ki, o sülh müahidənaməsini onun üçün imza etməmişdir ki, sülh müahidənaməsi onu razı salmışdır; ona görə imza etmişdir ki, müharibəni bitirmək lazım idi. Çünki cahanın sülhə ehtiyacı vardır.

Altı aylıq mütarikə [atəşkəs] zamanı dörd illik müharibə qədər dünya üçün möhlik [öldürücü, təhlükəli] idi. Bu sülh müahidənaməsi camaatın arzu etdiyi sülh deyildir. Mən çox təəssüf edirəm ki, yalnız düşmən tərəfin əsgəriyyəti [militarizmi] məhv edilmişdir.

Nə qədər ki qaliblər məğlub tərəfə lazım gələn müavinəti verməyirlər, Avropanın bir hissəsi bərbad olacaqdır. Rusiya zülmət içindədir. Sair məmləkətlərin də Rusiya halına düşəcəyi ehtimal daxilindədir.

* Müttəfiqlərin Şurayi-Alisi [Ali Şurası] Avstriya, Bolqariya və Türkiyənin sülh müahidənaməsinə baxmışdır. Türkiyə müahidənaməsindən başqa, Avstriya və Bolqariya müahidənaməsi bu günlərdə qurtararaq, Türkiyə nümayəndələri bu günlərdə İstanbula əzimət edirlər [yola düşürlər].

## QƏZETƏLƏRDƏN

**Kiyevdə**

Hal-hazırda hər tərəfdən bolşevik müəssisələri Kiyevə gətirilməkdədirlər. Moskvadan ayrı-ayrı müəssisələrin təxliyə edilməsi başlanmışdır. "Sentrsaxar" bolşevik hökuməti paytaxtından köçürülüb Kiyevə gətirilmişdir. Kiyevə gətiriləcək Litva hökuməti müəssisələri üçün 2370 bina hazır edilməsi üçün təcili binagüzarlıq [sərəncam] verilmişdir. Həmin binalara Xarkov və Odessadan köçürüləcək müəssisələr də yerləşdiriləcəklərdir.

**Üsyan**

Kiyev yaxınlığında bir para yerlərdə kəndlilərin üsyanı başlanmışdır. Üç böyük kənd kəndliləri Kiyevi işğal edib bolşevikləri qovmaq qəsdi ilə silah götürüb Kurenyovkaya hücum etmişlər. Bu hücum müvəffəqiyyətsizliklə qurtarmışdır. Bolşeviklər bir çox kəndliləri güllələyib kəndləri dağıtmışlardır. Kəndlilər Kiyev altında olan Apşteyn zavodunu və ona yaxın yerləri zəbt edib bolşevikləri həyəcana salmışlardır.

* * *

"Qızılağac" paroxodunun Lənkəran bolşevikləri tərəfindən tutulması haqqında verilən xəbər də əsilsizdir. Həman paraxod hal-hazırda dabravol ixtiyarındadır.

İngiltərə bəhriyyə nəqliyyatı idarəsindən alınan xəbərlərə görə, Hacı-Tərxanın Dabravol ordusu tərəfindən işğal edilməsini təsdiqedici rəsmi xəbər alınmamışdır.

**Krımın bolşeviklərdən təmizlənməsi**

Könüllü ordu komandanlığından verilən son məlumata görə, bütün Krım yarımadası Şura qoşunlarından təmizlənmişdir. Külli qənimət alınmışdır. Perekop general [Mixail Nikolayeviç] Vinoqradov qoşunları tərəfindən işğal edilmişdir. Vinoqradov Krıma qubernator təyin edilmişdir.

* Hələ təsdiq edilməmiş olan xəbərlərə görə, iyul ayının 15-də Poltava Könüllü ordusu tərəfindən işğal edilmişdir.

* General Pokrovski ordusu tərəfindən qayət qızğın müharibədən sonra Kamışin şəhəri işğal edilmişdir. Şəhərin müdafiəsi üçün lazım gələn tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Çünki bolşeviklər əks-hücuma hazırlaşırlar.

**Hacı-Tərxan əhvalı**

Petrovskdan [Mahaçqaladan] gələn "Kaspi" paroxodunun mexaniki Hacı-Tərxan altında vaqe olan axırıncı müharibələr haqqında böylə məlumat verir:

İyunun 27-də inadlı müharibədən sonra dabravollar "Yekaterina", "Sınovya", "Retvizan" və "Krepış" adlı bolşevik paroxodlarını tutmağa müvəffəq olmuşlardır. Bu paroxodlardan üç əvvəlincisi çarxlı, axırıncı isə motorludur. Həman gəmilərdə beş nəfər bolşevik komissarı həbs edilib güllələnmişlərdir.

İyulun 3-də dabravollar təzədən dörd dənə paroxod tutmağa müvəffəq olmuşlardır. Bu qərar üzrə bir həftə ərzində dabravollar əlinə 8 bolşevik gəmisi keçmişdir.

Axırıncı günlər dörd tərəfdən Hacı-Tərxana hücum olurdu. İyulun 6-da Petrovskda bəhriyyə ərkanında [donanma qərargahında] nim-rəsmi [yarım-rəsmi] xəbərlər alınmışdır ki, Krasnı Yar – Hacı-Tərxan xəttində vaqe olan inadlı müharibələr nəticəsində Hacı-Tərxan Dabravol ordusu tərəfindən işğal edilmişdir. Şəhər işğal edilən zaman bolşeviklər tərəfindən şəhərdə 600 əsgər qaldırılmışdır [saxlanmışdır]. Buna baxmayaraq, bu xəbərlər mövsuq [mötəbər] mənbələrdən deyildi və "Kaspi" paroxodu Petrovskdan azim olana [yola düşənə] qədər Dabravol ordusunun bəhriyyə ərkanı tərəfindən alınan xəbər təsdiq edilməmişdi.

Hacı-Tərxanın şimali tərəfinin minalanmış və Volqa kanalında barj və paroxod qərq edilmiş olduğu haqqında verilən xəbərlər əsilsizdir. Həman göstərilən tərəflərdən bolşeviklər mümaniət [müqavimət] göstərməmişlərdir. Volqa sahilində yaşayan əhali bolşevik komissarları əleyhinə olub, mümkün qədəri bolşeviklərlə mübarizədə dabravollara kömək edirlər.

**Türküstanda**

- Ramazan bayramı günü Aşqabadda olan Azərbaycan Hökuməti konsulu Aşqabadda yaşayan Azərbaycan təbəələri möhtaclarına 10.000 rublə ianə etmişdir.

- Azərbaycan konsulu türkmən və yəmud oğlan və qızlarının Azərbaycan ibtidai və edadi məktəblərinə qəbul edilməsi üçün hökumət nəzdində təşəbbüsatda bulunmuşdur. Kasıb sinifi uşaqları ilə bərabər Yəmud xanının iki oğlu və qızı, [Eyvazbəyov] Uraz Sərdar oğlu və Hacı Muradın qardaşı oğlu dəxi Azərbaycan Cümhuriyyəti məktəblərinə gəlmək arzusunda olduqlarını bildirmişlərdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ticarət, Sənaye və Ərzaq Nəzarətində**

- Ticarət, Sənaye və Ərzaq Nəzarəti tərəfindən Batuma gedən komisyonun aldığı parça, çəkmə, şəkər və bu kimi başqa şeylər bu günlərdə Ticarət və Sənaye Nəzarətinin mağazasında və başqa təyin olunacaq yerlərdə əhaliyə münasib qiymətlə təqsim ediləcəkdir [bölünəcəkdir].

- Ticarət, Sənaye və Ərzaq Nəzarəti şimdiyə qədər əlbisəlik üzündən sıxıntı çəkən köy xalqının ehtiyacını dəf etmək və gələcəkdə əhalinin arasında sənayeni nəşr etmək [yaymaq] məqsədilə yun və pambıq toxuyan culah [culfa, bez toxuyan], cəhrə və bu kimi başqa alatın ehzarına şüru etmişdir [alətlərin hazırlanmasına başlamışdır]. Və həmçinin məzkur kargahda [deyilən iş yerində] işləyəcək kimsələri öyrətmək üçün dəxi müəllimlər cəlb etmişdir. Az bir zamanda Nəzarətin hazır edəcəyi dəsgahlar cəmiyyəti-xeyriyyələr, kooperativlər, Kəndlilər İttifaqı kimi cəmiyyətlər vasitəsilə köy xalqının arasında əlverişli şəraitlə nəşr edəcəkdir [yayacaqdır]. Bundan sonra köylülər kəndi ehtiyaclarını kəndi əlləri ilə rəf edəcəklərdir [aradan qaldıracaqlar]. Bundan başqa, əsgər ehtiyacına lazım gələcək əlbisəlikləri məzkur kargahlar vasitəsilə vücuda gətirib, Gürcüstandan sifariş etmək zəhmətindən qurtaracaqdır.

* * *

Amerika Qaçqınlar Cəmiyyəti Gürcüstanda polyaklara məxsus kargahı alıb Ermənistana nəql etməklə, Ermənistanda əl işinə tərəqqi veriləcəkdir.

## XARİCİ SİYASƏTİMİZ

**- 6 -**

**İngiltərə ilə dostluq**

Avropa müharibəsi xırda millətlərin nə qədər qüvvətsiz və böyük hadisələr qarşısında qüdrətsiz olduğunu göstərdi. Bu millətləri siyasi tufanlar yuyar götürər. Bunun üçün xırda millətlərə böyük bir dost qazanmalıdır. Bu dost olarsa və arada iki tərəf də bu dostluqdan fayda götürmək ehtimalı varsa, dostluq sabitliyini təmin edər. Balkan millətlərinin tarixi göstərir ki, ancaq rus dostluğu və millətlər rəqabəti sayəsində balkanlılar müstəqil olaraq meydana çıxdılar. Rus iştahası Balkanı udmaq istəyirdi. Bu iştahaya meydan verməmək üçün istiqlala riza göstərildi. Rus ilə Qərbin rəqabəti sayəsində Balkan millətləri qazandılar.

Beynəlmiləl dostluq yalnız faydadan asılıdır. Bütün məsələlərin həllinə bu nöqteyi-nəzərdən baxılır. Gözümüzün önündə Polşa dövləti ehya olunur [dirildilir] və bu məmləkət təşkilində Avropa, ələlxüsus Firəngistan polyaklardan çox çalışır. Neyçün əcəba?

Məsələ aydındır. Polyakların istiqlaliyyəti alman üçün bir yumruqdur. Sabah genə Almaniya müharibə ilə meydana çıxarsa, Polşanı arxasında görər və Firəngistana hücum məsələsi alman üçün bir az çətinləşər.

Deməli, bütün beynəlmiləl əlaqə qarşı fayda üzərində möhkəmləşir. Adətən xırda millətlər qarşı faydadan çox, qarşı təzaddan istifadə edirlər. İki qüvvətli dövlət arasında bufer olaraq təşəkkül edirlər.

Bu nöqtələrdən baxdıqda, Azərbaycanın coğrafi vəziyyəti çox gözəldir. Bir tərəfdən böyük rus tufanı, o biri tərəfdən İngiltərə faydası. Rus tufanı iki yüz ildən bəri gözünü cənuba – Hindistan yollarına tikmədədir. İki əsrdir ki, addım-addım Hindistana yavuqlaşır. Bu yolu kəsmək üçün rus tufanını durdurmaq məqsədilə Azərbaycan ilə Gürcüstan istiqlaliyyətini tanımaq icab edəcək [lazım gələcək]. Bu dövlətlərin təşəkkülü doğrudan-doğruya İngiltərə faydası ilə mərbutdur [bağlıdır]. Bizim üçün də əlverişlidir. Çünki Rusiyadan ayrılıb hür yaşamaq gürcülər və bizlər üçün tarixi bir məqsəd, həm də müqəddəs bir məqsəd idi. Gec-tez rus axını, rus mühacirliyi tapdağı olub məhv olmağımızı bilirdik. İngiltərə isə bizi öz faydası üçün tutmaq məcburiyyətində olacaqdır. Bu məmləkətdən bizə zərər gəlməz. Bunun mühacir kimi ölkəni hərc-mərc edən məsələsi yoxdur. İngilislər bizdən faydalanmaq istədiyi kimi, biz də onlardan faydalanacayıq. Onlarla bizim aramızda şübhə doğuran bir məsələ də yoxdur ki, ortalıqda soyuqluğa səbəb olsun. Biz xırda bir millətik. Hür yaşamaq istərik. Aləm-şümul məsələlərlə uğraşmayacayıq. Qüvvətimizə görə iş görəcəyik. Yəni vətənimizin tərəqqisi yolunda çalışacayıq. İttihadi-islam və ya türk ittihadı kimi xülyapərvər fikirlər gözümüzün önündə qoca bir Osmanlı dövlətini yıxdı. Bunun səbəbini xalqın geniş sinifi belə duyub anladı. Ziyalılarımız isə bunu çoxdan etiraf edib durmadadırlar. Bizim bütün məqsəd və amalımız Azərbaycanımızdır. Bu yolda kim bizi tutarsa, biz də ona rəğbət və meyil göstərərik.

Bu gün ingilislər Qafqazdan çəkilib, yerinə italyanlar da gəlsə, genə İngiltərə dostluğundan çəkinməməliyik. Bu millət dünya siyasətində həmişə böyük rollar oynayıb və oynayacaqdır. Millətlər hüququna riayət etmədə, onların istirahətini təmin etmədə, millətləri tərəqqi yolu ilə götürmədə Avropada birincilik qazanıbdır.

Əminəm ki, ingilis dostluğu bizi asudə yola çıxaracaqdır. Çünki iki millətin də faydası bunu istəyir.

*Yusif Vəzirov*

## AZDIR

Azərbaycan Məclisi-Məbusanının 7 və 8 təmmuz [iyul] tarixli iclasları tamamilə Qarabağ məsələsinə həsr edilmişdir. Qabaqlarda dəxi Parlamanda bu məsələ qalxmışdı və şübhəsiz bundan böylə də kərratla [dəfələrlə] qalxacaqdır. Hələ 10 təmmuz iclasının da bu məsələ ilə iştiğal edəcəyi [məşğul olacağı] şübhəsizdir. Qara bəy [Qarabəyli], Şəfi bəy [Rüstəmbəyli] və sairləri saatlarla danışırlar, çox sözlər deyirlər.

Fəqət bu çoxluqda nə qədər azlıq var!

Azdır!

Qarabağ haqqında denilən bu sözlər tamamilə haqq, fəqət azdır. O qədər ki deməlidir. Və demək olar deməyirlər. Deyə də bilməzlər. Çünki bu danışanlar nə qədər ürəyi yanan qardaş olsalar da, uzaqdan gəlmiş heyət əzasıdırlar [üzvləridir]. Bunlar ancaq bir hadisəni tənvir edirlər [işıqlandırırlar], lakin ən yaxşı tənvir etdikləri halda belə bütün Qarabağ məsələsini əhatə edəmməzlər. Bunu ancaq qarabağlı, əqəllən [ən azı] 10-15 illərlə Qarabağ daxilində yaşamış, məktəbi-həyat [həyat məktəbi] görmüş, Qarabağ övzasını [vəziyyətini] məhəllində [yerində], həyat səhifələrində öyrənmiş, böyüklə bərabər kiçik məsələlərə, cüziyyata [xırdalıqlara] belə vüquf yetirmiş adamlar tənvir edə bilərlər.

Fəqət Parlamandakı Qarabağ vəkilləri ağızlarına su almışlar. Guya bütün Məclisi-Məbusan həyatında bir kəlmə belə danışmamağa əhd etmişlərdir.

Həyat təcrübəsinin göstərdiyi, vəzifənin anlatdığı üzrə həziran [iyun] ayından bəri xüsusən Zəngəzurun od-alov içində bulunduğu hazırkı zamanda Qarabağ məbusları hökumət qapılarında, Parlaman iclaslarında, türkcə, rusca, hətta gürcü, alman, fransız və ingilis dillərində çıxan qəzetələr sütunlarında, Azərbaycan və əcnəbi dövlətlər nümayəndələri hüzurunda fəryad etməli, biçarə qarabağlıların halını göstərməli, əhvalını təsvir etməli, nə kimi fəlakət içində olduqlarını hamının nəzərinə, qulağına yetirməli idilər.

Lakin etməyirlər. Dinməyirlər, danışmayırlar. Təmsil etdikləri camaatın dərdini nəinki ruslar, firənglər, ingilislər, hətta bakılılar da bilməyirlər. Ağdam, Şuşa Qaryagin, Qarabulaq və Zəngəzur məbusları hələ Bakıdakı müsəlmanlara da öyrədə bilməmişlərdir ki, Qarabağ nə haldadır.

Paytaxtımızın ziyalı müsəlmanları hələ bilməyirlər ki, Qarabağın vəziyyəti nədir.

Böylə olan surətdə əcnəbilər, avropalılar nə bilsinlər?! Doğrudur, onlar məlumat alırlar, bilirlər, fəqət düşmən mənabeyindən [mənbələrindən] aldıqları yalan məlumat əsası ilə... Həqiqəti isə deyən olmamışdır. Dübarə ərz edirəm: Bunu Qarabağ məbusları etməli idilər. Lakin etməmişlərdir və etməyirlər. Əminəm ki, bundan böylə də etməyəcək, edə bilməyəcəklərdir.

Halbuki Qarabağ məsələsi hazırda Azərbaycan üçün dövlət nöqteyi-nəzərindən yeni bir Elzas-Loren, milliyyət nöqteyi-nəzərindən yeni bir "Türkiyədə erməni məsələsi" surətini almışdır.

Məbuslarımız bunu bilirlərmi? Bilirlərsə, nə fikirdədirlər?

Nə yapdılar deyə sual verməyirəm. Çünki mənə yəqin məlumdur ki, bir şey yapmamışlardır. Vəhalonki [halbuki], görməli iş, danışmalı söz, ittixaz etməli tədbirlər o qədərdir ki, işləyən axtarır.

Bu xüsusda sonra.

*Qarabağlı*

## QIRMIZI QAN VƏ QARA MÜRƏKKƏB

**- 2 -**

Bir ildir ki, Qafqazda üç cümhuriyyət əmələ gəlmişdir. Bu gödək müddətdə Gürcüstan ilə Ermənistan tamam idarələrini milliləşdirdilər. Hətta teleqraf hürufatına [şriftlərinə] qədər icad edib, erməni və gürcü dillərində müxabirələşməyə [xəbərləşməyə] başladılar.

Azərbaycan idarələrinə gəldikdə, milliləşmək fəqərəsi [məsələsi] bunların bir çoxuna hələ bacadan da baxa bilməmişdir. Zira burada vəzifə daşıyan taqımı müxtəlif millətlərdən ibarətdir. Buranın milləti-hakiməsi türklər olduğu halda, vəzifədarlarının ən çoxu ruslar, yəhudilər, gürcülər, ermənilərdir. Bunun da ümdə səbəbi milləti-hakimənin səltənət müəssisələrinə yarar məmurları mövcud və mühəyya [hazır] olmadığından, təhti-təbiəsində [vətəndaşlığı altında] bulunan məhkum millətlərə möhtac qalır. Ayrı bir çarə də yoxdur. Ya gərək millətin oxumuş əfradı [fərdləri] o dərəcəyə qədər artıq olsun ki, asan vəchlə müəssisələrə, ənva [müxtəlif] təşkilata onlardan qəbul olunsun. Əks surətdə xahi-naxahi [istər-istəməz] xaricilərdən dəvət olunasıdır.

Hərgah müəssisələrimizdəki məmurların siyahısına diqqət yetirsək, görərik ki, bunların 70 faizi və bəlkə 80 faizi xaricilərdir. Bunlar türkcənin nə şifahisini, nə də təhririsini [yazılısını] bilirlər. Qalan 20 faizinə gəldikdə, bunlar da ana dilindən bisavad yaxud kəmsavad türklərdir ki, əksəriyyəti təşkil edən xarici məmurlar arasında dalğalanaraq milliləşdirmək məsələlərində əsla və qət'a bir iş bacarmayırlar.

Madam ki, əksəriyyət xarici məmurları əlindədir, təbiidir ki, azacıq türk məmurları istədiklərini yapammazlar. Milli şüarlarına da müvəffəq olammazlar. Çünki buna xarici məmurları mane olub, istədikləri dildə qonuşarlar, yazışarlar. Üsuli-idarəni öz arzu və xahişləri ilə düzəldərlər. Əcəba halımız bu qərar ilə davam edib gedərsə, vaxtilə milli bir səltənət təsisinə müvəffəq olarızmı?

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 10 iyul (Cümə axşamı günü) tarixli 221-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Ola bilmərіz! Zira milli səltənətin təməl və əsası millət məmurlarından yaxud həqiqətən milliləşmiş vəzifədarlardan ibarətdir. Bunların hər ikisi meydanda isbativücud etmədikcə [varlığını göstərmədikcə], səltənətimiz naqis bir səltənətdir. Və bu nöqsan ortalıqdan qaldırılmadıqca, istiqlalımız xof ilə rəca [qorxu ilə ümid] arasında davam etməyə məcburdur. Özümüzü aldatmayaraq bu məsələni bir azca dərindən düşünəlim.

Bu gün rus, yəhudi və erməni məmurlarımız türkcə bilmədiklərindən dəftərxanalarımızı rusca idarə edirlər. Zatən bunlar rus hökumətindən bizə intiqal etmiş [keçmiş] çinovniklərdir (məmurlardır). Bunların türkcəni öyrənməyə yaşları müsaid [uyğun] olmadığı kimi, buna əsla həvəsləri də belə yoxdur. Ancaq bunlar gözəlcə anlayırlar ki, bundan sonra Azərbaycanda yaşayan zəvat [şəxslər] türk olmasa da, heç olmasa türkləşmiş yaxud türklüyə maraqlanmış əcnəbilər gərək olsun. Azərbaycanlığa maraqlanmayan məmurlarımız bunu çoxdan anlamışlar ki, inadlıqlarında davam edərlərsə, bir vaxt Azərbaycanda çörəksiz qalarlar. Binaənileyh [ona görə], bunlar var qüvvələri ilə çalışırlar ki, rus nüfuzunu Azərbaycanda həm daxilən və həm də xaricən gücləndirsinlər. Mümkün olarsa, burada rus boyunduruğunu keçmişdəki kimi təzələsinlər ki, yenə köhnə hökmranlıqlarını bərpa etsinlər. Türk demokratiyasına mirqəzəb [cəllad] kəsilib qanlarını sorsunlar.

Bunların daxili səyləri bundan ibarətdir ki, rus dövründən qalma idarələrin nizamı həman qərar ilə qalsın. Məhkəmələrdə rus zakonları [qanunları] davam etsin. Mühakimə rusca aparılsın. Teleqramlar rusca çəkilsin. Ərizələr rusca, dəftərdarlıq rusca, məzbətələr [protokollar] rusca, həpsi, həpsi rusca...

Xarici səyləri də – həmişə gözlərinin biri şimala baxıb Denikinləri kəmali-iztirab ilə axtarır.

İndi bir qədər mülahizə olunsun ki, böylə məmurlardan etibar, xülus [saflıq] və sədaqət kimi əxlaqi-həsənə [gözəl əxlaqi keyfiyyətlər] gözləmək olarmı? Ümuri-milliyyəmizi [milli işlərimizi] bunlara həvalə edə bilərizmi? Yəqinimdir ki, bu sualların cavabları hamıya məlum və aşkardır.

Təəccüb burasıdır ki, bunların hamı partiyaları, sağdan sola qədər, burjuylarından demokratlarına qədər hamısı şimal fatehlərini gözləyirlər. Kimisi Denikini, kimisi də bolşevikləri... Xülasə, hər kəs olur-olsun, ancaq şimaldan gəlsin. Azərbaycanlıların da canı cəhənnəmə.

Pəs [elə isə], milləti-hakimədən, yəni türklərdən kifayət edəcək qədər sədaqətkar məmurları ərsəyə gətirməyincə, səltənətimizin rişədar [kök salmasına] və möhkəmliyinə inana bilmərіz.

Azərbaycanımızı bolşevik və daşnakların çəngalından [caynağından] xilas etmək üçün yüz minlərlə cavanlarımızı şəhid verdik, bir hökumət təsis etdik. Lakin bununla məsələnin müqəddiməsi ancaq başlandı. Əsl-əsası isə müxtəlif müəssisələr üçün namuskar məmurlar yetişdirməlidir. Vəilla [yoxsa], şəhidlərimizin qanı hədər yerə gedər.

İştə, həmin məmurlar məktəb görmüş, məlumatlı mütəxəssislərdən ibarət olduğu üçün məktəblərimizdə bunların yetişdirilməsi üçün gərək çalışaq. Bu barədə gələn dəfə.

*Fərhad Ağazadə*

## UNUTMUŞLAR

"Dağıstan" qəzetəsinin son nömrələrindən birisində bu sərlövhə ilə bir məqalə yazılmışdır ki, həm qismən Azərbaycan həyatına aid, həm də Cibaliyyun İttihadı [Birləşmiş Dağlılar Respublikası] dövlətinin hökumət işlərinə işıq salan bir fəqərə [hadisə] olduğundan, eynilə iqtibas və qarelərimizə [oxucularımıza] təqdim ediriz:

Keçən sənə dekabr ayında Çermoyevin hökuməti istefa verdikdən sonra Pşemaxo Kotsev cənablarının təhti-rəyasətində [başçılığı altında] yeni bir hökumət təşkil olmuşdu. O vaxt Teymurxanşuradakı İngiltərə heyətinin rəisi hökumət rəisinə rəsmən bu sözləri söyləmiş imiş:

*"Dağıstanın, Cibaliyyun İttihadı Cümhuriyyəti daxilində olmaq Müttəfiqlər indində müqərrər [qərarlaşdırılmış] bir şey deyildir.*

*Cibaliyyun İttihadı Cümhuriyyəti təsdiq olunacaqmı, olunmayacaqmı, bunu istiqbal [gələcək] göstərəcək. Fəqət siz dağıstanlılara söyləyiniz ki, onlar Azərbaycanla ittihad etsinlər və bilsinlər ki, Terek vilayəti və sairə Denikinin təhti-nəzarətində [nəzarəti altında] qalacaqdır."*

Bu mühüm və əmiq [dərin] məsələni yalnız rəisi-hökumət cənablarının qulaqları eşitmişdir. Bu mühəqqəq [şübhəsizdir]. Ehtimal ki, sair hökumət əzaları [üzvləri] dəxi bunu rəisi-hökumət tərəfindən eşitmişlərdir. Fəqət Məclisi-Məbusan əzaları bu sözləri eşitməkdən və bilməkdən bilkülliyyə məhrum qaldı. İştə Məclisi-Məbusan ilə hökumət arasında olan münasibət...

Bu sənə 1-ci apreldə Qroznıda vaqe olan ictimalarda [yığıncaqlarda] məzkur [deyilən] İngiltərə heyətinin rəisi kəndi sözlərini təkrar Çeçenistan qubernatoru dağıstanlı miralay [polkovnik] Məhəmməd Cəfərova söyləmiş və əlavə etmiş ki:

*"Mən bunu rəsmi surətdə söyləyirəm. Bir qaç ay müqəddəm [qabaq] hökumət rəisinə dəxi söyləmişdim. Fəqət rəisi-hökumət mənim sözümə əhəmiyyət vermədi zənn edirəm."*

Cəfərov Dağıstana övdət etdikdə [qayıtdıqda] Məclisi-Məbusan əzaları bunu anlar və dərhal hökumət rəisindən məlumat istərlər. Hökumət rəisi cavabən, "Doğru, söyləmişdi, fəqət mən unutdum" deyər.

Əvət, unutmuşlar. Dağıstan üçün həyat və ya məmat [ölüm-qalım] məsələsi məsabəsində [yerində] olan bu məsələyi-mühimmə hökumət rəisi xatirindən çıxmış.

Azərbaycanla ittihad məsələsi bir qaç dəfə Məclisi-Məbusanın Dağıstan məbusları tərəfindən mövqeyi-müzakirəyə qoyulmaq tələb edilmişsə də, şimaldan gələn məbusların və Dağıstandan olub da onlara tərəfdar olanların ədəmi-müvafiqətindən [münasib görməməsindən] daima təxir olunurdu.

Miralay Cəfərovdan bu məlumat alındıqdan sonra Dağıstan məbuslarının bəziləri bu məsələni qəti surətdə mövqeyi-müzakirəyə qoyulmağı tələb etdilər. Bu dəfə dəxi şimaldan gələn məbuslardan maəda [başqa], Dağıstan məbuslarının bəziləri, hətta şimdi Azərbaycana ən sadiq dost olanlar və Azərbaycanı məlcəgah tutanlar [özlərinə sığınacaq yer kimi görənlər] buna mane olmağa başlamışdılar. Fəqət dağıstanlılardan ittihad tərəfdarı olanların israrı ilə bu məsələ xüsusunda layihə yazmaq üçün Məclisi-Məbusan tərəfindən bir komisyon intixab edilmişdi [seçilmişdi]. O günlərdə siyasətdə olan təğyirdən [dəyişiklikdən] dolayı komisyon üçün işləmək mümkün olmadı.

## "İSTİQLAL" QƏZETƏSİNƏ CAVAB

19 nömrəli qəzetənizin üçüncü səhifəsinin üçüncü sütununda mənə xitabən yazılan "Tarixi bir mütaliəni tənqid: tənqidi tənqid" sərlövhəli məqalənizə müfəssələn verdiyim cavabı şimdiyə qədər qəzetənizə dərc etmədiyiniz üçün pək qısa olaraq "Azərbaycan"da cavab verirəm. Burada "Millətlərin qurtuluşu" adındakı təfriqənizi müvərrix [tarixçi] Əhməd Rəfiq [Altınay] bəyin "Prussiya nasıl yüksəldi?" ünvanlı kitabından tərcümə (!) etdiyinizi söyləyəcək deyiləm. Yalnız şunu ərz etmək istərəm ki, 329-330 sənələri 18 kanuni-əvvəl tarixli İstanbul, Bursa və İzmir qəzetələrini gətirərsəniz, Osmanlı türklərində də istiqlal bayramları mərasimləri yapıldığını öyrənmiş olarsınız, əfəndim.

*Həsən M. oğlu*

## BAKI XƏBƏRLƏRİ

**Erməni-müsəlman münasibəti**

Bazar günü iyulun 6-ı saat 1-də Ermənistan Hökumətinin siyasi nümayəndəsi Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətləri ilə Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov cənablarını ziyarət etmişdir.

Erməni nümayəndəsi Rəisi-vükəla qarşısında Şəki, Ərəş və Göyçay qəzaları ermənilərinin Ermənistana köçürülməsi haqqında bir məsələ qaldırmışdır. Rəisi-vükəla bu günlərdə hökumət tərəfindən baxılacağını xəbər vermişdir.

Məhəmməd Yusif Cəfərov ilə [Tiqran Arutyunoviç] Bekzadyan erməni-müsəlman münasibəti, köçəri, qaçqın və Qarabağ məsələləri haqqında tamam iki saata kimi söhbət etmişlərdir. Sonra yalan xəbərlər yazmaqla hər iki tərəfin arasını gərginlədən mətbuata icrayi-təsir etmək məsələsindən danışılmışdır.

Müsəlmanların Ermənistanda halını və ermənilərin də Azərbaycanda həyatını təhqiq etmək üçün ümumi bir komisyon təşkili haqqında razılıq əmələ gəlmişdir. Komisyon hər iki tərəfin Parlamanı əzasından [üzvlərindən] təşkil olunaraq, Müttəfiq komandanlığının da nümayəndəsi olacaqdır. (Arzu olunmuşdur ki, Müttəfiq komandanlığı nümayəndəsi rusca bilən olsun.) Komisyon istər Ermənistanda, istər Azərbaycanda təhqiqat yapandan sonra parlamanlarına və mətbuata xəbər verəcəkdir.

**Qəzetələrin bağlanması**

Hökumətin binagüzarlığı [sərəncamı] ilə Rus Milli Şurası mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] olan "Yedinaya Rossiya" ilə bolşevik qəzetəsi "Nabat" dünəndən etibarən bağlanmışdır.

**Pud vergisi**

Bununla ümuma bildirilir ki, Azərbaycan dəmiryolu ilə gələn mallardan pud vergisi birinci Bakı mövqifində [stansiyasında], dənizlə gələnlərdən isə "Vostoçnı obşestvanın" 22 nömrəli körpüsündə alınacaqdır.

**Darülfünun haqqında**

İyulun 8-də Şurayi-Vükəla [Nazirlər Kabineti] Maarif Nəzarətinin Bakıda darülfünun [universitet] açmaq layihəsinə baxıb qərar qoymuşdur ki, iki deyil, dörd zeyldəki [aşağıdakı] şöbələr açılsın: 1) Hüquq, 2) Fizika-riyaziyyat, 3) Tarix-ədəbiyyat və 4) Tibbiyyə şöbəsinin dörd birinci sinifləri.

**Azərbaycan əmanət sandıqçası**

Azərbaycanda əmanət sandıqları (sbereqatelnı kassa) açmaq barəsində tərtib vermiş olduğu layihəyə əlavə olaraq Maliyyə naziri bəyan edir ki:

"Azərbaycanda 72 əmniyyət sandıqçası vardı ki, 140 şəxsdən 60 milyon rubla saxlamaqda idi. İndi camaatın əlində külli miqdarda pul vardır ki, maliyyə işlərini çox əngələ salır. Camaatın etibarını qazanmış hökumət bu pulları toplayıb lazım gələn yerinə yollar və bununla da pul buraxmaq məsələsini ortadan götürmüş olar.

Yeni açılacaq sandıqçaların əsası üçün Rusiya qanunu götürülmüşdür ki, Azərbaycan siyasi və iqtisadi əhvalına nisbətən təğyir, təbdil edilmişdir [dəyişdirilmiş, düzəliş verilmişdir].

14 mərkəzi sandıqçalardan 10-u və 49 şöbələrlə məlumat vermişlər. Onlarda 11 milyon pul vardır. Lənkəran, Zəngəzur, Şamaxı və Zaqatala bəzi siyasi səbəblərdən dolayı məlumat verməmişlərdir. Bunu bildirmək lazımdır ki, hökumət hamı yeni pulları və 15 sentyabrdan sonra qoyulanları təmin edir."

**Yusif Vəzirovun məruzəsi**

Azərbaycan Hökumətinin Ukrayna və Krım nümayəndəsi və "Müsavat" firqəsinin Kiyev şöbəsinin rəisi Yusif bəy Vəzirov iyulun 7-də "Müsavat" komitəsinə məruzə oxuyacaqdı. Komitə o gün qərar qoymuşdur ki, məruzə təxirə salınıb ümumi surətdə oxunsun. Bu günlərdə Yusif bəy mühazirəsini oxuyacaqdır.

**Yeni tranzit layihəsi**

Alınmış məlumata görə, hökumət yeni tranzit üsulu tərtib verir. Bu vaxta kimi Gürcüstanla etilaf [razılıq] olmuşdu ki, İran, Dağıstan və Türküstandan gələn mallar ancaq Gürcüstana tranzit hesab olunurdu. Bu növlə İran, Dağıstan, Türküstan və qeyri yerdən gəlib Azərbaycan və ya Gürcüstan təriqi [yolu] ilə başqa bir dövlət torpağına gedən mallar tranzit olmayırdılar. Yeni üsul isə tranzit məsələsini yüngülləşdirəcəkdir.

**Bakıda fransız kapitalı**

Bakıda əlan [indi] bir fransız taciri bulunur. Tacir Marseldən gəlib mal mübadiləsi şərti ilə Azərbaycandan bəzi şeylər alıb aparmaq istəyir. Lakin Azərbaycan Hökuməti hənuz bir razılıq verməmişdir.

**Birjada**

Kerenski minliklər alınır 1.450, satılır 1.550 manata. 250 manatlığın dördü 1.250 manata, satılır 1.300 manata. Yeni Nikolay 500-lüyü 1.700, satılır 1.750 manata. Köhnələri alınır 1.200, satılır 1.400 manata. Nikolay 100-lüyü 300 manata, satılır 350 manata. Zaqafqaziya bonu 3 prosent.

**Varid olmuş [gəlmiş] mallar**

İyulun 3, 5 və 6-da Bakıya aşağıda göstərilən yerlərdən mal gətirilmişdir.

Zaqafqaziyadan: qurşaq dəmiri 1.500 pud, spirt 400 pud, kibrit 350 pud, hazırlanmamış dəri 550 pud, taxıl 110 pud, şəkər (pesok) 302 pud, kartofel 250 pud.

Salyandan: buğda 3.000 pud, çiyid 6.000 pud, sazan (balıq) 2.650 pud.

Kür başından: çiyid 3.500 pud, pambıq 2.000 pud.
Məşhədsərdən: buğda 10.000 pud.
Astaradan: səbzə 3.700 pud.
Tazəşəhərdən: səbzə 800 pud.

* Dünən Tazəşəhərdən "Tamara" paroxodu ilə beş vaqon pambıq, bir vaqon kişmiş gətirilmişdir.

**Bakıdan çıxarılıb**

Hökumətin izni ilə İrana aparılıb: cövhər [kerosin] 22.000 pud, neft 1.000 pud, benzin 1.500 pud, mazut 1.000 pud.

**Silah oğurluğu**

29 iyun saat 11-də şəhər polisinin ehtiyat naçalniki [rəisi] Bəydəmirov Azər-baycan Hökumətinin silah və mərmi zavodu mühafizəsini təhqiq etmək üçün gedərkən, zavodun qapısından bir az məsafədə zavoddan bir yük avtomobili çıx-dığını görür. Avtomobildə tüfəng qundaqları görükürmüş. Naçalnik şübhələndiyinə görə avtomobili saxlayıb axtarmışdır. Axtarış nəticəsində avtomobildən 50 tüfəng tapılmışdır. Tüfənglər şəhər polis idarəsinin olub, zavoda təmir üçün verilibmiş. Zavod müdiri Utvinski Bəydəmirova təklif etmişdir ki, 5.000 manat alıb tüfəngləri buraxsın və əlavə etmişdir ki, tüfənglər müsəlmanlar üçün göndərilir. Bəydəmirov razı olmayıb Utvinskini həbs etmək istəmişsə də, qaçmışdır.

Sonra təhqiqatdan məlum olmuşdur ki, oğurluq bu surətlə vaqe olmuşdur: Buzovna əhli Əliəkbər Abdullayev dəyirmanında Timofey Repixa adlı bir rus xidmət edirmiş. Bu Repixa, Utvinski ilə tanış olmuş. Utvinski onlara bir neçə dəfə qonaq getmiş, Abdullayevlə də tanış olmuşdur. Utvinski Abdullayevə və həmin kənd əhli Şıxəli Əliyevə 50 tüfəng təklif etmişdir. Onlar da razı olub ayın 28-də tüfəngləri aparmaq üçün qərarlanmış yerə gəlmişlərdir. Repixa kəndliləri Adolf Malışko nam [adlı] bir nəfərin mənzilinə aparmışdır. Adolf telefon vasitəsilə Utvinskiyə xəbər verib və onun rizası ilə Çornıqorod Ştopperin zavodundan bir yük avtomobili tələb etmişdir. Avtomobili Zarluqin adlı bir nəfər gətirmişdir. Repixa, Malışko, Əliəkbər və Şıxəli avtomobilə oturub hökumət zavoduna gəlmişlər. Bir az qalmış Əliəkbər və Şıxəli düşüb dayanmışlar. Başqaları isə tüfəngləri gətirmək üçün zavoda daxil olmuşlardır. Burada hamısı Utvinskinin otağına girib şərab içməyə başlamışlardır. Bu zamanda sklad [anbar] naziri [müfəttişi] Kapustixa tüfəngləri avtomobilə yükləyib üstünü də örtmüşdür.

Ondan sonra Malışko şoferə əmr etmişdir ki, yola çıxıb Əliəkbər və Şıxəli ilə bərabər Buzovnaya getsinlər. Lakin qapıdan çıxarkən Bəydəmirov tərəfindən tövqif [həbs] edilmişdir. Bütün zikr olunan şəxslər həbsə alınmışlar.

**Mərmi skladı kəşfi**

Təhərri [axtarış] polis agentləri tərəfindən dəniz kənarında 23-95 nömrəli evdə (körpü) bir sklad tapılmışdır. Skladda 1068 dənə top gülləsi tapılmışdır. Sklad Vasili İvanoviç Suklyarevindir.

**Əsgəri ləvazimat tapılması**

Telefonnı küçədə, 37-29 nömrəli evdə əsgəri ləvazimat skladı tapılmışdır. Skladda bu şeylər varmış:

Qaragül saldat papağı 9 dənə, boz saldat papağı 75, saldat qazanı 30, telefon simi, xəstəxana tuflisi 40 cift, gön sumka, suqaynadan qazan, solyanoy kislota [xlorid turşusu] 600 pud, saldat gerbi [nişanı] bir neçə boçka, köhnə Amerika ayaqqabıları mindən yuxarı, köhnə mərmilər, çuqun 3.000 pud, furqon oxları 25 dənə.

Bu şeylərin sahibi Rafael İvanoviç Ekimyan, Artyomoviç Mamatsuyevdir. Sklad bağlanmışdır.

**Mədən dairəsində məktəblər güşadına [açılmasına] dair**

Maarif naziri Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsinə məlum etmişdir ki, bu il sentyabr ayı əvvəlindən şəhərdə bir çox ibtidai məktəblər və o cümlədən, mədən dairəsində "Müsavat" firqəsi şöbələrinin neçə vaxt bundan əqdəm [qabaq] göstərmiş olduqları yerlərdə dəxi birər məktəb açılması Nəzarət tərəfindən təhti-qərara alınmışdır.

**Şimala mal göndərilməsi haqqında**

Azərbaycan Gömrük İdarəsi Bakı qubernatorluğuna müraciətən, Bakı və ələlümum Cümhuriyyət torpağından Dağıstana və Şimali Qafqaziyaya mal göndərilməsinin qadağan edilməsini rica etmişdir. Bundan sonra bu barədə xüsusi binagüzarlıq edilənə [sərəncam verilənə] qədər Yalama mövqifindən [stansiyasından] o tərəfə zəruri mallar və ələlxüsus taxıl buraxılmayacaqdır. Dağıstandan Azərbaycana dəxi taxıl və bəzi mühüm şeylərdən əlavə heç bir mal buraxılmayacaqdır.

**Yarım milyon**

Bakı qalabəyisi [komendantı] qubernatora müraciətən Bakıdakı süvari polis nəfəratı atları üçün alaf almaqdan ötrü yarım milyon manat təxsis edilməsi [ayrılması] xüsusunda təşəbbüsatda bulunmağı rica etmişdir.

**Torpaq vergiləri**

Azərbaycan Kazyonnı Palatası [Xəzinə Palatası] Daxiliyyə Nəzarətinə məlum etmişdir, fabrika və zavod təmir edilmiş olan yerlərdən 2 faiz torpaq vergisi alınması qərardad edilmişdir. Hal-hazırda hərəkətdən qalmış olan zavod və fabrikalar böylə vergilərdən azad edilirlər. Buna binaən [buna görə], axırıncıların siyahısı tez bir zamanda Palataya təqdim edilməlidir.

## "MİLLİ YARDIMÇI ORDUSU"

Ay yarımdan bəri könüllü olaraq qışlalar [kazarmalar] qarşısında soqaqlarda təlim almaqda və "Yardım alayı" namı [adı] ilə məşhur olan əfradın [əsgərlərin] başçıları, yəni mütəşəbbisləri tərəfindən 7 təmmuzda ikinci iclas dəvət edildi. İclas vali müavini Müseyib Axıcanlı cənablarının sədarəti və Əliabbas Müznib əfəndinin katibliyi ilə açılır. Nəticədə zeyldəki [aşağıdakı] qətnamə çıxarılır:

*"Baş komandanlıq"*

18 nəfər mütəşəbbis heyətdən əsamisi zeyldə [adları aşağıda] zikr olunan 13 zəvat [şəxs] "Baş komandanlığa" intixab edilir [seçilir]:

Vali müavini Müseyib bəy Axıcanlı (sədr), Zülfüqar bəy Hacıbəyli (sədr müavini), Əliabbas Müznib (katib), Şamil bəy Şirinbəyli (xəzinədar).

Üzvlər: Məşhədi Baxış Ağazadə, Səttar Mərdanlı, Zeynal bəy Səlimbəyli, Süleyman bəy Səlimbəyli, Mahmud bəy Ağabalabəyli, Nəcəfəli Kərimli, İsmayıl Rəhimli, Məşhədi Həsən Eyvazlı, Hüseynqulu Sarablı.

*Fövqəladə heyət*

Təcili məsələlər həlli haqqında çabuq toplanmaq üçün balada məzkur [yuxarıda deyilən] "Baş komandanlıq" heyətindən 5 zat [şəxs] "Fövqəladə heyət" intixab edilirlər:

Müseyib bəy Axıcanlı, Zülfüqar bəy Hacıbəyli, Səttar Mərdanlı, Zeynal bəy Səlimbəyli, Şamil bəy Şirinbəyli.

*"Ərkani-hərbiyyə rəyasəti"*

Təlim almış yardımçı əfradını nizam-intizam təhtində [altında] idarə etmək icab etdiyi təqdirdə, məmləkətə yaymaq üçün hərbaşina zəvatdan mütəşəkkil [hərbi biliklərə malik şəxslərdən ibarət] bir "Ərkani-hərbiyyə [Hərbi qərargah] rəyasətinin" təşkili fərz olduğundan, əksəriyyətiara [səs çoxluğu] ilə zeyldəki zəvat "Ərkani-hərbiyyə rəyasətin"ə intixab edildilər:

Məhəmməd Cəmil bəy - Birinci alay komandanı, İbrahim Ədhəm əfəndi - alay komandanı müavini, İsmayıl Fani - ləvazim rəisi, Xəlil Həsənzadə - katib və müvəqqət xəzinədar.

Tabor komandanları: Həsən Təhsin əfəndi, Xəlil Xəlilzadə, Dadaş Əlimuradzadə.

## FƏHLƏ HƏYATINDA

**"Bəratülqövl"**

7 təmmuz tarixində düşənbə [bazar ertəsi] günü saat 2-də Mədənlər mərkəzi "Müsavat" idarəsində ətraf kəndlər "Müsavat" şöbələri nümayəndələrinin iştirakı ilə Mərkəzi şöbə heyəti-idarə əzasının [idarə heyəti üzvlərinin] növbəti iclası təşəkkül edib, bəzi iqtisadi məsələlərdən sonra Qarabağ məsələsi dəxi müzakirəyə vəz edildi [qoyuldu]. Qarabağ məsələsi müzakirəsində bütün ətraf mədənlərdə çalışan müsəlman fəhlə nümayəndələri dəxi iştirak etdilər.

Fəhlə nümayəndələri artıq təhəyyüc və qələyan ilə [həyəcanla və cuşa gələrək], kəndi iclas növbələrindən xaric həmin Qarabağ məsələsini müzakirə etmək üzrə Mərkəzi şöbə idarəsində cəm olmuşlardı.

Məsələni ətrafı ilə müzakirə bədində [sonrasında] türk "Azərbaycan" qəzetəsi vasitəsilə hökumətə müraciət etmək qərara alındı:

*Şərur, Naxçıvan, Lənkəran qəzalarında sükunət edib pançeyizalimanələrdə əl-ayaq vurmaq haləti ilə faciənə bir surətdə tərki-həyat etməyə məcbur olan millətdaş və vətəndaşlarımızın təzəllümatını [zülüm altında inildəmələrini] eşidən hökumati-mətbuəmizin [təbəəsi olduğumuz hökumətimizin] məzkur [adı çəkilən] qəzalarda yaşayan türk füqərayika-sibəsinin xilası uğrunda ciddi iqdamatına müntəzir ikən [ciddi addımlarını gözləyərkən], Zəngəzur kəndlərində düşmən tərəfindən amansız bir halətdə məhsur [mühasirədə; çarəsiz] qalmış əlsiz-ayaqsız qadınların və məsum yavruların "imdad, imdad" sədaları, Cəbrayıl və Cavanşir qəzalarının atəşin səhralarında qış zamanı sükunət edib bahar mövsümü Zəngəzur yaylaqlarına köçməklə pərvərişyab olub [bəslənib] imrari-məişət edə gəlmiş [ömür sürmüş] elat (köçəri) camaatının südəmər balalarının daşa təsir edici ahu-ənini [ahnalələri] və qoyun-quzuların zarıltısı daha şiddətlə fövqəltəhəmmül bir ahəngi-dəhşətnümun [dözülməz, dəhşətli bir səs] ilə eşidilməyə başladı.*

*Binaənileyh [ona görə], bu yaxın günlərdə Qarabağ məsələsini qəti surətdə həll etmək uğrunda ciddi tədbirlər görülməsini, yaxud əldə silah olaraq kəndi qan qardaşlarımızın imdadına qoşmaq üçün Bakı ətrafında sükunət etməkdə olan müsəlman işçi və kəndçi zəhmətkeş xalq camaatına icazə ətasına [icazə verilməsinə] müsaidə buyurulmasını hökumətimətbuəmizdən istirham və rica ediriz.*

*Hökuməti-mətbuəmizin şüunatına nisbətən ehtiramatifaiqəmiz [təbəəsi olduğumuz hökumətin adsanına böyük hörmətimiz] xudsəranə hərəkatda [özbaşına hərəkətlərdə] bulunmağa yol verməyirsə də, hökumətimizin fövqi-məzayayi-insaniyyə [insani keyfiyyətlərin fövqündə] olaraq təqib etdiyi məsləki-sülhcuyanəsi [sülh-pərvərlik yolu] alçaq dənilərin [rəzillərin] bihəyalıqda cəsarət artırmalarına səbəb verdiyini gördüyümüz cəhətə, məyeyi-səbrimiz tükənib, kəndi vətən və millətdaşlarımızın xilası uğrunda birdəfəlik ölməyə hazır olduğumuzu dəxi ərz etməyə məcburuz.*

## AZƏRBAYCANDA

**Lənkəran faciəsi**

İyun ayının 11-ində Astara mahalında Hüseyn Ramazanov öz müsəlləh [silahlı] dəstəsi ilə Astara şəhərində hökumət edən bolşevik ordusu ilə vuruşmağa girişib, Astaranı təhti-idarəsinə [idarəsi altına] alaraq hökumət qərar vermişdir. Ondan sonra 3 gün müharibə davam edir. Lənkəranda vəhşətamiz bir surətdə bolşevik dəstələri dalbadal özününkülərə yardım edirlərdi və dava meydanına gedirlərdi. Sonra Hüseyn xan dəstəsinə Putəsər mahalının əhalisi qoşulub bolşeviklərin üstünə böyük hücum yapırlar. İşi müşkül gördükdə bolşeviklər ayın 17-sində Şahağacına çəkilirlər.

Ayın 18-ində Lənkəranda ümumi səfərbərlik elan edilir. Ayın 20-sindən şəhərin mötəbər və tacirlərini tövqif edib [tutub] həbsə alırlar. Bu iş şəhər əhalisinə bilafərqi-məzhəb [məzhəb fərqi olmadan] təsir etdi. Xalqda həyəcan başlandı. Dükan, bazar bağlandı. Gecələr evlərdə yatmaq olmayırdı. Oğru bolşeviklər şəhər müsəlmanlarını qarət etməkdə böyük cəsarət göstərirlərdi.

Ayın 24-ündə, saat 2 radələrində Muğan dəstəsi Lənkərana atışma ilə girib, ümum idarələri, topları və saldat kazarmalarını əhatə altına alıb, bolşeviklərin komissarlarını dəxi tövqif etdilər. Sonra nə tövr oldusa da, Muğan qoşunu şəhəri buraxıb geri çəkildilər.

İyun ayının 26-sında, axşam saat 10 radələrində tüfəng, pulemyot və top atışmaları başlandı. Güllələrin səsindən şəhər zəlzələ edirdi. Sübh saat 9-da Muğan dəstəsi şəhəri buraxıb dala qayıtmağa üz qoyurlar. Camaat kəndlərə dağıldı. Şəhərdə adlarını bolşevik qoyan saldatlar dükanları və evləri qarət edirlərdi. Çox yerlərdə ermənilər müsəlman zənanlarının [qadınlarının] ismətinə dəxi təcavüz etmişlərdi. Şəhərin müsəlman hissələri tarumar və xarabazar oldu. Şəhərdə və ətrafda iyirmi nəfərdən ziyadə müsəlman qətl edildi. Məşhur qaçaq, qaniçən, namussuz Balaməhəmməd dəxi bolşeviklərə qoşulmuşdu. Qarət edən şeylərin əksərisini evinə göndərirdi.

Ayın 28-ində məxluq [camaat] şəhərə övdət etdisə də [qayıtsa da], evlərdə rahat yatmaq olmayırdı. Bivicdan, məsləksiz Ağayev şəhərdə böyük zülmə və qan tökülməsinə bais oldu. Adını "Ədalət" firqəsi qoyubsa, ədalətsiz divan edir. Şimdi Lənkəranın halı nəhayət dərəcə qorxuncdur.

*Lənkəranlı*

**Kazarmada Oruc bayramı**

Xankəndində Oruc bayramı günü ruhani atamız alay mollası Ağa Mirzəəli Naxçıvanlı cənabları bizləri bir yerə cəm edib namaz qıldırıb və namazdan sonra şöylə bir nitq ki, baisi-təşviq, söylədi:

Əsgərlərim, hər alayda bir ruhani olur. Ruhaninin vəzifəsi təriqi-həqiqəti [həqiqət yolunu], şəriəti-nəbəvini [peyğəmbərin şəriətini] məxluqata xəbər verməkdir. Allah-taala buyurubdur: "Vəltəkün min-küm ümmətün yədunə iləl-xeyri və yəmürunə bilmərufi və yənhəvnə ənil-münkəri və ülaikə hümül-müflihun." "Gərək olsun sizlərdən bir tayfa ki, həməvəqt [həmişə] çağırsın xeyir tərəfinə, əmr eyləsin yaxşı işlərə və qaytarsın pis işlərdən."

Bu gün sizləri cəm eyləmişik bu məkana yadınıza salmaq üçün ki, bu gün Oruc bayramıdır. Qanuni-şər' ilən [şəriət qanunu ilə] gərək bu günü müsəlmanlar bayram hesab eyləsin və indiyə kimi bizlər şərəfli günlərimizi tanımazdıq və tanıdığımız halda onların ehtiramını saxlamağımız mümkün deyildi. Amma indi, əlhəmdüllah, bizlər üçün mümkündür bu günlərin şərəfini saxlayaq və düşünək bu məkan nərədir ki, kazarmaların arasında, içində Allahu-əkbər səsi ucalır.

Bu neməti-üzma [böyük nemət] bizim üçün hardan üz verdi? Bu nemətin müqabilində gərək Allahı unutmamaq və yada salmaq. Hər millət öz dini üzərində yaşayır. Din bir həblül-mətin deməkdir. Gərək insanlar onun cərgəsinə gəlsin.

Dini, şəriəti saxlayan əsgərdir. Əgər əsgər olmasa canımız, malımız, dinimiz məhv olar gedər. Allah-taala Qurani-əzimdə əsgərliyi çox tərif, tövsif buyurubdur. "Lə yəstəvil-qaidunə minəlmümininə qeyru ulizzərəri vəl-mücahidunə fi-səbi-lillahi bi-əmvalihim və ənfüsihim fəzzə-ləllahul-mücahidinə bi-əmvalihim və ənfüsihim ələl-qaidinə dərəcətən və küllən vəədəl-lahul-hüsna və fəzzələl-lahul-mü-cahidinə ələl-qaidinə əcrən əzimən." "Bərabər olmaz zərər çəkməyən möminlərlə zərər çəkənlər; fəzilətli eyləyib mücahidlərini, malını, özlərini – oturanlardan; mücahidlərin böyük əcri var."

Allah yanında əsgərlik hörmətini biləsiniz. Əvvəl mücahid olan peyğəmbərdir. Təlim almaq əmrini zülüm və kazarmalarını həbsxana hesab etməyəsiniz. Hər kəs qaçsa – peyğəmbərdən, şəriətdən qaçıb dini buraxmış olar. Sizlər vətənin ətirli gülləri, çiçəklərisiniz. Sizlə məzlumlar zülümdən xilas olub rahat yaşarlar. Sizlə məmləkət əmnaman olar. Gərək əl-ələ, ürək-ürəyə verib bu neməti əldə saxlayaq. "Hümmətül-rical təqləül-cibal." "Kişilərin hümməti, söz birliyi dağları yıxar." Fürsət əldə ikən çalışaq. "Fürsəti fövt eyləməz aqil, məgər nadan ola."

Allah-taala bu günün hörmətinə hökumətimizi möhkəm eyləsin. Parlamanda çalışanlarımızı səlamət, [Səməd bəy] Mehmandarov, [Həbib bəy] Səlimov, [Əliağa] Şıxlinski cənablarını səlamət, komandanlar, zabitlərini səlamət eyləsin. Yaşasın əsgərlərimiz!

*Altımcı bölükdən İlyas Qadir oğlu*

## TEATRO VƏ MUSİQİ

**Şərqi konsert**

Bu gün pəncşənbə [cümə axşamı] günü iyulun 10-unda Hökumət Teatrosunda məşhur xanəndə Şuşalı Seyid və opera artisti Hüseynqulu Sarablı tərəfindən "Şərqi konsert" veriləcəkdir. Konsertdə başqa müsəlman artistləri də iştirak edəcəklərdir. Xanəndə İslam [Abdullayev] "Yetim" segahı oxuyacaqdır. Konsertin axırında İsa bəy Aşurbəylinin yazmış olduğu 2 pərdəli məşhur "Azərbaycan" adlı faciə mövqeyi-tamaşaya qoyulacaqdır. Tamaşa axşam saat 9 tamamda başlanacaqdır. Biletlər satılır teatrın kassasında.

**"Leyli və Məcnun"**

Sabah cümə günü iyul ayının 11-ində Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən mütəntən [təntənəli] bir surətdə "Leyli-Məcnun" operası mövqeyi-tamaşaya qoyulacaqdır. Pərdədən qabaq Zülfüqar bəy Hacıbəyli tərəfindən yazılmış olan təzə milli şərqi "Xudam məni yaratdı" çalınıb xor ilə oxunacaqdır. Tamaşa axşam saat 9-un yarısında başlanacaqdır. Biletlər satılır teatrın kassasında.

**Balaxanıda müsamirə**

Orucluq bayramı münasibəti ilə iyul ayının 1-də Balaxanı Mirzəyev qardaşlarının teatro zalında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxanı kənd şöbəsi nəfinə [xeyrinə] olaraq müsamirə [konsert] tərtib verildi. Balaxanı həvəskar cavanlarının iştirakı ilə 3 pərdədən ibarət məzhəkələr mövqeyi-tamaşaya qoyulmuşdu:

1) "Millət dostları";
2) "İki kələkbaz";
3) "Nə qanır, nə qandırır".

Və əlavə, Mirzəyev qardaşlarının kontorşiki Ruben Aleksandroviçin iştirakı ilə bir pərdədən ibarət "Kələk" məzhəkəsi mövqeyi-tamaşaya qoyulmuşdu.

Üçüncü pərdədən sonra səhnədə Amerika torqu Barolun iştirakı ilə gətirildi və bu torq dəxi "Müsavat"ın nəfinədir [xeyrinədir] deyə bəyan etdi.

Tamaşanın axırında Abbasqulu Kazımzadə cənablarının tərəfindən leksiyalar oxundu və o gündə millətləri əl-ələ verib bir-birinə kömək etmələrinə və köməklikdə mənfəətdar olduqlarını və üzümüzə gələn qara qüvvələri birliklə məhv etməyə çağırırdı.

Leksiyadan sonra Asiya rəqsləri oldu. Bununla cəmi ogünkü teatroda iştirak edənlərə, xüsusən, erməni, rus və gürcü yoldaşlarımıza idarə tərəfindən təşəkkürümüzü yetiririz ki, necə ki bizimlə əl-ələ verib müsamirəmizdə artıq fəaliyyət göstərdilər. Gələcəkdə də ümidvarız ki, şu millətlər əl-ələ verib, birlik edib xainlik surəti ilə vətənimizə iqdam edənləri məhv edək. Bizim dostluğumuza, mehribançılığımıza mane olan, bizi yırtıcı heyvan kimi bir-birimizin canına salmaq xəyalında olan xainlərə yol verməməliyiz. Onların naqis arzularını ürəklərində qoymalıyız ki, gələcəkdə bizim hürriyyətpərvərliyimizə, bizim mehribançılığımıza, bizim rahat yaşamağımıza, istiqlaliyyətimizə mane olmasınlar.

*Şirmirzə Babazadə*


**Ucuz satılır**

Yekaterinodardan alınmış əla sarı sabun, yeşiyi 2 pud, partiya ilə satılır. Adres: Mehmanxana "Bolşoy Moskovski", nömrə 26. Səhər saat 9-dan 12-yədək və axşam saat 3- dən 5-ədək.

*Əliverdiyev*
*5417*

Zaqafqazın sünniməzhəb idareyi-ruhaniyyəsindən 1912-ci sənə avqustun 28-ində, nömrə 1341 ilə Şamaxı sakini Məhəmmədismayıl Ağaəbdülxalıq oğlunun təvəllüdü xüsusunda verilən metrik şəhadətnaməsi erməni faciəsində məfqud olduğundan [itdiyi üçün] etibardan saqitdir [etibarsızdır]. Hər kəs onu taparsa, borcludur ki İdareyi-Məşixətə pişnihad etsin.

*5418*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümuma elan edir ki:

1) Bakı Azərbaycan dəmiryollarından gələn yüklər üçün pud vergisi bu gündən Nəzarətdə qəbul olunmayıb, Bakı birinci istasyonunda qəbul olunacaqdır.

2) Dəniz təriqi [yolu] ilə gələn yüklər üçün isə pud vergisi Vostoçnı Obşestvanın 22-ci körpüsündə qəbul olunacaqdır.

*T-171*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*
15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.
*Bakı-Tazəşəhər (Krasnovodsk)*
15-ci körpüdən düşənbə [bazar ertəsi], ça-harşənbə və cümə günləri saat 4-də.
*Bakı-Salyan*
19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.
*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*
17-ci körpüdən çaharşənbə günü saat 4-də.
*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*
17-ci körpüdən səşənbə günü saat 4-də.
*Petrovsk-Fort-Aleksandrovsk və geri*
Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.
*Bakı-Petrovsk*
15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*



***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Hökumət Teatrosunda***

"Xudam məni yaratdı": sözləri Əmin Abid Gültəkinə, musiqisi Zülfüqar bəy Hacıbəyliyə məxsus milli mahnı.

***Qismi-rəsmi***

"lira": simli musiqi aləti.

"palmetta": xurma ağacı yar-pağı şəklində bəzək.

"muaret": dalğavarı rənglərə çalan ipək parça növü olan xara (muar) parçanın naxışlarını andıran bəzək.

***Teleqraf xəbərləri***

"Konstantinoqrad": Ukraynanın Xarkov vilayətində, indiki Krasnoqrad şəhəri.

"Yekaterinoslav": Ukraynanın Dneprepetrovsk vilayətində indiki Dnepr şəhəri.

"Suxaçyovka": şəhərtipli qəsəbə; hal-hazırda Ukraynanın Dnepr şəhərinin qərbi hissəsinin adı.

"Novo-Svenç": Litvada indiki Şvenço-nelyay şəhəri.

***Sülh ətrafında***

"Havas": Fransız xəbər agentliyi. 1835-ci ildə təsis edilmişdir. Frans-press agentliyi [Agence France-Presse] daha sonra "Havas"ın bazasında yaradılmışdır.

***Qəzetələrdən***

"Apşteyn zavodu": Tovi Moiseyeviç Apşteynin sahibi olduğu zavod; Kiyevdə yerləşirdi.

***Azdır***

"Qarabulaq": Qaryagin qəza-sının bölündüyü üç polis məntəqəsindən biri.

***"İstiqlal" qəzetəsinə cavab***

"təfriqə": bir mətbuat orqa-nının müxtəlif nömrələrində hissə-hissə çap olunan yazı.

"329-330 sənələri 18 kanuni-əvvəl": burada tarix rumi təqvimlə verilmişdir; [1]329-cu il 18 kanuni-əvvəl miladi təqvimlə 31 dekabr 1913-cü ilə; [1]330-cu il 18 kanuni-əvvəl isə miladi təqvimlə 31 dekabr 1914-cü ilə müvafiqdir.

***Bakı xəbərləri***

"Məşhədsər": İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Babülsər şəhəri.

"Tazəşəhər": Krasnovodsk (indiki Türk-mənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

***Azərbaycanda***

"Vəltəkün minküm ümmətün yədunə iləl-xeyri və yəmürunə bil-mərufi və yənhəvnə ənil-münkəri və ülaikə hümül-müflihun.": "Quran"ın "Ali-İmran" surəsinin 104-cü ayəsi; mənası: "İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir."

"həblül-mətin": "möhkəm ip" mənasına gələn bu ifadə ilə "Quran" və ümumilikdə islam dini nəzərdə tutulur. "Quran"ın "Ali-İmran" surəsinin 103-cü ayəsinin bir hissə-sində deyilir: "Vatəsimu bihəblillhi cəmian və la-təfərrəqu vəzkürü nimətallahi əleyküm..." Mənası: "Hamılıqla Allahın ipinə (dinə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın..."

"Lə yəstəvil-qaidunə min-əlmümininə qeyru ulizzərəri vəl-mücahidunə fi-səbilillahi bi-əmvalihim və ənfüsihim fəzzələllahul-mücahidinə bi-əmvalihim və ənfüsihim ələl-qaidinə dərəcətən və küllən vəədəl-lahul-hüsna və fəzzələl-lahul-mücahi-dinə ələl-qaidinə əcrən əzimən.": "Quran"ın "Nisa" surəsinin 95-ci ayəsi. Mənası: "Zərər çəkmədən (evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən kimsələr bir olmazlar. Allah, malları və canları ilə vuruşanları (evlərində) əyləşən-lərdən dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (savab) vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir."

***Teatro və musiqi***

"Millət dostları": Əbdürrəhim bəy Haqverdiyevin bir məclisdən ibarət tamaşası.

"İki kələkbaz": Bağır Cabbarzadənin bir pərdəli məzhəkəsi.

"Nə qanır, nə qandırır": Mirmahmud Kazımovskinin komediya əsəri.

"Kələk": Fransız müəllifi Gi de Mopassanın əsəri.

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## *Azərbaycanın aqrar ixracı:* artımdan keyfiyyətə



Azərbaycan iqtisadiyyatında qeyri-neft ixracının genişləndirilməsində aqrar və ərzaq məhsulları mühüm yer tutur. Son illərin göstəriciləri kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndiyini təsdiqləyir. Lakin müasir mərhələdə aqrar ixracın inkişafını yalnız onun ümumi dəyərinin artması ilə qiymətləndirmək kifayət deyil. Nə ixrac edirik, ixrac olunan məhsullar nə qədər əlavə dəyər yaradır və satışımız neçə xarici bazar arasında bölüşdürülür? Bu suallar getdikcə daha böyük əhəmiyyət kəsb edir. Aqrar ixracın növbəti inkişaf mərhələsində məhsul strukturunun təkmilləşdirilməsi, əlavə dəyərin artırılması və ixrac bazarlarının şaxələndirilməsi əsas məsələlər sırasındadır. Bu isə daha yüksək əlavə dəyər yaradan məhsulların ixracının genişləndirilməsini və mövcud bazarlarla yanaşı, alternativ satış istiqamətlərinin formalaşdırılmasını tələb edir.

### İxrac artır, bəs strukturu və coğrafiyası necə dəyişir?

2016-2024-cü illər üzrə apardığımız hesablamalar aqrar və ərzaq məhsullarının ixracında əhəmiyyətli artım olduğunu göstərir. Kənd təsərrüfatı və ərzaq məhsullarını əhatə edən HS 01-24 mal qrupları üzrə Azərbaycanın ixracı 2016-cı ildə təxminən 525,5 milyon dollar olduğu halda 2024-cü ildə 1 milyard 105,5 milyon dollara çatıb. Nəticədə 8 ildə artım 110,4 faiz təşkil edib. Bu dinamika aqrar sektorun ixrac imkanlarının genişləndiyini göstərir. Lakin uzunmüddətli perspektivdə ixracın dayanıqlılığı yalnız satışın ümumi məbləğindən deyil, məhsulların çeşidindən, emal səviyyəsindən, yaratdığı əlavə dəyərdən və ixrac bazarlarının müxtəlifliyindən də asılıdır.

İxracın xarici bazarlar arasında nə dərəcədə bölüşdürüldüyünü qiymətləndirmək üçün iqtisadi təhlildə Herfindahl-Hirschman indeksindən (HHI) istifadə olunur. Sadə desək, indeks yüksəldikcə ixrac daha məhdud sayda bazarda cəmləşir, azaldıqca isə ixrac coğrafiyası genişlənir. Təhlilin nəticələrinə görə, HHI 2016-cı ildə 0,394 olduğu halda, 2019-cu ildə 0,556-ya yüksəlib, 2024-cü ildə isə 0,496-ya enib. 2019-cu ildən sonra müəyyən azalma baş versə də, mövcud səviyyə aqrar və ərzaq ixracında coğrafi konsentrasiyanın hələ də yüksək olduğunu göstərir. 2016-2024-cü illərdə aqrar və ərzaq ixracının 110,4 faiz artmasına baxmayaraq, ixrac coğrafiyasında eyni miqyasda şaxələnmə baş verməyib. Deməli, ixracın artması heç də bazarların şaxələnməsi demək deyil.

2024-cü ildə Rusiya Azərbaycanın aqrar və ərzaq məhsulları ixracında 69,9 faiz payla əsas xarici bazar olaraq qalıb. Gürcüstanın payı 6,35 faiz, Türkiyənin 2,44 faiz, Türkmənistanın 2,17 faiz, Almaniyanın 2,10 faiz, Ukraynanın isə 2,04 faiz olub. Digər bazarların ümumi payı 15 faiz təşkil edib. Bu göstəricilər Rusiya bazarının Azərbaycan istehsalçıları üçün mühüm əhəmiyyət daşıdığını göstərir. Ona görə də ixracın şaxələndirilməsi mövcud bazardakı mövqelərin zəiflədilməsi hesabına aparılmamalıdır. Əsas məqsəd Rusiya bazarında formalaşmış mövqeləri qorumaqla yanaşı, digər istiqamətlərə ixracı artırmaq və ixrac coğrafiyasını mərhələli şəkildə genişləndirmək olmalıdır.

### Dövlət proqramı yeni imkanlar açır

Aqrar sektorda istehsal və emalın genişləndirilməsi, daha yüksək əlavə dəyərin yaradılması və ixrac potensialının artırılması dövlətin iqtisadi siyasətində mühüm yer tutur. Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Proqramda diqqət yalnız istehsalın artırılmasına yönəlmir. Daha yüksək əlavə dəyərin yaradılması, rəqabət qabiliyyətinin yüksəldilməsi və dəyər zəncirlərinin inkişafı da əsas hədəflər sırasındadır. İstehsaldan ixraca qədər bütün mərhələləri birləşdirən ixracyönümlü aqrobiznesin inkişafına da xüsusi diqqət yetirilir.

2026-cı ildə qeyri-neft-qaz ixracının təşviqi ilə bağlı qəbul edilən digər qərarlar da bu istiqamətdə yeni dəstək mexanizmləri yaradır. Prezident İlham Əliyevin 9 iyun 2026-cı il tarixli fərmanı ilə qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və ixrac daşımalarının dəstəklənməsi ilə bağlı yeni mexanizmlər müəyyən edilib. 16 iyun 2026-cı il tarixli digər fərman isə mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçıların müəyyən ixrac gömrük rəsmiləşdirilməsi xərclərinin kompensasiyasını nəzərdə tutur. Bu tədbirlər yeni və daha uzaq bazarlara çıxış zamanı ixracatçıların logistika və ixrac əməliyyatları ilə bağlı xərclərini azaltmağa kömək edə bilər.

İxrac coğrafiyasının genişləndirilməsi üçün isə ümumi "yeni bazar" yanaşmasından konkret məhsul-bazar yanaşmasına keçmək vacibdir. Çünki eyni məhsulun müxtəlif ölkələrdə bazar perspektivi eyni olmaya bilər. İxracın şaxələndirilməsi üçün əsas məhsullar üzrə konkret məhsul-bazar xəritələrinin hazırlanmasına ehtiyac var. Potensial bazarın həcmi, idxal dinamikası, mövsümi tələb, mümkün satış qiyməti, logistika məsafəsi və xərcləri, fitosanitar tələblər, sertifikatlaşdırma və qablaşdırma standartları birlikdə qiymətləndirilməlidir. Belə yanaşma "hansı ölkəyə ixrac etmək olar?" sualından daha konkret olan "hansı məhsulu hansı bazara və hansı şərtlərlə ixrac etmək daha səmərəlidir?" sualına cavab verməyə imkan yaradar.

Körfəz ölkələri, Türkiyə, Avropa və Asiyanın ayrı-ayrı bazarları bu baxımdan məhsullar üzrə qiymətləndirilə bilər. Beynəlxalq sərgilərdən və ixrac missiyalarından isə yalnız məhsulların nümayişi üçün deyil, konkret alıcıların müəyyənləşdirilməsi və uzunmüddətli kommersiya əlaqələrinin qurulması üçün istifadə olunması daha məqsədəuyğundur. Digər vacib məsələ məhsulun hədəf bazarın tələblərinə uyğunlaşdırılmasıdır. Bir bazarda uğurla satılan məhsulun eyni formada başqa bazarda da eyni nəticəni verəcəyini düşünmək düzgün olmazdı. Məhsulun çeşidi, ölçüsü, qablaşdırılması, etiketlənməsi, sertifikatlaşdırılması, fitosanitar tələblər və istehlakçı üstünlükləri bazardan bazara dəyişir. Buna görə şaxələndirmə məhsul istehsal edildikdən sonra ona bazar axtarmaq deyil, perspektiv bazarın tələblərini əvvəlcədən öyrənərək istehsal-satış zəncirini həmin tələblərə uyğun qurmaqdır.

Daha geniş ixrac coğrafiyası logistika və saxlama imkanlarına da yeni tələblər qoyur. Xüsusilə təzə meyvə və tərəvəzin uzaq bazarlara çıxarılması üçün soyuq zəncir, çeşidləmə, qablaşdırma və daşınma müddəti həlledici əhəmiyyət daşıyır. Bu imkanların inkişafı Azərbaycan məhsullarının yalnız yaxın ənənəvi bazarlarda deyil, daha geniş coğrafiyada rəqabət aparmasına şərait yarada bilər.

### Əsas hədəflərdən biri əlavə dəyərdir

Lakin coğrafi şaxələndirmə məsələnin yalnız bir tərəfidir. Aqrar ixracın keyfiyyətcə yeni mərhələyə keçməsi məhsul tərkibində və yaradılan əlavə dəyərdə də dəyişiklik tələb edir. Azərbaycanın meyvə sektoruna dair apardığımız ayrıca tədqiqat göstərir ki, 2024-cü ildə təzə meyvə ixracının dəyəri təxminən 485 milyon dollara çatıb. Bu, meyvəçiliyin ölkənin aqrar ixrac potensialında mühüm yer tutduğunu göstərir. Bununla yanaşı, ixrac artımı məhsul və bazar müxtəlifliyinin eyni sürətlə genişlənməsi ilə müşayiət olunmayıb.

Ayrı-ayrı məhsulların dinamikası da fərqlidir. Alma və nar daha yüksək və nisbətən sabit istehsal göstəriciləri nümayiş etdirdiyi halda, 2024-cü ildə ərik istehsalında azalma müşahidə olunub. Bu da bütün aqrar məhsullar üçün vahid ixrac yanaşmasının səmərəli olmadığını göstərir. Ayrı-ayrı məhsulların istehsal potensialı, saxlanma xüsusiyyətləri, logistika imkanları və xarici bazarlardakı rəqabət üstünlükləri ayrıca nəzərə alınmalıdır. Təzə meyvə və tərəvəz ixracının genişlənməsi Azərbaycanın mövcud istehsal üstünlüklərindən səmərəli istifadə baxımından mühüm nəticədir. Lakin həmin istehsal bazası əsasında çeşidləmə, müasir qablaşdırma, saxlama, emal və brendləşdirmə imkanlarının genişləndirilməsi ixracın hər vahidindən daha yüksək əlavə dəyər əldə etməyə şərait yarada bilər. Bu, uğurla ixrac olunan təzə məhsulların ixracını azaltmaq demək deyil. Məqsəd mövcud istehsal və ixrac potensialından istifadə etməklə dəyər zəncirinin daha yüksək mərhələlərinə keçidi sürətləndirməkdir.

2025-ci ilin yekun rəsmi göstəriciləri də məsələyə bu aspektdən yanaşmağın vacibliyini göstərir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, həmin il Azərbaycanın qeyri-neft-qaz məhsulları ixracının dəyəri 3 milyard 628,2 milyon dollara çataraq əvvəlki illə müqayisədə faktiki qiymətlərlə 8,1 faiz artıb. Aqrar və ərzaq məhsullarının ayrı-ayrı qruplarında artım daha yüksək olub. 2024-cü illə müqayisədə 2025-ci ildə təzə meyvə ixracı 21,4, təzə tərəvəz ixracı 18, kartof ixracı 47,8, bitki yağları ixracı 25, şəkər ixracı isə 67,6 faiz artıb. Eyni zamanda meyvə və tərəvəz şirələrinin ixracı 1,2, meyvə və tərəvəz konservlərinin ixracı 16,4, çay ixracı 2,9, təbii üzüm şərabları və üzüm suslosunun ixracı 14,8 faiz azalıb.

Bu rəqəmləri yalnız ayrı-ayrı məhsullar üzrə artım və azalma kimi qəbul etmək doğru olmazdı. Təzə meyvə və tərəvəz ixracının yüksək templə artdığı bir şəraitdə bəzi emal olunmuş məhsul qruplarında azalmanın müşahidə edilməsi əlavə dəyər məsələsinə daha çox diqqət yetirilməsinin vacibliyini göstərir. Ancaq bu göstəricilər emal olunmuş aqrar məhsulların ixracının bütövlükdə zəiflədiyi qənaətinə gəlməyə əsas vermir. Eyni ildə bitki yağlarının ixracının 25, şəkərin isə 67,6 faiz artması bunu təsdiqləyir. Deməli, əsas məsələ təzə və emal olunmuş məhsullar arasında seçim etmək deyil, hər bir məhsul qrupu üzrə rəqabət üstünlüklərini və əlavə dəyər yaratmaq imkanlarını düzgün qiymətləndirməkdir.

### İstehsaldan ixraca vahid zəncir

Xarici bazarda uğur yalnız məhsulun istehsal həcmi və ilkin qiyməti ilə müəyyən olunmur. Məhsul yığımından sonrakı mərhələlər də son nəticəyə birbaşa təsir göstərir. Meyvə sektoru üzrə təhlil göstərir ki, ixrac potensialının reallaşdırılmasında dəyər zəncirinin düzgün təşkili mühüm rol oynayır. Məhsul yığımından sonrakı infrastruktur, soyuq saxlama imkanları, səmərəli logistika və bazarla əlaqələr də bu prosesə təsir edən əsas amillərdəndir. Yüksəkkeyfiyyətli məhsul istehsal etmək onun uzaq xarici bazara eyni keyfiyyətdə çatdırılmasına hələ təminat vermir. Məhsulun vaxtında yığılması, çeşidlənməsi, uyğun temperaturda saxlanması, standartlara uyğun qablaşdırılması və optimal logistika marşrutu ilə daşınması son satış imkanlarına təsir edir.

Ona görə də soyuducu anbarlar, çeşidləmə və qablaşdırma müəssisələri, emal infrastrukturu və müasir logistika sistemləri kənd təsərrüfatına xidmət edən sadəcə yardımçı sahələr kimi qiymətləndirilməməlidir. Bunlar aqrar ixracın rəqabət qabiliyyətini formalaşdıran dəyər zəncirinin əsas elementləridir. İstehsalçı, emalçı, logistika şirkəti və ixracatçı arasında koordinasiyanın gücləndirilməsi də vacibdir. Kiçik və orta kənd təsərrüfatı istehsalçılarının ayrılıqda xarici bazarın tələb etdiyi həcm, keyfiyyət və standartları təmin etməsi həmişə mümkün olmur. Kooperasiya isə məhsul partiyalarının formalaşdırılmasına, vahid keyfiyyət standartlarının tətbiqinə və ixrac müqavilələrinin daha davamlı icrasına imkan yarada bilər.

Dövlət proqramında ixracyönümlü aqrobiznesin inkişafına xüsusi yer verilməsi istehsalla ixrac arasında əlaqələrin gücləndirilməsi üçün mühüm addımdır. İstehsal, saxlama, emal, logistika, sertifikatlaşdırma və ixrac bir-birindən ayrı deyil, vahid iqtisadi zəncirin mərhələləri kimi nəzərdən keçirilməlidir. Aqrar ixracın nəticələrini qiymətləndirərkən yalnız ümumi ixrac dəyərinə baxmaq kifayət deyil. Əsas bazarların payı, ixrac coğrafiyasının şaxələnməsi, məhsul strukturu və əlavə dəyər yaradan məhsulların ixracdakı mövqeyi də mütəmadi izlənilməlidir.

### Həcmdən keyfiyyətə

2016-2024-cü illərdə aqrar və ərzaq məhsulları ixracına aid rəqəmlər sektorda əhəmiyyətli artımı, coğrafi konsentrasiyanın yüksək qalması isə bazar şaxələnməsinin eyni sürətlə getmədiyini göstərir. 2025-ci ilin nəticələri məsələnin digər tərəfini - məhsul strukturunu önə çıxarır. Təzə meyvə və tərəvəz ixracındakı yüksək artım Azərbaycanın bu məhsullar üzrə mövcud potensialını təsdiqləyir, ayrı-ayrı emal məhsullarındakı fərqli dinamika isə əlavə dəyəri artırmaq imkanlarının hər məhsul qrupu üzrə ayrıca qiymətləndirilməsini zəruri edir.

Aqrar ixracın gələcək inkişafında üç istiqamət xüsusi əhəmiyyət daşıyır. Ənənəvi bazarlardakı mövqelər qorunmaqla məhsul-bazar prinsipi əsasında alternativ ixrac istiqamətləri genişləndirilməlidir. Təzə məhsullar üzrə mövcud rəqabət üstünlükləri emal, qablaşdırma, saxlama və brendləşdirmə hesabına daha yüksək əlavə dəyərlə tamamlanmalıdır. İxracın uğuru isə yalnız satışın ümumi məbləği ilə deyil, məhsul strukturu və coğrafi şaxələnmə göstəriciləri ilə birlikdə qiymətləndirilməlidir.

Azərbaycanın aqrar ixracının növbəti inkişaf mərhələsində əsas məsələ yalnız daha çox ixrac etmək deyil, ixrac artımının keyfiyyətini yüksəltməkdir. Həcm artımının struktur transformasiyası və coğrafi şaxələndirmə ilə tamamlanması aqrar ixracdan əldə olunan əlavə dəyərin yüksəldilməsinə, istehsalçıların satış imkanlarının genişlənməsinə və Azərbaycan kənd təsərrüfatı məhsullarının xarici bazarlardakı mövqelərinin daha da möhkəmlənməsinə xidmət edə bilər.

*Rəmzi ABDULLAYEV,*
*iqtisad üzrə fəlsəfə doktoru*

## Şəmkirdə dövlət proqramı üzrə görülən işlər müzakirə edilmişdir

Şəmkirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr və bu istiqamətdə görülən işlər müzakirə edilmişdir.



Müşavirədə qeyd edilmişdir ki, dövlət proqramında müəyyənləşdirilən hədəflərə uyğun olaraq aqrar sahənin inkişafı, istehsalın və məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi və fermerlərin fəaliyyət imkanlarının artırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir. Dövlət proqramının icrası ilə bağlı təsdiq edilmiş İş Planına uyğun olaraq rayon ərazisində kənd təsərrüfatının müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən təsərrüfatlara baxış keçirilmiş, fermerlərlə görüşlər təşkil olunmuş, onların qarşılaşdıqları problemlər yerində öyrənilmişdir.

Şəmkir Aqroparkında keçirilən görüşdə müəssisənin mövcud vəziyyəti, bağçılıq sahəsində planlaşdırılan tədbirlər, həmçinin su resurslarından səmərəli istifadə məqsədilə nəzərdə tutulan layihələrin müzakirəsi də aparılmışdır. Tədbirdə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək, kənd təsərrüfatının rayonun sosial-iqtisadi inkişafında mühüm rol oynadığını qeyd etmiş, dövlət proqramından irəli gələn vəzifələrin icrası zamanı aidiyyəti dövlət qurumlarının koordinasiyalı fəaliyyətinin və fermerlərin qarşılaşdıqları problemlərin operativ həllinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Bağçılıq və istixana təsərrüfatlarına baxış zamanı isə bu sahələrin inkişafı üçün mövcud imkanlar nəzərdən keçirilmişdir. Bildirilmişdir ki, dövlət proqramında intensiv bağçılığın genişləndirilməsi, yeni texnologiyaların tətbiqi, istixana təsərrüfatlarının müasirləşdirilməsi və istehsal imkanlarının genişləndirilməsi istiqamətində bir çox tədbir nəzərdə tutulmuşdur.

Müşavirədə o da bildirilmişdir ki, rayonun əlverişli iqlim şəraiti və formalaşmış aqrar infrastrukturu, həmçinin sahibkarların zəngin təcrübəsi bu sahələrin inkişafı üçün geniş imkanlar yaradır. Heyvandarlıq təsərrüfatlarında yüksək məhsuldar cins inəklərin sayının artırılması, yem bazasının gücləndirilməsi, baytarlıq xidmətlərinin əlçatanlığının təmin edilməsi və müasir təsərrüfat idarəçiliyinin tətbiqi ilə bağlı məsələlərə də diqqət yetirilmişdir. Dövlət proqramında heyvandarlığın inkişafı üzrə müəyyənləşdirilən hədəflərin rayonda həyata keçirilməsi, məhsuldarlığın yüksəldilməsi və istehsal imkanlarının artırılması istiqamətində işlərin davam etdirilməsinin vacibliyi qeyd edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Neftçalada kənd təsərrüfatında innovativ vasitələrin tətbiqi mövzusunda təcrübə öyrənilir

Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun, "Bimextech" MMC-nin, Neftçala Rayon İcra Hakimiyyətinin və Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə aqrar sahədə fəaliyyət göstərən fermerlərlə kənd təsərrüfatında müasir innovativ vasitələrdən, rəqəmsal texnologiyalardan biri olan pilotsuz uçuş aparatlarından istifadə etməklə əkin sahələrində herbisid və maye gübrə tətbiqinin optimallaşdırılması mövzusunda maarifləndirici və praktiki görüş keçirilib. Təlimdə dron texnologiyalarının kənd təsərrüfatında tətbiqi imkanları nümayiş etdirilib və praktiki məlumatlar təqdim olunub.



Tədbir zamanı pilotsuz uçuş aparatlarının kənd təsərrüfatında tətbiqi imkanlarının nümayiş etdirilməsi və praktiki məlumatların təqdim olunması, müasir avadanlıqların bitkiçilik sahəsinin inkişafında, su, yanacaq, gübrə, dərman vasitələrinin optimallaşdırılmasında mühüm əhəmiyyət kəsb etməsi diqqətə çatdırıldı. Kənd təsərrüfatı dronlarının tətbiqinin "ağıllı kənd təsərrüfatı" konsepsiyasının əsasını təşkil etməklə innovativ texnologiyaların ənənəvi əkinçilik üsullarını əsaslı şəkildə dəyişdirərək məhsuldarlığın artırılmasına, xərclərin minimuma endirilməsinə mühüm töhfəsi barədə fermerlərə ətraflı məlumat verilib. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda müasir innovativ vasitələrin, rəqəmsal texnologiyaların istifadə olunmasının zərərvericilərlə mübarizədə xüsusi əhəmiyyəti fermerlərin diqqətinə çatdırılıb.

## Yardımlıda kənd təsərrüfatının inkişafı məsələləri müzakirə olunub

Yardımlı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, RİH başçısı səlahiyyətlərini icra edən Azər Xamiyev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 5-ci ərazi sektorunun müdiri Dəyanət Abdullayev, Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Pərviz Yusifov, Yardımlı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Şahlar Əliyev və Yardımlı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin baş mühəndisi Füzuli Babayev "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində rayonda görülən işlərlə yerində tanış olmaq məqsədilə bir sıra fermer təsərrüfatlarına və sahibkarlıq subyektlərinə baxış keçiriblər.



Sonra rayon icra hakimiyyətində dövlət proqramının icrası ilə bağlı RİH başçısı yanında yaradılmış qərargah üzvlərinin, kənd təsərrüfatı, balıqçılıq məhsullarının istehsalı və emalı ilə məşğul olan təsərrüfatların nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Görüşdə dövlət proqramı çərçivəsində həyata keçirilən tədbirlərə dair məlumatlar müzakirə olunub.

Tədbirdə çıxış edən Yardımlı RİH başçısı səlahiyyətlərini icra edən Azər Xamiyev rayonun aqrar potensialının daha dolğun şəkildə reallaşdırılmasının vacibliyini qeyd edib. O bildirib ki, kənd təsərrüfatında istehsalın artırılması ilə yanaşı, təsərrüfatların texniki və texnoloji imkanlarının gücləndirilməsi, resurslardan qənaətlə istifadə və müasir idarəetmə üsullarının tətbiqi aqrar sahənin davamlı inkişafına mühüm töhfə verə bilər. A.Xamiyev rayonda kənd təsərrüfatı ilə məşğul olan sahibkar və fermerlərin fəaliyyətinin dəstəklənməsinin, onların mövcud dövlət mexanizmlərindən düzgün və səmərəli istifadə etməsinin, həmçinin təsərrüfatların inkişafına mane olan məsələlərin aidiyyəti üzrə həllinin diqqətdə saxlanılmasının önəmli olduğunu vurğulayıb. A.Xamiyev rayonun dağlıq relyefini və özünəməxsus iqlim şəraitini nəzərə alaraq, xüsusilə taxılçılıq, intensiv bağçılıq, heyvandarlıq və arıçılıq sahələrində mövcud potensialın tam reallaşdırılmasının vacibliyini önə çəkib.

Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin 5-ci ərazi sektorunun müdiri Dəyanət Abdullayev çıxışında dövlət proqramının ölkənin aqrar potensialından maksimum səmərəli istifadə etmək və qlobal çağırışlara cavab vermək məqsədilə hazırlanmış genişhəcmli fəaliyyət planı olduğunu qeyd edib. D.Abdullayev vurğulayıb ki, dövlət başçısı tərəfindən müəyyən edilmiş prioritet istiqamətlər və yeni dövlət proqramı kənd təsərrüfatının müasir standartlara uyğun inkişafını, innovativ yanaşmaların tətbiqini və kənd yerlərində məşğulluğun genişləndirilməsini nəzərdə tutur. Natiqin sözlərinə görə, bu strateji hədəflər Yardımlı rayonunda kənd təsərrüfatının rəqabət qabiliyyətinin daha da yüksəldilməsini, aqrar sahibkarlığın genişləndirilməsini və istehsalın keyfiyyətcə yeni mərhələyə keçməsini zəruri edir.

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Pərviz Yusifov çıxışında bildirib ki, 2026-2030-cu illəri əhatə edən dövlət proqramı çərçivəsində əsas məqsədlərdən biri sahibkarlığın və kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsidir. Bu istiqamətdə subsidiyaların, güzəştli kreditlərin və digər dəstək mexanizmlərinin genişləndirilməsi fermer və sahibkarların fəaliyyətinə mühüm töhfə verəcəkdir. Dövlət dəstəyi hesabına istehsalın artırılması, yeni iş yerlərinin yaradılması, müasir texnologiyaların tətbiqi və regionların iqtisadi potensialından səmərəli istifadə təmin olunacaq və əsas hədəf göstərilən dəstək mexanizmlərindən səmərəli istifadə etməklə dayanıqlı iqtisadi inkişaf və sahibkarlıq mühiti daha da gücləndiriləcəkdir.

Tədbirdə çıxış edən fermer və sahibkarlar onlara göstərilən qayğıya və yaradılan şəraitə görə Prezident İlham Əliyevə təşəkkür edib, dövlət proqramının icrası ilə bağlı yeni layihə və hədəflərdən danışıb, qarşılaşdıqları problemləri sadalayıblar. Müzakirələrdə fermer və sahibkarların müraciət və təklifləri dinlənilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Sabah Bakıda "Formula-1" - sürət həyəcanı başlayır



Bakıda "Formula-1" həyəcanı yenidən başlayır. 2026-cı il "Formula-1" Qatar Airways Azərbaycan Qran-prisi mövsümün 15-ci yarışı olacaq və bu dəfə Bakı həftəsonunun ən böyük fərqliliyi yarışın bazar günü deyil, şənbə günü - 26 sentyabrda keçirilməsidir.

"Formula-1"in rəsmi təqviminə əsasən, bütün proqram bir gün əvvələ çəkilib. Bunun səbəbi sentyabrın 27-nin Azərbaycanda Anım günü kimi qeyd olunmasıdır. "Formula-1" və FIA Azərbaycan tərəfinin müraciətindən sonra yarışın tarixini dəyişib. "Formula-1" 24 sentyabr, cümə axşamı başlayacaq. Yarışın yerli vaxtla proqramı belədir:

- 24 sentyabr, 12:30 - "Formula-1", I sərbəst yürüş
- 24 sentyabr, 16:00 - "Formula-1", II sərbəst yürüş
- 25 sentyabr, 12:30 - III sərbəst yürüş
- 25 sentyabr, 16:00 - Təsnifat mərhələsi
- 26 sentyabr, 15:00 - Azərbaycan Qran-prisi

Əsas yarış 51 dövrədən ibarət olacaq və "Formula-1"in rəsmi məlumatına görə, ümumi məsafə 306,049 kilometrdir.

Baku City Circuit "Formula-1" təqvimində ən qeyri-adi şəhər traslarından biridir. Dövrənin uzunluğu 6,003 kilometrdir və tras həm çox sürətli düzlükləri, həm də son dərəcə dar və texniki hissələri birləşdirir.

Xüsusilə dənizkənarı uzun düz xətt sürücülərə yüksək sürət və ötmə imkanları yaradır. Daha sonra bolidlər İçərişəhərin dar küçələrinə daxil olur. Burada səhvin qiyməti çox yüksəkdir: divarlar trasın kənarına olduqca yaxındır.

Trasın əsas xüsusiyyətlərindən biri də komandaların sazlama baxımından seçim qarşısında qalmasıdır. Sürətli hissələrdə yüksək maksimal sürət üçün daha az müqavimət, dar döngələrdə isə daha çox yerəbasma qüvvəsi tələb olunur. Bu kompromis Bakını mühəndislər üçün də xüsusi çətinlik yaradan traslardan birinə çevirir.

Bakıya gələn "Formula-1" pelotonunda diqqətin əsas mərkəzində Kimi Antonelli və onun çempionatdakı liderliyi dayanır. Məlumata görə, Antonelli Madriddə son yarışdakı qələbəsindən sonra ən yaxın rəqibi üzərində üstünlüyünü 81 xala çatdırıb.

Digər tərəfdən Madrid yarışında poul mövqeyindən başlayan Lando Norris potensial qələbəni reallaşdıra bilməmişdi. Buna görə Bakıda McLaren sürücüsünün nəticəsi də çempionatın gedişi baxımından əsas izləniləcək məqamlardan biridir.

Bakının xüsusiyyəti isə odur ki, burada yarışın gedişinə yalnız sürət deyil, strategiya, təhlükəsizlik avtomobili, təkər seçimi və trasdakı kiçik səhvlər də ciddi təsir göstərə bilər.

Azərbaycan Qran-prisi 2017-ci ildən keçirilir. Ondan əvvəl 2016-cı ildə Bakı "Formula-1" təqviminə Avropa Qran-prisi adı ilə daxil olmuşdu. Bakı trasında bir neçə dəfə qalib gələn sürücülər arasında Sergio Perez və Max Verstappen var - hər ikisi bu trasda iki dəfə qalib olub. 2025-ci il Azərbaycan Qran-prisinin qalibi isə Max Verstappen olub.

"Formula-1"dən başqa, Bakı həftəsonunda "Formula-1" yarışları da keçiriləcək. F2-nin ikinci feature yarışı şənbə günü saat 11:00-da, "Formula-1" isə saat 15:00-da start götürəcək.

Beləliklə, sentyabrın 24-dən 26-dək Bakı yenidən dünyanın ən böyük avtoidman tədbirlərindən birinin mərkəzinə çevriləcək. Uzun düzlüklər, İçərişəhərin dar küçələri, divarlara yaxın sürüşlər və çempionatdakı gərgin mübarizə Azərbaycan Qran-prisinin əsas gözləntilərini formalaşdırır.

*Dönməz ABBASOV*

# Vahid məktəbli forması təhsildə bərabərlik prinsipini gücləndirir



Məktəb yalnız bilik və bacarıqların qazanıldığı məkan deyil. O, uşağın şəxsiyyət kimi formalaşdığı, cəmiyyətin müəyyən etdiyi davranış normalarını, məsuliyyət hissini, qarşılıqlı hörmət və birgəyaşayış prinsiplərini mənimsədiyi mühüm sosial mühitdir.

Bu baxımdan məktəbdə tətbiq olunan hər bir qayda ümumi təhsil prosesinin düzgün təşkilinə və sağlam mühitin yaradılmasına xidmət edir. Məktəbli forması isə ilk baxışda yalnız geyim məsələsi təsiri bağışlasa da, əslində, məktəb mədəniyyətinin, nizam-intizamın, bərabərliyin və ümumi təhsil mühitinin mühüm elementlərindən biridir.

Vahid məktəbli formasının tətbiqində əsas məqsədlərdən biri təhsil müəssisəsində səliqəli və eyni görünüş mədəniyyətinin formalaşdırılmasıdır. Məktəb uşağın gününün mühüm hissəsini keçirdiyi məkandır və burada geyim onun yaşına, tədris prosesinin xüsusiyyətlərinə, rahatlıq və praktik istifadə prinsiplərinə uyğun olmalıdır. Məktəbli forması uşağın diqqətini geyim vasitəsilə fərqlənməkdən daha çox təhsil prosesinə yönəltməyə, məktəb daxilində ümumi qaydalara uyğunlaşmasına şərait yaratmağa xidmət edir.

Məktəb mühitinin fundamental prinsiplərindən biri bərabərlikdir. Sosial statusundan, ailəsinin maddi imkanlarından, etnik və ya dini mənşəyindən asılı olmayaraq, hər bir uşağın eyni şərtlər daxilində təhsil alması və bərabər imkanlara malik olması təhsilin əsas dəyərlərindəndir. Eyni sinifdə, eyni parta arxasında əyləşən uşaqların sosial və maddi fərqlərinin geyim vasitəsilə qabardılmaması sağlam psixoloji mühitin yaradılması baxımından da əhəmiyyət daşıyır.

Müasir dövrdə geyim xüsusilə yeniyetmələr arasında, bəzən sosial statusun nümayiş vasitəsinə çevrilir. Müxtəlif brendlər, bahalı geyimlər və aksesuarlar uşaqlar arasında istər-istəməz müqayisə yaradır. Belə müqayisələr bir şagirddə üstünlük hissi formalaşdıra, digər şagirddə isə ailəsinin maddi imkanlarına görə narahatlıq və ya özünəinamsızlıq yarada bilər. Məktəb isə mümkün qədər belə sosial müqayisələrin deyil, biliyin, bacarığın, davranışın və nailiyyətlərin ön plana çıxdığı məkan olmalıdır. Vahid məktəbli forması maddi imkanların zahiri göstəricilərinin təhsil mühitində qabardılmasını müəyyən qədər məhdudlaşdıran vasitələrdən biridir. Burada mühüm məqam ondan ibarətdir ki, vahid geyim fərdiliyin aradan qaldırılması demək deyil. Şagirdlər eyni geyim formasından istifadə etsələr də, onların dünyagörüşü, maraqları, qabiliyyətləri, istedadları və gələcək hədəfləri fərqlidir. Məktəbin missiyası da bu fərqliliyi geyim və maddi imkanlar üzərindən deyil, uşaqların potensialının inkişafı üzərindən üzə çıxarmaqdır. Başqa sözlə, məktəbdə şagirdi fərqləndirən onun geyiminin markası və ya qiyməti deyil, qazandığı bilik, nümayiş etdirdiyi bacarıq, davranış mədəniyyəti və əldə etdiyi nailiyyət olmalıdır.

Məktəbli forması uşaqlarda kollektivə aidlik və məktəb kimliyi hissinin formalaşmasına da təsir göstərir. Şagird özünü müəyyən məktəb kollektivinin üzvü kimi qəbul edir, ümumi qaydalara riayət etməyin şəxsi məsuliyyət olduğunu öyrənir. Bu mənada məktəbli forması sadəcə köynək, şalvar, ətək və ya jaketdən ibarət geyim dəsti deyil. O, şagirdin daxil olduğu təhsil mühitində qəbul edilmiş ümumi nizam və davranış sisteminin bir hissəsidir. Uşaq kiçik yaşlarından müəyyən qaydalara əməl etməyi öyrəndikcə məsuliyyət, intizam və kollektiv daxilində davranış vərdişləri də formalaşır.

Nazirlər Kabinetinin 2026-cı il 21 sentyabr tarixli qərarı ilə 2022-ci il 17 mart tarixli 96 nömrəli qərarla təsdiqlənmiş "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nə müvafiq dəyişikliklər edilib. Yeni qaydaya əsasən, təhsilalanların müəyyən edilmiş geyim formasının vahidliyini pozan, həmçinin ümumi təhsilin dünyəvilik prinsipinə uyğun olmayan digər geyim elementlərindən istifadəyə yol verilmir.

Eyni zamanda yeni qaydalarda milli-mənəvi dəyərlərin qorunması və təbliği də nəzərə alınıb. Azərbaycan xalqının tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə bağlı keçirilən tədbirlərdə məktəbin Pedaqoji Şurasının qərarı əsasında milli geyimlərdən və ya milli geyim elementlərindən istifadəyə icazə verilir. Bu yanaşma məktəbin yalnız akademik bilik verən deyil, həm də milli mədəniyyətin öyrənildiyi və gələcək nəsillərə çatdırıldığı sosial institut olduğunu bir daha göstərir. Milli bayramlar, tarixi günlər, mədəniyyət və incəsənətlə bağlı məktəb tədbirləri şagirdlərin xalqın tarixi irsini yaxından tanıması üçün mühüm vasitədir. Belə tədbirlər zamanı milli geyim və onun ayrı-ayrı elementlərindən istifadə tarixi-mədəni irsin əyani şəkildə təqdim edilməsinə, uşaqlarda milli mədəniyyətə marağın güclənməsinə xidmət edə bilər.

Yeni dəyişikliklər valideynlərin də məsuliyyətini konkretləşdirir. Valideynlər və digər qanuni nümayəndələr övladlarının, yaxud qəyyumluğunda və ya himayəsindəki şəxslərin məktəbli forması ilə bağlı qaydalara əməl olunmasını təmin etməlidirlər. Məktəb qaydalarının effektiv tətbiqi yalnız məktəb rəhbərliyinin və müəllimlərin fəaliyyəti ilə mümkün deyil. Təhsil prosesində məktəb, şagird və valideyn arasında qarşılıqlı əməkdaşlıq mühüm əhəmiyyət daşıyır. Uşaq məktəbdə müəyyən edilmiş qaydanın ailə tərəfindən də dəstəkləndiyini gördükdə həmin tələbi daha asan qəbul edir və ona məsuliyyətlə yanaşır.

Geyim formasına dair tələblərin tətbiqi zamanı yarana biləcək məsələlərin həlli mexanizmi də müəyyənləşdirilib. Yeni müddəaya əsasən, sənədin tələblərinə şagirdlər tərəfindən riayət olunması ilə bağlı məsələlər məktəbin Pedaqoji Şurası tərəfindən həll edilir. Bu, geyim qaydalarının icrası ilə bağlı məsələlərin məktəb daxilində hansı qurum tərəfindən nəzərdən keçiriləcəyini konkretləşdirir. Digər mühüm məqam şəffaflığın təmin edilməsidir. Mövcud qaydalara görə, geyim forması dəsti məktəbin Pedaqoji Şurasının qərarı ilə müəyyən edilir və ən azı üç tədris ili ərzində dəyişilməz tətbiq olunur. Yeni dəyişikliyə isə qərarın qəbul edildiyi tarixdən beş iş günü müddətində məktəbin rəsmi internet səhifəsində və ya məlumat lövhəsində yerləşdirilməsi tələbi əlavə edilib. Bu müddəa valideyn və şagirdlərin tətbiq edilən geyim forması barədə məlumatı rəsmi mənbədən əldə etməsinə imkan yaradır. Məktəbdə hansı geyim dəstinin tətbiq olunduğu, bunun hansı qərara əsaslandığı barədə məlumatın əlçatan olması həm şəffaflığı artırır, həm də sonradan yarana biləcək anlaşılmazlıqların qarşısının alınmasına kömək edir.

Ümumiyyətlə, vahid məktəbli formasının tətbiqinə yalnız inzibati tələb kimi yanaşmaq məsələnin mahiyyətini tam əks etdirməz. Burada daha geniş sosial və pedaqoji məqsədlər mövcuddur. Məktəbə daxil olan uşaq fərqli ailə, sosial və mədəni mühitdən gələn yüzlərlə həmyaşıdı ilə eyni məkanda təhsil alır. Təhsil müəssisəsinin mühüm vəzifələrindən biri bu fərqlərin uşaqlar arasında ayrı-seçkilik və ya sosial təcrid amilinə çevrilməsinə imkan vermədən onları ortaq təhsil mühitində birləşdirməkdir. Məktəbli formasının vahidliyi də bu ümumi mühitin görünən elementlərindən biri kimi çıxış edir.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# E.Makron D.Trampla Ukrayna infrastrukturunun qorunmasını müzakirə edib



Fransa Prezidenti Ukraynanın enerji və mülki infrastrukturuna hücumlara moratorium tətbiq etmək üçün ABŞ ilə birgə səylər göstərəcəyini açıqlayıb. Makron və Tramp həmçinin Rusiyanın hücumlarını dəf etmək üçün ölkənin hava hücumundan müdafiəsinin gücləndirilməsinin tərəfdarıdırlar.

Fransa Prezidenti Emmanuel Makron Nyu Yorkda amerikalı həmkarı Donald Trampla Rusiyanın Ukraynaya qarşı müharibəsi zamanı enerji obyektlərinə hücumlara moratorium tətbiq etmək məqsədi daşıyan təşəbbüsləri müzakirə ediblər. Fransa lideri bu barədə "X" sosial media platformasında yazıb. Makron bildirib: "Biz həmçinin Ukraynanın enerji və mülki infrastrukturuna hücumlara moratorium tətbiq etmək üçün səylərimizi birləşdirəcəyik. Mülki şəxslər qorunmalıdır və Rusiya ilə Ukrayna arasında sülh şərtləri ilə bağlı ən qısa zamanda ciddi danışıqlara başlamalıyıq".

Trampla görüşündən sonra jurnalistlərlə görüşən Makron qeyd edib ki, onlar Ukraynanın müdafiəsinin gücləndirilməsinə kömək etmək barədə razılığa gəliblər. O bildirib ki, bu, Kiyevi Rusiyanın hava hücumlarından qorumaq üçün əlavə tutucu raketlərlə təmin etməyi də əhatə edir.

DW agentliyinin məlumatına görə, Nyu Yorkda Emmanuel Makron və Ukrayna Prezidenti Volodimir Zelenski arasında ikitərəfli görüş keçirilib.

Bundan əvvəl V.Zelenski Amerika qanunvericiləri ilə görüşüb və Rusiyaya qarşı "cəhənnəm sanksiyaları" qanununu qəbul etdiklərinə görə onlara təşəkkürünü bildirib. "Sanksiyaların işləməsini istəyirəm", - deyə Ukrayna lideri vurğulayıb.

BMT Baş Assambleyasının 81-ci sessiyası 22-26 sentyabr tarixlərində Nyu-Yorkda keçiriləcək və təxminən 130 dünya liderinin iştirakı gözlənilir.

# V.Zelenski ABŞ-də təxminən 20 görüş keçirəcək




Ukrayna Prezidenti Volodimir Zelenski həyat yoldaşı Olena Zelenska ilə birlikdə BMT Baş Assambleyasının sessiyasında iştirak etmək üçün Nyu Yorka gəldiyini açıqlayıb.

O, ABŞ-də dünya liderləri ilə təxminən 20 görüşün planlaşdırıldığını bildirib. V.Zelenski sosial mediada yazıb: "Mən Nyu Yorka BMT Baş Assambleyasının 81-ci sessiyası üçün birinci xanım və diplomatik qrupumla birlikdə gəldim. ABŞ Prezidenti, Avropa liderləri, senatorlar və ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri, beynəlxalq təşkilatların rəhbərləri, aparıcı Amerika şirkətləri və beyin mərkəzləri ilə də daxil olmaqla, təxminən 20 görüş planlaşdırılır. Yeni Dron Sazişi də imzalanmağa hazırdır. Əlbəttə ki, Ukraynanın əsas prioriteti sülhün gətirilməsi və xalqımızın həyatının qorunmasıdır. Müharibənin sonunu yaxınlaşdıra biləcək konkret təkliflər və deeskalasiya həlləri var. Biz hava hücumundan müdafiəni gücləndirmək və Ukrayna üçün kifayət qədər maliyyələşdirmə təmin etmək üçün çalışırıq". O bildirib ki, Olena Zelenska Kolumbiya Universitetinin tələbələri və müəllim heyəti qarşısında çıxış edəcək və BMT-də Birinci xanımlar və cənablar sammitinin nəticələrini təqdim edəcək.

"Birinci xanım həmçinin Olena Zelenska Fondunun layihələrini dəstəkləmək üçün Amerika biznesi və xeyriyyəçiləri ilə bir sıra görüşlər planlaşdırır. Bir sıra ikitərəfli görüşlər, o cümlədən Böyük Britaniya Baş nazirinin həyat yoldaşı və Dünya bankının prezidenti ilə görüşlər keçiriləcək", - deyə Ukrayna lideri əlavə edib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Hava əsasən yağmursuz olacaq

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi səhər mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq.**



Havanın temperaturu gecə 19-21° isti, gündüz 27-30° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-22° isti, gündüz 29-34° isti, dağlarda gecə 10-15° isti, gündüz 20-25° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

21 fevral 2017-ci ildə "Pilot Holding" MMC ilə Lətif Bəhmən oğlu Qarayev arasında bağlanmış Bakı şəhəri Möhsün Sənani küçəsi, 21-də yerləşən binanın B blokunun 3-cü mərtəbəsindəki 1 (47.5 kv.m) və 2 (83 kv.m) otaqlı mənzillərə dair müqavilələr itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3314
Sifariş 1229

Qiyməti 60 qəpik